Xalqın qəzeti!

# Xalq qəzeti

№ 139 (30543) 6 iyul 2024-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

## Qarabağ TDT Şuşa zirvəsini Qayıdış təntənəsi ilə qarşılayır



Səhifə ⇨ 2

## Ögey–doğmalıq



Səhifə ⇨ 5

## Çin Şanxay Əməkdaşlıq Təşkilatında ölkəmizin aparıcı tərəfdaşıdır



Səhifə ⇨ 8

## Paşinyan və hayların konstitusiya "azarı"



Səhifə ⇨ 6

## Şərti sərhəd və "torbada pişik" məsələsi

*ABŞ-nin sülh canfəşanlığına sözardı*

**Çoxdandı belə məsələlər gündəmdə deyildi. Söhbət Ermənistana gələn xaricilərin Azərbaycanla şərti sərhədə aparılmalarından gedir. Daha doğrusu, onların şərti sərhədə getmələrindən. Hər halda, kimsə buna məcbur edilmir. İndi gedənlər isə İrəvanda səfərdə olan ABŞ Konqresinin Helsinki Komissiyasının təmsilçilərindən ibarət nümayəndə heyətinin üzvləridir. Onların şərti sərhəddə nə iş gördükləri barədə söz açacağıq. Ancaq hələlik başqa məqama diqqət yetirək.**



Ermənistan hakimiyyətinin ölkəyə gələn hər bir yüksək səviyyəli xarici qonağı Azərbaycanla şərti sərhədə aparması hansı məqsədi daşıyır? Əlbəttə ki, ikincilərə ölkəmizin, guya, işğal etdiyi əraziləri göstərməyə. Bununla rəsmi İrəvan nəyə nail olur? Cavab sadədir – Azərbaycanın təcavüzkar obrazını yaradır. Bəs bu obrazı yaratmaq nə üçün lazımdır? Burada da qeyri-adi heç nə yoxdur. Erməni iqtidarı Azərbaycanla sülhdə maraq göstərmədiyindən reallıqları təhrif etməyə çalışır, manipulyasiyaya əl atır. Eyni zamanda, yeni reallıq formalaşdırmağa və onu sülh prosesinə sırımağa cəhd göstərir. Beləliklə, erməni iqtidarı, öz aləmində, üstünlük qazanacağını düşünür.

Digər tərəfdən, nəzərə alaq ki, Ermənistan hakimiyyətinin Azərbaycanı işğalçı kimi təqdim etmək niyyətlərində daha böyük məntiq əsas götürülür. Yəni, burada başlıca məsələ heç də neçə hektar ərazinin, hansısa kəndin ölkəmizin silahlı qüvvələri tərəfindən ələ keçirildiyinə dair iddialarda deyil. İşğalçı obrazı Azərbaycanın bütövlükdə 44 günlük müharibə nəticəsində əldə etdiklərinə köklənir. Belə rəy formalaşdırılır ki, sanki, ölkəmiz müharibə ilə nəyə nail olubsa, hamısı qəsbkarlıqdır. Erməni siyasəti bunu xaricilərin düşüncələrinə yeritməyə çalışır. Təxminən belə: 2020-ci ildən başlayaraq Ermənistana qarşı təcavüz reallaşdırılır və Azərbaycan bu gün də siyasətinə sadiqdir.

Bəli, "mövzu" bu qədər geniş götürülür. Diqqət yetirək, rəsmi İrəvanın təmsilçiləri dilə gətirməsələr də, yalnız 2022-ci ilin sentyabr hərbi eskalasiyası zamanı, guya, Azərbaycanın Ermənistanın ərazilərini tutduğunu bildirməklə məhdudlaşsalar da, dünya erməniliyinin nümayəndələri, eləcə də erməni ekspert-politoloq cameəsi 44 günlük müharibə zamanı itirdikləri bütün əraziləri eyni müstəvidə tuturlar. Bu yolla beynəlxalq hüquq prinsiplərini heçə sayırlar. Əlbəttə, onlar Qarabağ itkisini xüsusilə qabardırlar. "Nəticə" isə göz önündədir.

İndiyədək ABŞ-nin ən müxtəlif dairələrində səslənmiş bəyanatlarda Azərbaycanın Qarabağa, Qarabağ ermənilərinə qarşı təcavüz gerçəkləşdirdiyi vurğulanır. Nəinki vurğulanır, hətta, bu barədə bar-bar bağırılır. Ölkənin bəzi konqresmenlərinin və senatorlarının mövcud məsələdə dilə gətirdiklərinə heyrətlənməyə bilmirsən. Düşünürsən ki, görəsən, adamlar bu qədərmi avamdırlar? Yəni, onların beynəlxalq hüquq barədə təsəvvürləri yoxdurmu? Əlbəttə, suallar çox olduğu kimi, şübhələr də az deyil. Ayrı-ayrı məqamları təhlil edərkən isə yekunda belə qənaətə gəlirsən ki, ABŞ-dəkilər hər şeyin gözəl fərqindədirlər. Onlar nə zaman nəyi deməyi, nə vaxt hara getməyi çox yaxşı bilirlər. Deməli, ABŞ konqresmenlərinin Ermənistanın Azərbaycanla şərti sərhədində peyda olmaları təsadüfi sayıla bilməz.

**(ardı 5-ci səhifədə)**

## Orta Dəhliz – Bakı–Pekin əməkdaşlığının ana yolu




Səhifə ⇨ 8

## Dövlət kəndin əsas arxa-dayağıdır



Səhifə ⇨ 7

## Gizli finalın açıq məqamları




Səhifə ⇨ 12

## Türkiyə Suriya və İraqda yeni əməliyyatlara başlaya bilər



Səhifə ⇨ 11

## "Qarabağ gecəsi"nin işıqlı hədəfi



Səhifə ⇨ 10

# Prezident İlham Əliyev Xocalı, Xankəndi və Şuşada

## Dövlət başçısı Xocalı Hava Limanında



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 5-də Xocalı Hava Limanında olub.**

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin (AZAL) prezidenti Samir Rzayev, Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Elçin Yusubov dövlətimizin başçısına görüləcək işlər barədə məlumat verdilər.

Qeyd edək ki, Xocalı rayonunda Xankəndi şəhərindən 10 kilometr şimal-şərqdə, mürəkkəb relyefli ərazidə yerləşən Xocalı Hava Limanı 1974-cü ildə istismara verilib. 2020-ci ildə Birləşmiş Millətlər Təşkilatının ixtisaslaşmış təşkilatı - Beynəlxalq Mülki Aviasiya Təşkilatı (ICAO) Xocalı Hava Limanına UBES indeksi verməklə onun Azərbaycana məxsus olduğunu təsdiqləyib.

Bildirildi ki, dəniz səviyyəsindən 575 metr hündürlükdə yerləşən Xocalı aeroportunun ərazisi 188,5 hektardır. Hazırda hava limanında 2170 metr uzunluğunda və 45 metr enində bir uçuş-enmə zolağı, iki sürmə yolu, bir perron və bir terminal mövcuddur. Perron ərazisində hava gəmiləri üçün ümumilikdə üç dayanacaq mövcuddur.

Məlumat verildi ki, Xocalı Hava Limanının infrastrukturunun inkişaf etdirilməsi məqsədilə bir sıra təkmilləşdirmə işlərinin aparılması nəzərdə tutulub. Belə ki, mövcud uçuş-enmə zolağının uzunluğu 3000 metrədək, eni isə 60 metrədək genişləndiriləcək. Hava limanının ərazisinin optimallaşdırılması işləri həyata keçiriləcək və burada ümumi sahənin 177,27 hektar, perron ərazisinin isə 47 min kvadratmetr olması planlaşdırılır. Görüləcək bütün işlər beynəlxalq norma və standartlara uyğun şəkildə həyata keçiriləcək, hava limanı ən müasir səviyyəyə çatdırılacaq.

Diqqətə çatdıraq ki, işğaldan azad olunan ərazilərin qısa müddətdə bərpası və yenidən qurulması istiqamətində həyata keçirilən işlər arasında hava nəqliyyatı infrastrukturunun yaradılması xüsusi əhəmiyyət daşıyır. Dövlətimizin başçısının xüsusilə diqqət mərkəzində saxladığı bu sahədə görülən işlər nəticəsində Vətən müharibəsindən qısa müddət sonra – 2021-ci ilin oktyabrında Füzuli, bir il sonra isə Zəngilan Beynəlxalq Hava limanları istifadəyə verilib. Laçın Beynəlxalq Hava Limanının tikintisinin isə bu ilin sonunda başa çatdırılması planlaşdırılır. Xocalı Hava Limanında görüləcək işlər bölgənin inkişafına əlavə töhfə verəcək.

## "Qarabağ" hotelinin açılışı



**İyulun 5-də Xankəndi şəhərində əsaslı təmir və bərpadan sonra "Qarabağ" hotelinin açılışı olub.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri Ramin Quluzadə dövlətimizin başçısına görülən işlərlə bağlı məlumat verdi.

Qeyd edildi ki, hotel ötən əsrin ortalarında istifadəyə verilib. 2023-cü ildə 24 saatlıq antiterror tədbirləri nəticəsində ərazi bütövlüyümüzün tam bərpasından sonra Prezident İlham Əliyevin tapşırığına əsasən, hoteldə təmir-bərpa və yenidənqurma işlərinin həyata keçirilməsinə başlandı. Yenidənqurma işlərindən sonra bina ilkin görkəminə qaytarılıb.

Bildirildi ki, hotelin keçmiş adı da qaytarılıb və "Qarabağ" adı ilə fəaliyyət göstərəcək. Müasir səviyyəyə çatdırılan hoteldə Xankəndi şəhərinə səfər edəcək qonaqların rahatlığı üçün hər cür şərait yaradılıb. Burada müxtəlif kateqoriyalı otaqlar var. Binada restoran da qonaqların ixtiyarına veriləcək. Hoteldə işgüzar görüşlər və tədbirlər keçirmək də mümkün olacaq.

Hotelə yaxın olan ərazidə abadlıq işləri də görülüb.

## Xankəndidə Qarabağ Universiteti ilə tanışlıq



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 5-də Xankəndi şəhərində Qarabağ Universitetində görülən işlərlə tanış olub.**

Elm və təhsil naziri Emin Əmrullayev ali təhsil ocağında görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verdi.

Bildirildi ki, universitet binasının fasadında rəngləmə işləri aparılıb, əsas giriş hissənin isə tarixi formasına qaytarılması üçün əlavə dəyişikliklər edilib. Binanın dəhlizlərinin döşəmələri sökülərək yenilənib. Daxili divarların suvağı təzələnib, suvaqaltı kommunikasiya xətləri dəyişdirilib. Bütün otaqlar müasir tələblərə uyğun mebel və avadanlıqlarla təchiz olunacaq. Universitetin ərazisində geniş abadlıq işləri görülüb. Binanın qarşısındakı park sökülərək müasir tələblərə uyğun yeni park salınıb.

Qeyd edildi ki, ölkənin və regionun ehtiyacları, həmçinin beynəlxalq əmək bazarının müasir trendləri nəzərə alınmaqla, ilkin mərhələdə Qarabağ Universitetində kadr hazırlığı 6 fakültədə - Pedaqoji, İncəsənət, Humanitar və sosial elmlər, İqtisadiyyat, Mühəndislik və Turizm fakültələrində aparılacaq. 2024/2025-ci tədris ili üçün universitetdə ümumilikdə 27 ixtisas üzrə 1120 tələbənin təhsil alması nəzərdə tutulur. Bundan əlavə, universitetdə 8 ixtisas üzrə SABAH qrupları yaradılacaq. Müxtəlif ali təhsil müəssisələrinin birinci tədris ilini (kursunu) bitirmiş tələbələri arasında imtahan və müsahibə keçirilməklə əlavə olaraq 200-250 tələbənin də sentyabrda Qarabağ Universitetinin SABAH qruplarında təhsil alması planlaşdırılır. Bununla bağlı müvafiq elan verilib və qeydiyyat prosesi başlanılıb.

Qəbul aparılacaq ixtisaslar üzrə yeni məzmunlu təhsil proqramlarının hazırlanması işinə start verilib. Beynəlxalq təcrübəyə əsaslanmaqla müasir dövrün tələblərinə uyğun olaraq Qarabağ Universitetinin strukturu hazırlanıb və təsdiqlənib. Eyni zamanda, Qarabağ Universiteti tərəfindən ştat cədvəli təsdiq edilib və ilkin olaraq universitetdə zəruri vəzifələr üzrə təyinatlar aparılıb. Universitetin inzibati və elmi-pedaqoji kadr potensialının daha peşəkar formalaşdırılması üçün ardıcıl olaraq bir sıra vəzifələr üzrə vakansiya elanları verilib. Proqram rəhbərləri (dekanlar) üçün vakansiya müraciətləri dəyərləndirilib və müvafiq komissiya tərəfindən müsahibələr keçirilib, hazırda həmin vəzifələrə təyinatlar aparılır.

Qarabağ Universitetinin loqo, brendinq və promo məhsullarının, sosial media strategiyasının, tanıtım videoçarxlarının hazırlanması istiqamətində işlər davam etdirilir.

Tələbələr Qarabağ Universitetinə Dövlət İmtahan Mərkəzinin qəbul imtahanları (I tədris ilinə), Elm və Təhsil Nazirliyinin SABAH qruplarına imtahan və müsahibələri əsasında (II tədris ilinə) cəlb ediləcəklər. Regional təhsil idarələri vasitəsilə buraxılış siniflərində təbliğat işləri aparılır. Yüksək bal toplamış abituriyentlərin Qarabağ Universitetinə səfərlərinin təşkili planlaşdırılır.

Diqqətə çatdırıldı ki, Qarabağ Universitetində təhsil alacaq tələbələr üçün bir sıra imtiyazlar da nəzərdə tutulub. Belə ki, burada təhsil alacaq tələbələr ödənişsiz mənzil tipli yataqxana, təqaüd, həmçinin kompüterlə (notbuk) ilə təmin olunacaqlar. Ən yüksək bal toplayan tələbələrə əlavə təqaüd veriləcək. Tələbələr üçün ekoloji təmiz universitet şəhərciyi yaradılacaq.

Xatırladaq ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2023-cü il noyabrın 28-də "Qarabağ Universitetinin yaradılması haqqında" Sərəncam imzalayıb. Sərəncama əsasən, regionun sosial-iqtisadi ehtiyaclarına uyğun yüksəkixtisaslı kadr tələbatının ödənilməsi və tarixən mövcud olmuş təhsil ənənələrinin yaşadılması məqsədilə Xankəndi şəhərində yerləşən ali təhsil müəssisəsinin əsasında Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində "Qarabağ Universiteti" publik hüquqi şəxs yaradılıb.

## Konqres Mərkəzində təməlqoyma

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 5-də Xankəndi Konqres Mərkəzinin təməlini qoyub.**



Dövlətimizin başçısına layihə barədə məlumat verildi.

Bildirildi ki, Konqres Mərkəzinin ümumi sahəsi 6 min kvadratmetr, tikintialtı sahəsi isə 2 min kvadratmetrə yaxın olacaq. Mərkəzin dörd mərtəbədən və bir zirzəmi qatından ibarət binasında müxtəlif tədbir və ziyafətlərin keçirilməsi üçün zallar olacaq. Burada əyləncə və istirahət üçün idman zalı, qapalı hovuz və SPA zonası da yaradılacaq.

Dövlətimizin başçısına Konqres Mərkəzi ilə bir kompleksdə yer alan "Xankəndi" hotelinin layihəsi barədə də məlumat verildi.

Qeyd edildi ki, hotelin ümumi sahəsi 3800 kvadratmetr, tikintialtı sahəsi isə 900 kvadratmetrdir. Hoteldə müxtəlif tipli 105 otaq olacaq. Bundan başqa, burada ən müasir iaşə məkanları da yaradılacaq. Binanın birinci mərtəbəsində "Lobby Lounge & Terrace" restoranı fəaliyyət göstərəcək.

Vurğulandı ki, Qarabağın özünəməxsus memarlıq üslubunda inşa ediləcək kompleksdə ölkə və beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsi üçün ən müasir tələblərə uyğun şərait yaradılacaq.

Dövlətimizin başçısı Xankəndi Konqres Mərkəzinin təməlini qoydu.

## "Palace" hoteli istifadəyə verilib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 5-də Xankəndi şəhərində əsaslı təmir və bərpadan sonra "Palace" hotelinin açılışında iştirak edib.**

Dövlətimizin başçısına hoteldə yaradılan şərait barədə məlumat verildi.

Bildirildi ki, hoteldə müxtəlif tipli 54 otaq var. Burada ən müasir iaşə məkanları da yaradılıb. Lobbi, açıq və qapalı terras zonalarından ibarət restoranda 300 qonağı qəbul etmək imkanı olacaq. Bundan başqa, burada səhər yeməyi restoranı, "Şirin Coffee & Bakery", "Cafe Park-Fast Food" və "Dəfnə" restoranları fəaliyyət göstərəcək. Hotelin əyləncə və istirahət zonalarında SPA, sauna və qapalı hovuz, idman zalı yaradılıb.

Xankəndinin mərkəzində yerləşən "Palace" otelindən açılan gözəl mənzərə qonaqların zövqünü oxşayacaq.



# Şuşada "İsa bulağı" istirahət kompleksinin açılışı



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 5-də Şuşada "İsa bulağı" istirahət kompleksinin açılışında iştirak edib.**

Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov dövlətimizin başçısına kompleksdə yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, Vətən müharibəsindən sonra İsa bulağı Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi tərəfindən tam bərpa edilib. Bulağın özü mərmərdən hazırlanıb, "İsa bulağı" sözləri isə milli ornamentlə yazılıb və bulağın su təminatı da tam bərpa olunub. Bulağın ətrafındakı istirahət mərkəzi və restoran milli üslubda təmir edilib, ərazidə abadlıq işləri aparılıb.

İstirahət kompleksində 4 qonaq evi və bir restoran yerləşir.

Qeyd edək ki, Şuşa şəhərindən dörd kilometr aralıda, dəniz səviyyəsindən təqribən 1300 metr hündürlükdə meşəlik ərazidə yerləşən İsa bulağı Azərbaycanın, o cümlədən Qarabağın ən məşhur istirahət yerlərindən biri hesab olunur. Bulaq Azərbaycan təbiətinin nadir incilərindən sayılır. Yerli əhalinin bu hidronim haqqında məlumatına görə, bulaq XVIII əsrdə ilk dəfə onu qalın meşəlikdə aşkar etmiş İsa adlı əkinçinin adını daşıyır.

# Şuşa sutəmizləyici qurğular kompleksi işə salınıb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 5-də Şuşa sutəmizləyici qurğular kompleksinin açılışında iştirak edib.**

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Şuşa şəhəri 2020-ci il noyabrın 8-də şanlı Azərbaycan Ordusu tərəfindən işğaldan azad edildikdən qısa müddət sonra şəhərin içməli su təminatının bərpasına başlanılıb. Mütəxəssislər tərəfindən Şuşanın su mənbələrinin, magistral xətlərin, paylayıcı şəbəkələrin və digər hidrotexniki qurğuların mövcud vəziyyəti araşdırılarkən məlum olub ki, şəhəri içməli su ilə təmin edən mənbələr və magistral kəmərlər məqsədli şəkildə dağıdılıb və nəticədə suyun nəqli dayandırılıb.

Təxirəsalınmaz Tədbirlər Proqramına əsasən Kiçik Kirs mənbəyi və Kiçik Kirs-Şuşa magistral su kəmərinin qəzalı hissələri qısa müddətdə təmir olunub və 2020-ci il noyabrın 25-də Şuşa şəhərinə suyun verilməsi bərpa edilib. Eyni zamanda, Şuşa şəhərinin digər su mənbəyi - Zarıslı sugötürücü qurğusu, uzunluğu 14,3 kilometr olan Zarıslı-Şuşa magistral su kəmərinin qəzalı hissələrinin bərpasına başlanılıb və 2020-ci il dekabrın 20-də bu mənbədən şəhərə suyun verilməsi təmin edilib.

Şəhərin perspektiv inkişafı, həmçinin ilin müəyyən dövrlərində Kiçik Kirs və Zarıslı mənbələrində məhsuldarlığın kəskin azalması səbəbindən alternativ su mənbəyinin yaradılması layihəsinin icrasına başlanılıb. Bu məqsədlə Daşaltı kəndinin yaxınlığında, Zarıslı çayının məcrasında tutumu 25 min kubmetr olan sutoplayıcı anbar, nasos stansiyası və diametri 159 millimetr, uzunluğu 2,9 kilometr olan yeni kəmər inşa edilib. Eyni zamanda, diametri 325 millimetr, uzunluğu 9,3 kilometr olan Kiçik Kirs-Şuşa magistral su kəmərinin istismara yararsız 5,2 kilometrlik hissəsi diametri 426 və 530 millimetr olan borularla əvəzlənib. Beləliklə, 2022-ci ilin dekabrında Şuşaya yeni mənbədən suyun verilməsi nəticəsində evlər, dövlət qurumlarının inzibati binaları, hotellər, ictimai-iaşə müəssisələri və digər obyektlər fasiləsiz içməli su ilə təmin edilib.

Şuşa şəhərinə verilən içməli suyun keyfiyyət göstəricilərinin standartlara uyğunluğunu təmin etmək məqsədilə Təxirəsalınmaz Tədbirlər Proqramı çərçivəsində mövcud sutəmizləyici qurğunun yenidən qurulması layihəsinin icrasına başlanılıb. Qurğuda 12 qum süzgəci, daxili kommunikasiya xətləri və digər hidrotexniki avadanlıqlar, reagent təsərrüfatı və zərərsizləşdirici qurğu, istehsalat laboratoriyası tam bərpa olunaraq istismara hazır vəziyyətə gətirilib. Görülmüş işlər nəticəsində qurğunun məhsuldarlığı sutkada 2 min kubmetrdən 5 min kubmetrə çatdırılıb. Hazırda şəhərdə yaşayan, çalışan və səfər edən 3500-dən çox insan bu təmizləyici qurğuda sutka ərzində emal olunan və standartlara tam uyğun içməli su ilə təmin edilir. Layihənin növbəti mərhələsində Şuşa şəhərinin dayanıqlı su təchizatı məqsədilə məhsuldarlığı sutkada 8 min kubmetr təşkil edəcək müasir tipli yeni sutəmizləyici qurğunun inşası nəzərdə tutulur. Şuşa şəhərinin su təchizatının dayanıqlılığının təmin olunması məqsədilə ümumi həcmi 6 min kubmetr olan 3 su anbarı layihələndirilib. Həmin anbarlardan birinin tikintisi davam etdirilir.

Dövlətimizin başçısı Şuşa sutəmizləyici qurğular kompleksində görülən işlərə dair videoçarxa da baxdı.

Bildirildi ki, 2040-cı ilə Şuşanın perspektiv inkişafı nəzərə alınmaqla hazırlanan su təchizatı, kanalizasiya və yağış suları sisteminin yenidən qurulması layihəsinə əsasən, şəhərin orta günlük su tələbatı saniyədə 105 litr təşkil edəcək. Şəhərə içməli su mövcud Kiçik Kirs, Zarıslı mənbələrindən, həmçinin Zarıslıçay su anbarından veriləcək.

Şəhərin Baş planına uyğun hazırlanmış layihəyə əsasən, Şuşada 24 kilometr magistral su kəməri, 44 kilometr içməli, 42 kilometr tullantı və 41 kilometr yağış su şəbəkələri inşa olunacaq. Şəhərdə formalaşan tullantı sularının tam təmizlənib zərərsizləşdirilməsi məqsədilə məhsuldarlığı sutkada 8 min kubmetr olan qurğu inşa ediləcək. Qurğuda emal edilərək təmizlənən su ekoloji duruma zərər vurmadan Qarqarçay çayına axıdılacaq. Şuşa şəhərində yaradılan yeni infrastruktur "Ağıllı su" sistemi əsasında idarə olunacaq. Suyun mənbədən götürülməsi, nəqli, anbarların səviyyəsi, hidravlik rejimlər və digər proseslər SCADA sistemləri vasitəsilə onlayn rejimdə tənzimlənəcək.

Prezident İlham Əliyev Şuşa sutəmizləyici qurğular kompleksini işə saldı.

# Aşağı Gövhər Ağa məscidi də bərpa edilib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 5-də Şuşada Aşağı Gövhər Ağa məscidinin bərpadan sonra açılışında iştirak edib.**

Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Şuşa şəhəri işğal altında olduğu illərdə erməni vandalizminə məruz qalmış Aşağı Gövhər Ağa məscidində aparılan bərpa işləri başa çatıb. XIX əsrdə Kərbəlayi Səfixan Qarabağinin memarlığı ilə ərsəyə gələn Aşağı Gövhər Ağa məscidi İbrahim xanın qızı Gövhər Ağa tərəfindən Şuşada inşa etdirilmiş məscidlərdən birincisi sayılır. Aşağı Gövhər Ağa məscidi şəhərin tarixi-memarlıq rəmzlərindən biridir. Şuşa şəhəri tarixən yuxarı və aşağı olmaqla 17 məhəllədən ibarət olub. Aşağı Gövhər Ağa məscidi şəhərin aşağı hissəsində yerləşdiyinə görə belə adlandırılıb. Məscidi daha uca və cəlbedici etmək üçün memar minarələri arxa fasadda yerləşdirib. İkimərtəbəli məscidin silindrşəkilli minarələri kərpicdən hörülüb, ibadət zalı çatma tağ günbəzlə örtülüb.

Şuşanın işğalı zamanı məscidin binası və minarələri ermənilərin zirehli texnikalarının atəşlərinə məruz qalaraq ciddi zədələnmiş, məscid vandalizmin qurbanına çevrilmişdi.

2021-ci ilin dekabr ayından məsciddə Heydər Əliyev Fondu tərəfindən "PAŞA Holdinq"in dəstəyi ilə bərpa işlərinə başlanılmışdı. Layihəyə Avstriya, İtaliya, Latviya və Türkiyədən olan mütəxəssislər cəlb olunmuşdu. Şuşada Heydər Əliyev Fondu tərəfindən ən geniş bərpa işlərindən biri dağıntıların miqyasına uyğun olaraq məhz Aşağı Gövhər Ağa məscidində aparılıb.

İlkin memarlıq üslubunun qorunması ilə həyata keçirilən bərpa işləri məscidlə yanaşı ərazidəki mədrəsə binasını da əhatə edib. Məscidin daxilində qazıntı işləri, qruntun çıxarılması və çınqıl qatının hazırlanması işləri aparılıb. Bundan əlavə, damdakı günbəzlərin üst səthinin xüsusi qatqılı suvaqla suvanması işləri də görülüb. Xarici mütəxəssislərin iştirakı ilə qübbələrin daxili səthində tarixi naxış hissələri mikroinyeksiya üsulu ilə bərkidilib. Mədrəsə bölməsində sonradan əlavə edilmiş divarlar aradan qaldırılıb, əsas divarların inyeksiya ilə doldurulması işləri aparılıb.

Bərpa işləri zamanı Aşağı Gövhər Ağa məscidində erməni vandalizminə dair bir sıra faktlar aşkarlanıb. Belə ki, məscid divarlarında müxtəlif yazılar, müdaxilələr, o cümlədən divara həkk olunmuş xaç işarəsi müəyyən edilib. İşğal dövründə erməni vandalizminə məruz qalmış mədrəsə binasının dağıntılarının bir qismi də konservasiya olunub. Məscidə gələn hər bir ziyarətçi tarixi-dini abidəyə qarşı erməni vandalizminə dair bu faktların şahidi ola bilər.

Qeyd edək ki, məscid ərazisindəki tarixi mədrəsə binasında hazırda muzey yaradılıb. "Qarabağ və Şərqi Zəngəzur Muzeyi: İşğaldan əvvəl və sonra. Dirçəliş." mövzusundakı bu ekspozisiyada Qarabağın və Şərqi Zəngəzurun işğaldan əvvəlki dövrü, işğal illərində ermənilər tərəfindən dağıdılmış dini abidələr, tarix və mədəniyyət abidələri, ekosid barədə faktlar, o cümlədən hazırda Qarabağın və Şərqi Zəngəzurun dirçəlişinə dair məlumatlar, foto və videomateriallar yer alıb.

Muzeydə dünyada tolerant ölkə kimi tanınan Azərbaycanda tarixi-mədəni irsin, milli-mənəvi dəyərlərin qorunmasına, dini abidələrin bərpası və mühafizəsinə daim diqqət yetirilməsinə dair məlumatlar əks olunub. Ölkəmizdə ayrı-ayrı dinlərin məbədləri bütün dövrlərdə yüksək səviyyədə mühafizə olunub, məscid, kilsə və sinaqoqlar təmir və bərpa edilib. Azərbaycan xalqının qədim mədəniyyətinin təşəkkül tapdığı Qarabağ və Şərqi Zəngəzur əraziləri öz tarixi, maddi-mədəniyyət və dini abidələri ilə hər zaman zəngin olub. Təəssüf ki, 30 ilə yaxın davam edən işğal dövründə əzəli Azərbaycan torpaqlarında olan bütün dini abidələrə qarşı vəhşiliklər törədilmişdir. Erməni təcavüzkarları şəhər və rayonları, oradakı yaşayış və inzibati binaları, bütün infrastrukturu dağıtmış, təbii sərvətləri talan etmiş, bu ərazilərdəki dini, tarix və mədəniyyət abidələrini vandalizm aktlarına məruz qoymuşdur.

İşğalın ən ağır fəsadlarından biri bəşəri əhəmiyyətə malik mədəni irsin, o cümlədən İslam dininə aid abidələrin qəsdən dağıdılması və məhv edilməsidir. İlkin araşdırmalara görə, işğal dövründə 65 məscidin yerlə-yeksan edildiyinə dair məlumatlar olsa da, təəssüf ki, bu rəqəmlər getdikcə artmaqdadır. Muzeydə Qarabağ və Şərqi Zəngəzur ərazilərində mövcud olmuş bir sıra dini abidələrə qarşı törədilmiş vandalizmin ümumi mənzərəsini əks etdirmək və həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq məqsədilə foto və videomateriallar nümayiş olunur.

Muzeyin "İşğal dövründə dağıdılmış tarix və mədəniyyət abidələri" bölməsində isə işğal dövründə vandalizmə məruz qalmış tarix və mədəniyyət abidələrini əks etdirən foto və videomateriallar təqdim edilir. Hələ Birinci Qarabağ müharibəsinə kimi bölgədə 705 tarix və mədəniyyət abidəsi dövlət qeydiyyatına alınıb. Qarabağın, Şərqi Zəngəzurun, həmçinin Ermənistanla sərhəd olan Qazaxın 7 kəndinin və Naxçıvanın Kərki kəndinin işğal olunması nəticəsində 100 mindən çox artefaktın saxlanıldığı 22 muzey, 4,6 milyon kitabdan ibarət 927 kitabxana, 85 musiqi məktəbi, 4 teatr, 2 konsert zalı, 4 incəsənət qalereyası və 808 istirahət məkanı məhv edilib. İkinci Qarabağ müharibəsi zamanı işğaldan azad olunmuş ərazilərdə 400-ə yaxın abidə dağıdılıb.

"İşğal dövründə ekosid" bölməsində ziyarətçilərə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, 30 ilədək davam edən işğalın insan hüquqlarının və çoxsaylı beynəlxalq hüquq normalarının pozulması, sosial-iqtisadi fəsadlar və mədəni irsə vurulan ziyanla yanaşı, misli görünməmiş ekoloji terror, təbii sərvətlərin genişmiqyaslı və uzunmüddətli talanı ilə nəticələnməsinə dair faktlar çatdırılır.

"30 illik həsrətin sonu" bölməsində müzəffər Azərbaycan Ordusunun 44 günlük müharibədə qazandığı şanlı Zəfər, 30 ilə yaxın doğma yurdlarına qayıtmaq arzusu ilə yaşayan insanların Vətən həsrətinə son qoyulmasına dair məlumatlar, fotolar və videomateriallar yer alıb.

"Qarabağ və Şərqi Zəngəzurun dirçəlişi" bölməsində Qarabağda və Şərqi Zəngəzurda bu gün canlanan həyata dair materiallar əksini tapıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən quruculuq tədbirləri istər Qarabağın və Şərqi Zəngəzurun dirçəlişinə, istərsə də Azərbaycan xalqının milli yaddaşının bərpasına, zəngin tarixi ənənələrin və milli-mənəvi dəyərlərin dünyaya təqdim olunmasına yönəlib. Muzeydə məhz bu dirçəlişi əks etdirən fotolar və videomateriallar da nümayiş olunur.

Burada Qarabağa və Şərqi Zəngəzura dair müxtəlif nəşrlərlə tanış olmaq mümkündür. Muzeydə "Şuşada dörd fəsil" beynəlxalq fotolayihəsi çərçivəsində Qarabağın incisi olan Şuşanın mənzərələrini əks etdirən əsərlər də təqdim olunur.

# Dövlət Xidmətləri Mərkəzi istifadəyə verilib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 5-də Şuşa şəhərində Dövlət Xidmətləri Mərkəzinin əsaslı təmirdən sonra açılışında iştirak edib.**

Dövlətimizin başçısına Mərkəzdə yaradılan şərait barədə məlumat verildi.

Bildirildi ki, ümumi daxili sahəsi 2600 kvadratmetr olan Dövlət Xidmətləri Mərkəzinin yenidənqurma və təmir işlərinə ötən ilin mayında başlanılıb. Buradakı keçmiş poçt binasında və onun yerləşdiyi ərazidə Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi tərəfindən əsaslı təmir işləri aparılıb, geniş yaşıllıq zonası salınıb.

Dördmərtəbəli binanın əsaslı təmirindən sonra burada "ASAN xidmət" və "DOST xidməti" mərkəzləri, KOB evi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin (poçt, rabitə qovşağı) filialları fəaliyyət göstərəcək.

Diqqətə çatdırıldı ki, burada fəaliyyət göstərəcək qurumlar üzrə 56 nəfərin aidiyyəti üzrə işlə təmin edilməsi nəzərdə tutulur.

Mərkəzdə işləyəcək əməkdaşların Şuşa şəhər sakini olması təmin edilib.

Bildirildi ki, buradakı Şuşa regional "ASAN xidmət" mərkəzində 21 nəfər çalışacaq. İşçilərin hamısı Şuşada qeydiyyatda olan vətəndaşlar arasından (köç siyahısından) seçilib.

# İlham Əliyevin TDT-nin Baş katibi ilə görüşü



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 5-də Şuşada Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyevi qəbul edib.**

Kubanıçbek Ömüralıyev Prezident İlham Əliyevə Türk Dövlətləri Təşkilatının dövlət başçılarının Şuşada qeyri-rəsmi Zirvə görüşünün keçirilməsi təşəbbüsünə və bu tədbirə dəvətə görə təşəkkürünü bildirdi. Zirvə görüşünün əhəmiyyətinə toxunan Baş katib Türk Dövlətləri Təşkilatının yalnız rəsmi deyil, eyni zamanda, qeyri-rəsmi Zirvə toplantısını da ölkələrimiz arasında əməkdaşlığın və tərəfdaşlığın daha da dərinləşməsinə xidmət göstərən amil kimi qiymətləndirdi. Zirvə toplantısının nəqliyyat, əlaqələr, iqlim dəyişikliyi kimi çox vacib mövzulara həsr olunduğunu və bu məsələlər üzrə türk dövlətləri arasında əməkdaşlığın daha da genişləndirilməsinin vacibliyini qeyd etdi. O, nəqliyyat və əlaqələr sahələrində çoxtərəfli əməkdaşlığın önəminə toxundu və bunun Türk dünyasının güclənməsinə əməli töhfə verəcəyinə əminliyini bildirdi. Kubanıçbek Ömüralıyev bu xüsusda Orta Dəhlizin əhəmiyyətini vurğuladı.

Türk Dövlətləri Təşkilatının Baş katibi qəbul olunacaq Qarabağ Bəyannaməsinin təşkilatın inkişafı və qarşıda duran məqsədlərin həyata keçirilməsi baxımından önəmini qeyd etdi və bunu tarixi bəyanat kimi dəyərləndirdi. O, həmçinin Azərbaycanın Türk Dövlətləri Təşkilatı çərçivəsində sahəvi əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində də yeni təşəbbüslərlə çıxış etməsinin alqışlandığını və çox müsbət qiymətləndirildiyini dedi. Təşkilatın katibliyinin strukturunun yenilənməsinə, ştat vahidinin artırılmasına və quruma göstərilən maliyyə dəstəyinə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi.

Dövlətimizin başçısı Azərbaycanın xarici siyasətinin ən prioritet istiqamətlərindən birinin Türk dünyası olduğunu qeyd etdi və Azərbaycan Milli Məclisində andiçmə mərasimində çıxışı zamanı Türk dünyasının bizim ailəmiz olması barədə bəyanatını bir daha xatırladı.

Prezident İlham Əliyev təşkilata üzv dövlətlərin dövlət və hökumət başçıları ilə təşkilatın gündəliyində duran məsələlərlə bağlı ətraflı müzakirələr aparacağına və bu Zirvə görüşünün təşkilat çərçivəsində tərəfdaşlığın daha da dərinləşməsinə xidmət edəcəyinə əminliyini bildirdi, qeyri-rəsmi Zirvə toplantısının müntəzəm xarakter daşıyacağına ümidvar olduğunu dedi.

Dövlətimizin başçısı Naxçıvan Sazişinin imzalanmasından etibarən Türk Dövlətləri Təşkilatının uğurlu inkişaf yolu keçdiyini və hazırda onun dünyada böyük nüfuza malik beynəlxalq təşkilatlardan biri olduğunu vurğuladı.

Azərbaycan Prezidenti dövlət və hökumət başçılarının iştirakı ilə imzalanacaq Qarabağ Bəyannaməsinin tarixi xarakter daşıdığını və bunun əməkdaşlığımızın müxtəlif sahələrdə inkişafına ciddi təkan verəcəyinə əminliyini bildirdi.

Baş katib COP29 münasibətilə dövlətimizin başçısına bir daha təbriklərini çatdırdı.

Təbriklərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev COP29 çərçivəsində Türk Dövlətləri Təşkilatına üzv ölkələrin iqlim dəyişikliyi məsələlərinə dair müxtəlif təşəbbüslərlə çıxış etməsinin və birgə tədbirlərin keçirilməsinin önəminə toxundu.

# Dövlət başçısı Şimali Kipr Türk Cümhuriyyətinin Prezidentini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 5-də Şuşada Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatarı qəbul edib.**



Dövlətimizin başçısı Ersin Tatar ilə Bakıda və digər beynəlxalq tədbirlər çərçivəsində keçirdiyi görüşləri məmnunluqla xatırladı.

Söhbət zamanı nəqliyyat, əlaqələr və iqlim fəaliyyəti vasitəsilə dayanıqlı gələcəyin qurulması mövzusunda keçiriləcək qeyri-rəsmi Zirvə toplantısının Türk Dövlətləri Təşkilatının gündəliyində duran məsələlərin dövlət və hökumət başçıları səviyyəsində müzakirəsi və reallaşdırılması baxımından əhəmiyyəti qeyd olundu. Bu tədbirin müntəzəm xarakter alacağına ümidvarlıq bildirildi, onun Türk dünyasının inkişafına, birliyinə xidmət edəcəyi vurğulandı.

Azərbaycan Prezidenti ilə görüşlərini məmnunluqla xatırlayan Ersin Tatar Türk Dövlətləri Təşkilatının Şuşa şəhərində keçiriləcək qeyri-rəsmi Zirvə toplantısına dəvətə görə dövlətimizin başçısına təşəkkürünü bildirdi və ölkəmizə ikinci dəfə səfər etdiyini dedi.

Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti imzalanacaq Qarabağ Bəyannaməsinin əhəmiyyətini qeyd etdi.

O, Prezident İlham Əliyevin Türk Dövlətləri Təşkilatının rəsmi Zirvə toplantıları ilə bərabər, qeyri-rəsmi Zirvə toplantılarının keçirilməsi təşəbbüsünü yüksək qiymətləndirdi. Bunun mütəmadi xarakter alacağına, Türk dövlətləri arasında əməkdaşlığın və tərəfdaşlığın daha da inkişafına əsaslı töhfə verəcəyinə əminliyini bildirdi.

Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti bu Zirvə toplantısının nəqliyyat, əlaqələr və iqlim fəaliyyəti kimi çox aktual məsələlərə həsr olunduğunu vurğuladı.

Ersin Tatar 2022-ci ilin noyabrında Səmərqənddə keçirilmiş Türk Dövlətləri Təşkilatının Zirvə toplantısında Şimali Kipr Türk Cümhuriyyətinin bu təşkilatda müşahidəçi statusunu almasından sonra əlaqələrin inkişafından məmnunluğunu bildirdi.

Göstərdiyi dəstəyə görə Prezident İlham Əliyevə təşəkkürünü ifadə edən Ersin Tatar vurğuladı ki, dəfələrlə o, öz bəyanatlarında da bu məsələləri qeyd edib və Azərbaycanın Şimali Kipr Türk Cümhuriyyətinə göstərdiyi həmrəyliyə, dostluğa, qardaşlığa və dəstəyə görə təşəkkürlərini bildirdi.

Azərbaycan Respublikasının Milli Məclisində Şimali Kipr ilə dostluq qrupunun yaradılmasını vacib addım kimi dəyərləndirən Ersin Tatar Azərbaycan Mədəniyyəti Günlərinin ölkəsində keçirilməsini məmnunluqla qeyd etdi.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# Türkiyənin xarici işlər naziri ilə görüş



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 5-də Şuşada Türkiyə Respublikasının xarici işlər naziri Hakan Fidanı qəbul edib.**

Söhbət zamanı bir neçə gün əvvəl Astanada dostluğun və qardaşlığın nümunəsi olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif arasında keçirilən üçtərəfli görüş məmnunluqla xatırlandı, bundan sonra bu formatın davamlı olacağına əminlik ifadə edildi.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla əldə edilmiş razılığa əsasən, Türkiyənin dövlət başçısının Türkiyə-Niderland matçını izləmək üçün Almaniyaya səfər etməsi ilə əlaqədar Şuşada keçiriləcək Zirvə toplantısında qardaş Türkiyəni bu ölkənin vitse-prezidentinin təmsil edəcəyi vurğulandı.

Məhz Şuşa şəhərində 2021-ci ildə Azərbaycan ilə Türkiyə arasında müttəfiqlik əlaqələrimizin əsasını təşkil edən Şuşa Bəyannaməsinin imzalanmasının əhəmiyyəti vurğulandı.

Görüşdə ölkələrimiz arasında qardaşlıq, dostluq və müttəfiqlik münasibətlərinin bütün sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olundu, Türk dünyasının birliyinin və həmrəyliyinin önəminə toxunuldu.

Söhbət zamanı Azərbaycan-Ermənistan və Türkiyə-Ermənistan münasibətləri də müzakirə edildi.

# Prezidentlərin Şuşada qeyri-rəsmi naharı



**İyulun 5-də Şuşada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin və Qırğız Respublikasının Prezidenti Sadır Japarovun qeyri-rəsmi naharı olub.**

***AZƏRTAC***

# Azərbaycan, Özbəkistan və Qırğızıstan prezidentləri Şuşada



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, ölkəmizdə səfərdə olan Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov iyulun 5-də Şuşada 23 binadan ibarət birinci yaşayış kompleksində və Aşağı Gövhər Ağa məscidində olub, şəhəri gəziblər.**

Dövlətimizin başçısı əvvəlcə Şuşa şəhərinin sakinləri ilə söhbət etdi:

**Sakinlər**: Cənab Ali Baş Komandan, necəsiniz? Haqqınız olan, haqqımız olan şəhərə xoş gəlmisiniz.

**Prezident İlham Əliyev**: Sağ olun. Sizə alqışlar.

**Sakinlər**: Yaşasın Azərbaycan xalqı!

**Prezident İlham Əliyev**: Necə yaşayırsınız burada?

**Sakinlər**: Əla.

**Kişi sakin**: Cənab Prezident, 1982-ci ildə rəhmətlik Heydər Əliyev Şuşaya qışda gələndə yazmışdım: “Oğlumu göylərdə tutan el gördüm Şuşada”. 2003-cü ildə Siz prezident seçkisinə gedəndə mətbuatda ilk dəfə canlı yayımda mən Sizi təbrik edərək demişəm:

**“Yolun qarasında sına bəxtini,**
**Yolun adı elə ağdı Səninçün,**
**Şuşaya yolları sən dolanmasan,**
**Bu dünya ömürlük dağdır Səninçün”.**

**Şükür ki, bu yolu dolandıq.**

**Prezident İlham Əliyev**: Sağ olun. Necə yaşayırsınız burada, hər şey yaxşıdır?

**Sakinlər**: Allaha şükür.

**Prezident İlham Əliyev**: Allaha şükür.

**Uşaqlar**: İlham baba, biz Sizi çox istəyirik.

**Prezident İlham Əliyev**: Sağ olun. İndi qardaş ölkələrin rəhbərləri də gəlib Şuşaya, gözəl tədbir keçiriləcək.

**Aydın Kərimov**: Bu, bizim rəssam Rövşən müəllimdir.

**Prezident İlham Əliyev**: Salam Rövşən müəllim, yeni əsərlər var?

**Rəssam Rövşən Bayramov**: Var, var.

**Qadın sakin**: Buyurun, baxın.

**Aydın Kərimov**: Sərgilənmək üçün yer ayırmışıq.

**Prezident İlham Əliyev**: Oradan görürəm, eyvanda. Bu, yeni əsərdir?

**Rəssam Rövşən Bayramov**: Bəli.

**Prezident İlham Əliyev**: Ay maşallah, ilham gəlib sizə doğma Vətənə qayıdandan sonra?

**Sakin**: Merdinli məhəlləsidir.

**Prezident İlham Əliyev**: Gəl, qızım, gəl.

**Şuşalı qız**: Necəsiniz?

**Prezident İlham Əliyev**: Sağ ol, sən necəsən?

**Şuşalı qız**: Çox sağ olun, yaxşıyam.

**Prezident İlham Əliyev**: Gəl şəkil çəkdirək. Neçə yaşın var sənin?

**Şuşalı qız**: Mənim 15 yaşım var. Birini də bizim telefonla çəkdirə bilərik?

**Prezident İlham Əliyev**: Olar, əlbəttə.

**Aydın Kərimov**: “Türk dünyasının gənclər paytaxtı”nın açarını bu qıza təqdim etmişdilər.

**Prezident İlham Əliyev**: Nə yaxşı. Yəqin sentyabrda məktəbə də gedəcəksən?

**Şuşalı qız**: Bəli. Sizin çox gözəl sözləriniz var: “Əziz Şuşa, sən azadsan. Əziz Şuşa, biz qayıtmışıq. Şuşa bizimdir! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır! Yaşasın Azərbaycan xalqı! Eşq olsun Azərbaycan xalqına, Azərbaycan Ordusuna!”.

**Prezident İlham Əliyev**: Sağ ol, qızım.

**Şuşalı qız**: Çox sağ olun, minnətdaram.

**Prezident İlham Əliyev**: Sağ ol.

*

Dövlətimizin başçısı Qırğızıstan Prezidenti Sadır Japarovu qarşıladı.

**Prezident İlham Əliyev:** Salaməleyküm.

**Prezident Sadır Japarov:** İlham Heydər oğlu, Sizi görməyə şadam.

**Prezident İlham Əliyev:** Salam, şuşalılar Sizi salamlayırlar. Bizim qardaşımız, Qırğızıstan Respublikasının Prezidenti.

**Kişi sakin:** Yaşasın Turan! Yaşasın Türk dünyası!



*

Sonra Prezident İlham Əliyev Özbəkistan Prezidenti Şavkat Mirziyoyevi qarşıladı.

Dövlət başçıları Şuşa şəhərini gəzdilər.

Qonaqlara yeni Şuşa məscidinin layihəsi barədə məlumat verildi.

Bildirildi ki, qədim Şuşada təməli qoyulan məscid həm də müasir memarlıq nümunəsi kimi göz oxşayacaq. İki minarəsi və mozaika ilə bəzədiləcək günbəzi olan məscidin layihələndirilməsi azərbaycanlı və italiyalı memarlarla birgə həyata keçirilib. Məscidin xarici səthi Şuşanın qədim məscidinin minarələrində istifadə edilən həndəsi naxışlarla bəzədiləcək. Bu memarlıq elementi Şuşanın firavan və uğurlu gələcəyinə əminliyi, keçmişlə bu gün arasındakı əlaqəni təcəssüm etdirəcək. Yeni məscidin təməlini 2021-ci il mayın 12-də Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva qoyublar.

Sonra Prezident İlham Əliyev, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev və Qırğızıstan Prezidenti Sadır Japarov Aşağı Gövhər Ağa məscidində oldular.

Məlumat verildi ki, Şuşa şəhəri işğal altında olduğu illərdə erməni vandalizminə məruz qalan Aşağı Gövhər Ağa məscidində aparılan bərpa işləri artıq başa çatıb. XIX əsrdə Kərbəlayi Səfixan Qarabağinin memarlığı ilə ərsəyə gələn bu məscid İbrahim xanın qızı Gövhər Ağa tərəfindən Şuşada inşa etdirilmiş məscidlərdən birincisi sayılır. Aşağı Gövhər Ağa məscidi şəhərin tarixi-memarlıq rəmzlərindən biridir. Şuşanın işğalı zamanı məscidin binası və minarələri ermənilərin zirehli texnikalarının atəşlərinə məruz qalaraq ciddi zədələnib, məscid vandalizmin qurbanına çevrilib. 2021-ci ilin dekabrında Heydər Əliyev Fondu tərəfindən “PAŞA Holdinq”in dəstəyi ilə məsciddə bərpa işlərinə başlanılmışdı. Bərpa işləri zamanı Aşağı Gövhər Ağa məscidində erməni vandalizminə dair bir sıra faktlar aşkarlanıb. Belə ki, məscidin divarlarında müxtəlif yazılar, müdaxilələr, o cümlədən divara həkk olunmuş xaç işarəsi müəyyən edilib. İşğal dövründə erməni vandalizminə məruz qalmış mədrəsə binasının da dağıntılarının bir qismi konservasiya olunub.

Avtobusla şəhərin ərazisini gəzən dövlət başçıları sonra Cıdır düzünə gəldilər.

Qeyd olundu ki, Cıdır düzü Şuşanın rəmzlərindən biri, tarixən cıdır yarışlarının və Qarabağ xanlığı dövründən yerli əhalinin Novruz bayramını və digər el şənliklərini keçirdiyi ərazidir.

# TDT liderləri Azərbaycanda

**Ölkəmizdə səfərdə olan Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar Türk Dövlətləri Təşkilatının (TDT) dövlət başçılarının Şuşada keçiriləcək qeyri-rəsmi Zirvə görüşündə iştirak etmək məqsədilə iyulun 5-də Füzuli rayonuna gəlib.**



TDT-yə üzv ölkələrin dövlət bayraqlarının dalğalandığı Füzuli Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Şimali Kipr Prezidenti Ersin Tatarı Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov, xarici işlər nazirinin müavini Samir Şərifov və digər rəsmi şəxslər qarşıladılar.

***

**Qırğız Respublikasının Prezidenti Sadır Japarov Türk Dövlətləri Təşkilatının (TDT) dövlət başçılarının Şuşada keçiriləcək qeyri-rəsmi Zirvə görüşündə iştirak etmək məqsədilə iyulun 5-də Azərbaycana səfərə gəlib.**



TDT-yə üzv ölkələrin dövlət bayraqlarının dalğalandığı Füzuli Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Qırğız Respublikasının Prezidenti Sadır Japarovu Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov, xarici işlər nazirinin müavini Samir Şərifov və digər rəsmi şəxslər qarşıladılar.

***

**Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Türk Dövlətləri Təşkilatının (TDT) Şuşada keçiriləcək qeyri-rəsmi Zirvə görüşündə iştirak etmək məqsədilə iyulun 5-də Azərbaycana səfərə gəlib.**

TDT-yə üzv ölkələrin dövlət bayraqlarının dalğalandığı Füzuli Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevi Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan



Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov, xarici işlər nazirinin müavini Samir Şərifov və digər rəsmi şəxslər qarşıladılar.

***

**Macarıstanın Baş naziri Viktor Orban Türk Dövlətləri Təşkilatının (TDT) dövlət başçılarının Şuşada keçiriləcək qeyri-rəsmi Zirvə görüşündə iştirak etmək məqsədilə iyulun 5-də Azərbaycana səfərə gəlib.**



TDT-yə üzv ölkələrin dövlət bayraqlarının dalğalandığı Füzuli Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Macarıstanın Baş naziri Viktor Orbanı Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov, xarici işlər nazirinin müavini Samir Şərifov və digər rəsmi şəxslər qarşıladılar.

***AZƏRTAC***

# Şərti sərhəd və “torbada pişik” məsələsi

**(əvvəli 1-ci səhifədə)**

Qeyd edək ki, son zamanlar Birləşmiş Ştatların Cənubi Qafqaz fəallığı artıb. Bu fonda Vaşinqtonun Azərbaycan – Ermənistan sülh prosesində, bir növ, vasitəçilik missiyası yerinə yetirdiyinə dair təsəvvür var. Aydındır ki, ABŞ bölgədə təşəbbüsü öz əlinə almağa çalışır. Məqsədi də bəllidir: Bakı – İrəvan sülh anlaşmasını Rusiyaya qarşı yönəltmək. Daha dəqiq desək, bu anlaşma ilə Kremlin Cənubi Qafqazdan sıxışdırılmasına nail olmaq. Mövcud kontekstdə isə Naxçıvana yol amili aktual xassəyə malikdir. Çünki bu amil hazırda sülh prosesinin başlıca komponenti rolunda çıxış edir. Ölkəmiz Naxçıvana yolun “Azərbaycandan Azərbaycana yol” məntiqini irəli sürür. Bu zaman Ermənistanın 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın şərtlərini yerinə yetirməsinin vacibliyinə diqqət yönəldir. Bəyanatda isə bildirilir ki, İrəvan Naxçıvana yola təminat verməlidir, həmin yolda təhlükəsizlik Rusiya Federal Təhlükəsizlik Xidməti tərəfindən təmin edilməlidir. Ermənistan hakimiyyəti bununla razılaşmır, özünün “Dünyanın kəsişməsi” ideyasını ortaya atır, mövcud xüsusda ərazi bütövlüyü və suverenlik amilini önə çəkir. Bu amilin qabardılması ona hesablanıb ki, Naxçıvana maneəsiz yol Ermənistan ərazisinə təcavüz kimi qiymətləndirilsin.

Mövcud siyasi labirintdə ABŞ-nin mövqeyinə diqqət yetirək. O mövqeyə ki, onun nədən ibarət olması ötən il konkret bilindi. Aydın idi ki, Vaşinqton Orta dəhliz ideyasının başlıca komponenti sayılan Zəngəzur dəhlizinin, yəni Naxçıvana gedən yolun Ermənistan adlı dövlətin ərazisindən keçməsində maraqlıdır. Belə bir maraq özünü Ermənistanın şərtlərə əməl etməyəcəyi halda, Azərbaycanın Naxçıvana yolun İrandan keçəcəyini və mövcud istiqamətdə Tehranla razılaşmanın əldə olunduğunu açıqladıqdan sonra göstərdi. Vaşinqton bunu, necə deyərlər, süngü ilə qarşıladı – Naxçıvana yol İrandan keçməməlidir, vəssalam! O zaman sual olunur: ABŞ Naxçıvana yolun Azərbaycanın müəyyənləşdirdiyi qaydada Ermənistandan keçməsi üçün nə isə edibmi və ya edirmi? Cavab yoxdur, ortada olan isə Vaşinqtonun qeyri-müəyyən notlarla dolu canfəşanlığıdır.

Bakı ilə İrəvan arasında, belə demək mümkünsə, sülhyaratma missiyasını gerçəkləşdirməyə qol çırmayan Birləşmiş Ştatların əvvəlki mövqedə qalıb-qalmadığı müəyyən deyil. Çünki ölkə rəsmiləri ümumi fikirlər səsləndirirlər. Onlar Orta dəhlizin işə düşməsi ilə Cənubi Qafqazın iqtisadi faydalarından danışırlar. Ancaq həmin faydalar kontekstində regionun Rusiyadan asılılığını aradan qaldırmaq məsələsindən söz açılırsa, deməli, Vaşinqton elə əvvəlki ampluasındadır. Yəni istəyir ki, Naxçıvana yol Ermənistan ərazisindən keçsin. Orada gömrük və sərhəd nəzarətini erməni hərbçiləri gerçəkləşdirsinlər.

*

İndi isə keçək ən əsas məsələyə. Bəli, ABŞ Konqresinin üzvləri Azərbaycan – Ermənistan şərti sərhədinə heç də əbəs yerə yollanmamışdılar. Çoxdandır o tərəfə gedən yox idi. Hazırda gedənlər tapılırsa, özü də onlar amerikalılardısa, düşünə bilərik ki, “torbada pişik” var. Görünür, Konqresin Helsinki Komissiyasının təmsilçiləri əraziyə köhnə gündəmin işə salına biləcəyi mesajını vermək üçün gəliblər. Nəzərə alaq ki, köhnə gündəmin köhnə oyunçuları var. Söhbət Avropa İttifaqının şərti sərhəddəki mülki müşahidə missiyasının üzvlərindən, yəni “binokl diplomatiyası”nın banilərindən gedir. Nəzərə alaq ki, ABŞ Konqresinin nümayəndələri onlarla görüşüb, guya ki, durumla bağlı məlumat alıb, biliklərini zənginləşdiriblər. Onu da nəzərə alaq ki, rəsmi İrəvan Aİ-nin mülki missiyasına “Ermənistanı Azərbaycanın işğalından qoruyan” sipər kimi yanaşır.

Sonda bir vacib məqamı vurğulamağa ehtiyac var. Əvvəldə də bildirdik ki, Ermənistan hakimiyyəti Cənubi Qafqazda sülhə səmimi yanaşmır, bunun hansısa əlavə sübuta ehtiyacı yoxdur. Bəs ABŞ? Əlbəttə, sadəlövh olub deyə bilmərik ki, Vaşinqton prosesdə yalnız bəşəri dəyərləri və humanizmi əsas tutaraq iştirak edir. Şübhəsiz, onun öz maraqları var. Eləcə də bu maraqları təmin etmək metodları da müəyyən mənada təbii qarşılana bilər. Ancaq hər bir halda səmimiyyət önəmli faktordur. Ona görə də Birləşmiş Ştatlar rəhbərliyi ölkədən Ermənistana səfərlərə diqqət yetirməlidir. Elə etməlidir ki, bu səfərlər, eləcə də onlarla bağlı heç nə ölkənin hazırkı sülh canfəşanlığına, ümumən sülhə xələl gətirməsin. Bilavasitə “torbada pişik” məsələsinə gəlincə, ABŞ Konqresinin təmsilçilərinin Azərbaycan – Ermənistan şərti sərhədinə səfəri və keçirdiyi görüşlərlə bağlı məlumatı yayan Birləşmiş Ştatların İrəvandakı səfirliyidir. Yəqin, əlavə şərhə ehtiyac yoxdur.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Ögey-doğmalıq

## Fransanın dominantlıq etdiyi Avropa İttifaqı bu mərəzdən yaxa qurtara bilmir

**Söhbət hələ Avropa İttifaqının (Aİ) kandarına belə yaxınlaşmayan Ermənistana ayrılacaq maliyyə vəsaitindən gedir. Belə məlum olur ki, Ermənistan ilk dəfə Aİ-nin Sülh Fondundan 10 milyon avro alacaq. İrəvan bu pulu dörd ay bundan əvvəl alacağına ümid edirdi. Amma Azərbaycanın Avropadakı ən yaxın müttəfiqi və tərəfdaşı Macarıstanın bu yardıma qoyduğu veto Aİ-nin ermənipərəst təşəbbüsünü müvəqqəti olaraq dondurdu.**



Oxuculara xatırladaq ki, adıçəkilən layihəyə bu ilin aprel ayında veto qoyan rəsmi Budapeşt rəhbərliyi birliyə üzv ölkələr arasında bərabərlik prinsipinin gözlənilməsini əsas gətirərək, Azərbaycanın da Avropa İttifaqının Sülh Fondundan yardım alması tələbini qaldırmışdı. “Azadlıq” radiosunun Avropadakı mənbələrinə istinadla yaydığı məlumatda bildirilir ki, Budapeştin bu şərtini Aİ qəbul etməsə də, vəziyyətdən çıxmaq üçün kompromis variant üzərində dayanıb. Yəni Bakıya Sülh Fondundan deyil, minatəmizləmə işlərinə yadım məqsədilə başqa mənbədən maliyyə vəsaiti ayrılacaq.

Ermənistan mediası özünün diplomatik mənbələrinə istinadən iddia edir ki, Sülh Fondunun bu layihəsinə Aİ üzvü olan bütün ölkələr öz xeyir-dualarını veriblər. Hayların yazılı və elekton mediası əminliklə deyir ki, yardım paketi iyulun 17-də əvvəlcə quruma üzv ölkələrin səfirlərinin, iyulun 22-də isə Aİ-nin iclasında təsdiqlənəcək.

Yayılan məlumatlara görə, Aİ-nin Sülh Fondu tərəfindən Ermənistana 10 milyon avro məbləğində yardımın ayrılmasına dair sənədlərdə bu maliyyə vəsaitinin Ermənistan ordusunun bir batalyonu üçün tibb məntəqəsinin inşasına yönəldiləcəyi nəzərdə tutulur. Müvafiq xidmətlər göstərəcək modul tipli səhra düşərgəsinin yaradılması da buraya daxildir.

Qeyd etmək lazımdır ki, layihədə göstərildiyi kimi, bu maliyyə dəstəyinin məqsədi Ermənistan silahlı qüvvələrinə dayanıqlıq və sabitlik yaratmaq imkanlarını artırmağa və bununla da guya böhran vəziyyətlərində, fövqəladə hallar zamanı mülki əhalini daha yaxşı qorumağa kömək etməkdir. Hayların saytlarının səxavətlə paylaşdığı bu informasiyaya hələlik Aİ yetkililəri tərəfindən hər hansı şərh və ya açıqlama verilməyib.

*

Hər şey aprelin 5-də Brüsseldə keçirilən Avropa İttifaqı–ABŞ–Ermənistan sammitindən sonra başladı. Həmin üçtərəfli görüşlə bağlı rəsmi Bakının etirazı və qəti mövqeyi ABŞ Dövlət katibi Antoni Blinken və Avropa Komissiyasının sədri Ursula Fon der Lyayenlə telefon söhbətində çatdırılmışdı. Görüşün yekunu olaraq, Aİ-dən Ermənistana 4 il müddətində 270 milyon avro məbləğində yardımın ayrılması barədə qərar qəbul olundu. İrəvan bu vəsaitin “müdafiə xarakterli mühəndislik, möhkəmləndirmə və tikinti işləri”nə yönəldiləcəyini açıqlasa da, bu yardımın, əslində, Ermənistanın hərbi xərcləri üçün nəzərdə tutulduğu hamıya məlum idi. Hələ 5 aprel görüşünə qədər Avropa İttifaqı–ABŞ–Ermənistan formatında təmaslarda qeyri-rəsmi qərarlar qəbul edilibmiş. Paris–Vaşinqton tandeminin məhsulu olan bu layihənin Fransadan Ermənistana hücum silahlarının göndərilməsi kimi alt niyyəti də tezliklə üzə çıxdı. Sonrası hamımıza məlumdur. Bakının ikitərəfli sülh danışıqlarında ortaya qoyduğu konkret şərtləri və sərt mövqeyi həm Brüsselin, həm də Vaşinqtonun məsələyə münasibətlərində yumşalmaya gətirib çıxardı. Bəli, yaxın keçmişdə Ermənistan–Azərbaycan münasibətlərinin nizamlayıcıları missiyasını, sülh danışıqlarında vasitəçi rolunu yerinə yetirənlər Bakı ilə hesablaşmağa məcbur oldular.

Aİ -nin Sülh Fondunun Ermənistana yardım paketi mövzusunun məhz indi, Macarıstanın Baş naziri Viktor Orbanın Türk Dövlətləri Təşkilatının (TDT) Şuşa Sammitində iştirak etmək məqsədilə Azərbaycana gözlənilən səfəri ərəfəsində ortaya atılması qətiyyən təsadüfi sayıla bilməz. Ermənilərin infotəxribatına bənzəyən bu addımının arxasında Budapeşt və Bakı arasında getdikcə möhkəmlənən münasibətlərə xələl gətirmək niyyətinin gizləndiyini gözdən qaçırmaq olmaz. Güman edə bilərik ki, burada iyulun 1-dən Aİ-də sədrliyin Macarıstana keçməsi amili də öz rolunu oynayıb.

Hazırda erməni mediasının yaydığı və mötəbərliliyi şübhə doğuran xəbərlərdən savayı, əlimizdə rəsmi informasiya olmadığı üçün mövzu ilə bağlı daha konkret nəsə demək mümkün deyil. Sadəcə olaraq, fərziyyə kimi irəli sürülə biləcək variant ondan ibarətdir ki, Budapeşt dörd ay əvvəlki veto qərarından yalnız bir halda geri çəkilə bilər. Bu da Aİ-də Ermənistanla yanaşı, Azərbaycana da eyni həcmdə maliyyə yardımının ayrılması variantıdır. Axı rəsmi Budapeştin belə bir addım atması yüksələn xətlə inkişaf edən Macarıstan–Azərbaycan münasibətlərinə müəyyən mənada kölgə sala, ikitərəfli əməkdaşlığın perspektivlərini arxa plana keçirə bilər. Burada Prezident İlham Əliyevlə Baş nazir Viktor Orban arasındakı səmimi dostluq münasibətlərinin də nəzərə alınması vacib şərtlərdəndir. TDT-nin müşahidəçi üzv ölkəsi kimi Şuşa sammitində iştirak edən Macarıstan Baş nazirinin Azərbaycanın maraqlarını nəzərə almadan belə bir addımı atacağı inandırıcı görünmür.

*

Məsələnin aydınlaşmasından gözlənilən odur ki, Avropa İttifaqının Ermənistana yardımın önünü açmaq üçün Azərbaycana da eyni məbləğdə yardım ayırması ehtimalı böyükdür. Bunu deməyə əsas verən başlıca amil isə Ermənistanla müqayisədə Azərbaycanın həm siyasi, həm də iqtisadi baxımdan rəsmi Brüssel üçün daha əhəmiyyətli və etibarlı tərəfdaş statusuna malik olmasıdır. Yuxarıda qeyd etdiyimiz kimi, ən azı, bu nöqteyi-nəzərdən Macarıstanın Sülh Fondunun layihəsinə qoyduğu vetosunu məhz Azərbaycana da yardım şərtinin qəbul edildiyi halda geri götürməsi variantı ağlabatandır.

Bugünədək Azərbaycan hakimiyyətinin milli maraqların təmin edilməsi məqsədilə həyata keçirdiyi bütün siyasi gedişləri, atdığı addımları müsbət nəticə verib. İndi Aİ-nin sərgilədiyi anti–Azərbaycan mövqeyi, ermənipərəst fəaliyyəti yeni bir şey deyil. Sadəcə, bu “ssenarilər”in heç bir fayda gətirməcəyini onun müəllifləri də yaxşı bilirlər. Fəqət erməni lobbisinin işinə yaramaq üçün Avropanın bəzi ölkələri Ermənistana yardım ayırmaq kimi layihələrə əl atmağa məcburdurlar. Onlar bu zaman Macarıstanın qoyduğu vetonun aradan qaldırılmasını düşündükləri strategiyanın tərkib hissəsi kimi qəbul edirlər. Güman edək ki, Aİ-nin Ermənistana yardım layihəsi gerçəkləşdi. Məgər bununla İrəvan Bakıya qarşı sülh danışıqlarında ayrıca imtiyaz, yaxud hansısa siyasi dividend qazanmış olacaq? Bunun mümkün olmadığını kollektiv Qərbin özü də anlayır.

***İmran BƏDİRXANLI***
***XQ***

### Ekspert rəyi



**Yeganə HACIYEVA, politoloq**

– Bu il sədrlik Macarıstanın əlində olsa da, Avropa İttifaqının mərkəzi icra strukturlarında Budapeştin söz sahibi olmaması barədə bəzi fikirlər səsləndirilib. Yəni, Aİ-nin üzvü olsa da, Macarıstana bu strukturda ögey münasibət bəslənilir. Budapeştin həmişə özünəməxsus mövqeyi olub. Daxili iqtisadiyyatı ilə bağlı Avropanın ənənəvi yanaşmasından kənar mövqeyi ilə seçilib. Daha çox proteksionist maraqların müdafiəçisi kimi tanınıb. Siyasi maraqlarına gəldikdə isə bu ölkə başqalarının problemlərinə görə digər dövlətlərlə üz-göz olmaq istəməyib. Konkret olaraq, Avroittifaqın Rusiyaya qarşı sanksiyalarına qoşulmağı doğru saymayıb. Dövlət başçısı, xalqın lideri olaraq Baş nazir Orban, ilk növbədə, Macarıstanın milli maraqlarını həmişə üstün tutub. Aİ-də ona qarşı ögey münasibətin əsas səbəblərindən biri də budur. Məhz bu mövqeyinə görə Macarıstanın ev sahibi kimi Aİ-nin adından danışmaq səlahiyyətlərini belə məhdudlaşdırmağa çalışırlar. Bu isə birliyin üzvləri arasında bərabər iştirakçılıq prinsipinin pozulmasıdır.

Aİ-nin Ermənistana yardım etmək məsələsinə gəldikdə isə deməliyik ki, əlbəttə, Avropanın müxtəlif təsisatlarında erməni lobbisi üstünlük təşkil edir. Bölgəmizə yönəlik sülh müxanizmləri, təşəbbüsləri Aİ adından irəli sürülsə də, şübhə yoxdur ku, bu strukturlarda dominantlıq ermənipərəst Fransaya məxsusdur. Həmin Sülh Fondunun Ermənistana 10 milyon avroluq yardımına Macarıstanın veto qoymasına baxmayaraq, hazırda layihənin təqdimatı ilə bağlı ideyalar da məhz bir neçə istiqamətdən qaynaqlanır. Birinci istiqamət Fransadan başlayır. Aİ-nin icra strukturlarında Parisin mövqeyi kifayət qədər zəifləsə də, daxili siyasətdə erməni lobbisinin dəstəyini itirməməkdən ötrü Makron iqtidarı Aİ-də hayların maraqlarının müdafiəsi üçün səfərbər olunub. Bu müstəvidə siyasi qüvvələrin sağçı-radikal, lebaral, yaxud solçu mühafizəkar olmasının fərqi yoxdur. Onları birləşdirən xətt erməni lobbisinin maraqlarına xidmət etməkdir. Əslində, bu, Fransadaxili siyasi qrupların hamısı üçün xarakterik cəhətdir. Doğrudur, Emmanuel Makrondan fərqli olaraq, daxili siyasi maraqların xarici iqtisadi maraqları zədələyə biləcəyini anlayan liderlər bu addımı atmazdılar. İkinci vacib məqam isə Macarıstanın həm Türkiyənin, həm də Azərbaycanın Avropadakı güvənilən dostlarından biri olduğu üçün bu münasibətləri zədələməyə yönəlmiş məkrli fəaliyyətdir. Macarıstanın Aİ rəhbəri olduğu müddətdə bu pozuculuq əməlləri də davam edəcək.

IV MƏQALƏ

**Azərbaycan–Türkiyə birliyi və strateji müttəfiqliyi birgə səylərimizlə bu gün ən yüksək səviyyədədir.**

**İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti**

# Azərbaycan–Türkiyə birliyi: “Geosiyasi layları” tərpədən müttəfiqlik



### “Azərbaycan–Türkiyə qardaşlığı” siyasi anlayış kimi

Azərbaycan–Türkiyə müttəfiqliyinin multiregional (regionlararası) mahiyyətini anlamaqla bir çox məsələlərə obyektiv yanaşmaq mümkündür. O cümlədən, bir sıra dairələrin “Azərbaycan–Türkiyə qardaşlığı”na qəsdən məhdud və bir qədər anti-sivil münasibətlər məzmunu verməyə çalışmasının puçluğu özünü çox aydın göstərmiş olur. Doğrudan da, əgər Azərbaycan–Türkiyə müttəfiqliyi beynəlxalq hüquqa və bərabərhüquqlu münasibətlər qurmaq fəlsəfəsinə əsaslanmasa, onlar necə regionlararası geosiyasi məkanda uğurlu siyasət yeridə bilərlər?

Siyasətdə belədir ki, iki müttəfiqdən biri digərini özünə kiçik qardaş və ya aşağı hesab edirsə, onların regionlararası miqyasda real faydalı siyasəti mümkün deyildir. Çünki hər bir siyasətçi müttəfiq olan ölkələri iki müstəqil və obyektiv siyasi oyunçu statusunda deyil, birinin digəri üzərində siyasi hegemonluğunu süni birlik kimi qəbul edəcək. Bu da geniş siyasi spekulyasiyalara və səmərəsiz əməkdaşlıq cəhdlərinə aparıb çıxaracaq. Bu cür vəziyyətin nümunəsi vardır – Ermənistan!

Ermənistanı siyasi-diplomatik dairələrdə real müstəqil dövlət kimi qəbul etmirlər. Bunu açıq surətdə Nikol Paşinyan erməni xalqına müraciətdə etiraf etmişdir. O bəyan etmişdir ki, əsas məqsədi Ermənistanı müstəqil etməkdən ibarətdir. Bundan öncə, Qərbdə yaşayan bir sıra erməni tarixçiləri də Ermənistanın müstəqil dövlət kimi formalaşmadığını konkret faktlarla sübut etmişlər.

Ancaq buna baxmayaraq, Ermənistanın “müttəfiqləri” də az deyildir. Onların başında Rusiya gəlir. Moskva rəsmi olaraq “Ermənistan strateji müttəfiqimizdir” deyir. Lakin hər hansı böhranlı vəziyyət yarananda və ya rəsmi İrəvan şıltaqlıq eləyəndə Kremlin ritorikası dəyişir. Rusiyalı diplomatlar açıq ifadə edirlər ki, Ermənistan Rusiyanın sayəsində ölkə kimi mövcuddur, dövlət kimi də ancaq bu şərtlə mövcud ola bilər. Moskvadan bu hədə gələndə Qərbin bir sıra dövlətləri Ermənistanı özünə müttəfiq elan edir və təhlükəsizlik təklifini ortaya atırlar. Bununla məlum filmdəki kimi, “Məşədi, beş manat ver, səni müdafiə edim” lətifəsayağı vəziyyət yaranır.

Belə bir mənzərənin siyasi anlamı ondan ibarətdir ki, Ermənistan müstəqil dövlət kimi formalaşmadığından onun real müttəfiqi yoxdur. Əvəzində ona ağalıq etməyə çalışan və sözdə müttəfiq olan bir neçə dövlət vardır. Bunun geosiyasi nəticəsi isə Ermənistanın hər hansı regional və beynəlxalq qurumda müstəqil dövlət kimi iştirakı istisnadır – hamı ona böyük qardaş olacaq!

Azərbaycanla isə heç bir dövlət bu cür rəftar etmir və edə bilməz. Türkiyə rəhbərliyi isə daima “can Azərbaycan” deyərək, onun yeritdiyi müstəqil siyasəti alqışlayır və real qardaş kimi dəstək verir. Azərbaycan Prezidentinin hər səfərində əldə etdiyi uğurları Türkiyə özünün uğuru kimi qəbul edir. Rəsmi Ankara Azərbaycanın müstəqil dövlətçiliyini dərin sayğı ilə qiymətləndirir. Azərbaycan hazırda Türk Dövlətləri Təşkilatı və Qoşulmama Hərəkatının fəal üzvü kimi müstəqil siyasət yeridir. Ankara bunu nəinki normal qarşılayır, hətta hər cür dəstəyini ifadə edir. Məsələn, yeni müstəmləkəçiliyə və islamofobiyaya qarşı Azərbaycanın yeritdiyi siyasəti qürurla vurğulayır. Bu siyasətə güclü dəstəyini ifadə edir. Azərbaycanın təşəbbüslərinin reallaşması üçün Türkiyə öz qapılarını istənilən tədbirə açıq saxlayır.

İki dövlət arasında münasibətlərin belə məzmun alması təsadüfi deyildir – onun hüquqi cəhətdən ciddi və geniş əsasları vardır. Bu, Şuşa Bəyannaməsi ilə tənzimlənir.

Vurğuladığımız məqamlardan iki nəticə çıxara bilərik. Birincisi, “Azərbaycan-Türkiyə qardaşlığı” anlayışının siyasi anlamının təməlində iki müstəqil və mədəni, dini, etnik, mənəvi-əxlaqi, dövlətçilik qavramı baxımından çox yaxın olan dövlətlərin münasibətlərini beynəlxalq hüquq normaları çərçivəsində qurmaq niyyətləri durur.

İkincisi, bu iki dövlətin qardaşlığı əməkdaşlıq modelini regional və multiregional miqyaslara proyeksiya etməklə XXI əsrin tələblərinə uyğun müttəfiqlik nümunəsi yaradır. Bu mənada beynəlxalq hüquqda sözün həqiqi mənasında, müasir dövrdə “qardaşlığ”ın hüquqi anlamının formalaşması mümkündür. Görünür, “qardaşlığı”n siyasi-nəzəri və hüquqi dərki tədricən baş verəcəkdir. Lakin Azərbaycan və Türkiyə faktiki olaraq birbaşa bu prosesi aparırlar. Məsələnin də həm məsuliyyətli, həm çətin, həm də nəticəvericilik baxımından xüsusi diqqət tələb edən tərəfi bununla bağlıdır. Əgər ciddi bir geosiyasi prosesin nəzəri dərki ekskluziv xarakterlidirsə, burada səhv və ya doğru olanın adekvat qiymətləndirilməsi əlavə ehtiyatlılıq tələb edir.

Beləliklə, Azərbaycan–Türkiyə birliyinin təməlində “Azərbaycan-Türkiyə qardaşlığı” anlayışı dayanır. Bu anlayışın siyasi məzmununu Ulu öndərin “bir millət, iki dövlət” kəlamı təşkil edir. Buradan isə üç siyasi kriteriya bazasında iki müstəqil və qardaş dövlətin birliyi fəlsəfəsi yaranır.

Birinci kriteriya, “Azərbaycan-Türkiyə qardaşlığı” dövlətlərarası münasibətlərdə etnik və dini mənsubluq faktorları ilə deyil, beynəlxalq hüquq müstəvisində iki müstəqil dövlətin yüksək müttəfiqlik səviyyəsini ifadə edir.

İkinci kriteriya, “Azərbaycan-Türkiyə qardaşlığı” iki müstəqil dövlətin elə birliyini formalaşdırmağa xidmət edir ki, regional və multiregional geosiyasi miqyaslarda xalqların, cəmiyyətlərin və dövlətlərin təhlükəsizlik şəraitində birgə davamlı inkişafını stumullaşdırsın.

Üçüncü kriteriya, Azərbaycan–Türkiyə birliyi Türk Dövlətləri Təşkilatının (TDT) struktur və funksional mövcudluğunun mərkəzi faktorudur. Bu mənada, müttəfiqlik modeli olaraq açıqdır. Təsadüfi deyildir ki, Azərbaycan Prezidenti dəfələrlə ifadə etmişdir ki, TDT prinsipcə açıq təşkilatdır və yeni üzvləri ola bilər.

Deməli, ümumi halda Azərbaycan–Türkiyə birliyi hüquqi müstəvidə “qardaşlıq” və “strateji müttəfiqliyi” genişləndirə bilir. Bununla onun etnik qardaşlıq çərçivəsini aşaraq, ümumiyyətlə, dövlətlərarası münasibətlərdə səmimiyyət, yaxınlıq, qarşılıqlı dəstək və hüquqi aspektlərdə real məzmun aldığını demək olar.

Vurğulanan məqamlar aydın ifadə edir ki, Azərbaycan–Türkiyə birliyi müasir geosiyasətin və siyasətin bütün hüquqi, mənəvi və diplomatik tələblərini ödəyən və qarşısına konkret məzmunda konstruktiv məqsəd qoyan perspektivli əməkdaşlıq formatıdır. Artıq onun ətrafında Türk Dövlətləri Təşkilatı kimi fəal bir qurum yaranmışdır. Bununla Azərbaycan–Türkiyə müttəfiqliyinin ruhu bütün türk dövlətləri arasında münasibətlərin məzmununa sirayət etmişdir. Bu isə siyasi aspektdə o deməkdir ki, türk dövlətləri arasında, bütövlükdə, münasibətlər beynəlxalq hüquqa, ədalətə, mənəviyyata əsaslanan proses formasını almışdır. Deməli, Şuşa Bəyannaməsinə əsaslanan Azərbaycan–Türkiyə müttəfiqliyini davam etdirmək, ümumiyyətlə, Türk dünyasını qorumaq və inkişaf etdirməkdir. Türk dünyasını inkişaf edən dünyanın bir parçası halına gətirmək isə bütövlükdə, bəşəriyyətin inkişafına yeni dinamika verməkdir.

### Şuşa Sammiti

TDT-nin Şuşada keçirilən növbəti sammiti yuxarıda ifadə edilən fikirlərin işığında həm maraqlıdır, həm də aktual. Qeyri-rəsmi sammitin məhz Azərbaycanın Şuşa şəhərində keçirilməsi və orada türk dövlətlərinin əməkdaşlığının perspektivlərinin müzakirə edilməsi yalnız rəmzi məna daşımır. Bu, həm də Azərbaycan–Türkiyə müttəfiqliyinin daha geniş miqyasda təsir dairəsinin getdikcə artması əlamətlərindən biridir. Məsələ onunla bağlıdır ki, Qarabağın işğaldan azad edilməsində Türkiyə Cümhuriyyətinin ciddi siyasi və mənəvi dəstəyinin rolu az olmadı. Yəni bu baxımdan Şuşa iki qardaş dövlətin səmimi əməkdaşlığının, birgə mübarizə əzminin simvoludur. Həm də həmin müttəfiqliyin real məkanıdır. İndi türk dövlətlərinin başçıları məhz həmin müttəfiqliyin birbaşa bəhrəsi olan mübarizənin qalibi Azərbaycan Respublikasının bu dilbər guşəsində dünya üçün aktual olan məsələləri rahat müzakirə edə bilirlər. Bu anlamda Şuşa Sammiti, bütövlükdə, müasir mərhələdə səmimi əməkdaşlığın rəmzi ifadələrindən və təsdiqlərindən biridir.

TDT-nin qeyri-rəsmi Şuşa Sammitinin qardaş türk dövlətlərinin əməkdaşlığının fəlsəfəsi baxımından digər mühüm əlaməti tarixi sayıla biləcək Şanxay Əməkdaşlıq Təşkilatının Astanadakı son toplantısından dərhal sonra keçirilməsidir. Çünki bu ardıcıllıq türk dövlətlərinin aktual olan məsələləri çevik müzakirə etmək və onu qlobal miqyasda baş verən hadisələr kontekstində təhlil etmək üçün lazımi mexanizmə malik olmalarını ifadə edir.

Bu, siyasi baxımdan son dərəcə vacib faktordur. Səbəbi onunla bağlıdır ki, türk dövlətləri artıq təşkilat səviyyəsində multiregional və qlobal proseslərə reaksiya verə bilir, konkret qərarlar qəbul edirlər. Bu da TDT-nin yetkin təşkilatlanma yolunda olduğunun göstəricilərindən biridir. Unutmayaq ki, bu nəticənin kökündə Şuşa Bəyannaməsinə dayanan Azərbaycan–Türkiyə strateji müttəfiqlik fəlsəfəsi dayanır.

Bundan başqa, Astanada Azərbaycan, Qazaxstan, Türkiyə, Çin, Pakistan, Rusiya dövlət başçılarının müxtəlif formatlarda maraqlı görüşləri oldu. Orada Azərbaycanla Çin arasında strateji tərəfdaşlıq haqqında sənəd imzalandı. Bu, geosiyasi və siyasi aspektlərdə çox ciddi hadisədir. O cümlədən, türk dövlətlərinin regional miqyası aşaraq regionlararası miqyasda geosiyasi dinamikada daha dərindən iştirak etməyə başladığının göstəricilərindən biridir.

Vurğuladığımız faktlar yekun halında təsdiq edir ki, Azərbaycanla Türkiyənin Şuşa Bəyannaməsinə əsaslanan strateji müttəfiqliyi iki dövləti, regionu aşaraq regionlararası miqyasda ciddi geosiyasi proseslərin dinamikasına və ümumi mənzərəsinə təsir etməkdədir.

Hazırda iki qardaş ölkəyə – Azərbaycana və Türkiyəyə olan təsirlər bu kimi fundamental səbəblərdən, son dərəcə həssas bir məsələdir. Azərbaycanla Türkiyənin əməkdaşlığına ziyan verə biləcək işlərə qoşulmaq tarixi xəyanətdir. Bütövlükdə, geniş bir geosiyasi məkanda xalqların inkişafına əngəldir. Sülhün, əməkdaşlığın və təhlükəsizliyin etibarlılığına mane olanların yanında durmaq deməkdir.

Burada hibrid savaş qaydaları ilə yanaşı, müxtəlif xarakterli təxribatlar da ola bilər. Cəmiyyət və ölkə kimi bunlara qarşı birləşmək müstəqilliyi qorumaq və gələcək nəsillərin inkişafına şərait yaratmaq deməkdir. Hər hansı xırda etnik və məzhəb maraqlarından çıxış edərək, Azərbaycanla Türkiyə arasında soyuqluğa xidmət edən addımlara qoşulmaq dövlətçiliyə və milli maraqlara uyğun deyildir. Dövlət dilinin sosial-mədəni funksiyasından tutmuş, cəmiyyətin bütün sferalarında yad elementlərin yer almasına imkan vermək olmaz.

Əlbəttə, bura müasir elmi-texnoloji inkişafın elementləri aid deyildir. Azərbaycan müstəqil inkişaf etməlidir! Həm də Azərbaycan dünya miqyasında söz sahibi olmaq üçün qardaşları və dostları ilə həmahəng addımlar atmalıdır. Bu prosesin nüvəsinə tarixi gedişat Azərbaycan–Türkiyə strateji müttəfiqliyini yerləşdirmişdir!

**Füzuli QURBANOV,
XQ-nin analitiki, fəlsəfə elmləri doktoru**

# Paşinyan və hayların konstitusiya “azarı”

## Referendum erməni cəmiyyətini sağaldacaqmı?



**Ermənistan baş naziri Nikol Paşinyan ölkəsinin yeni konstitusiyaya ehtiyacının olduğunu bildirib. Əslində, Nikolun bu barədə söz açması ilk dəfə deyil. O, əvvəllər də bu barədə danışmışdı. İndi onun nələri dilə gətirdiyinə diqqət yetirəcəyik. Nəzərə alaq ki, erməni baş nazir bu dəfə fikirlərini ölkəsinin konstitusiya günü ilə bağlı müraciətində deyib. Yəni, mövzunu tam zamanında qabardıb.**

Əvvəlcə onu bildirək ki, Ermənistan konstitusiyası “İstiqlaliyyət bəyannaməsi” adlanan sənədə istinad edir. Həmin sənəddə Azərbaycana və Türkiyəyə ərazi iddiası yer alıb. Ölkəmiz məhz buna qarşıdır və məsələ heç də başqa dövlətin daxili işlərinə qarışmaq kontekstində qiymətləndirilə bilməz. Rəsmi Bakı, ilk növbədə, sülh üçün təminat istəyir. Çalışır ki, İrəvanın sülhə razılığı maksimum dərəcədə səmimi olsun. Yəni Ermənistanın barışa doğru can atdığı özünü real addımlarda göstərsin. Bu, həm də ölkənin gələcəkdə işğalçılıq niyyətinə düşməyəcəyi sözünü verməsini nəzərdə tutur. Təbii ki, tam təminatdan söhbət gedə bilməz. Eləcə də erməni qövmünün öz sözünü tutacağı ağlabatan deyil.

Əlbəttə, necə deyərlər, başı daşdan-daşa dəymiş Ermənistan rəhbərliyində təmsil olunanlar Azərbaycanın sülh yolundakı tələbini – konstitusiya dəyişikliyini geri çevirməyin mümkünsüzlüyünü hər kəsdən daha yaxşı anlayırlar. Bu mənada Paşinyan liderdir. Ancaq indiki halda o, dəyişiklik zərurətini bilavasitə Bakının sülh şərtini yerinə yetirmək kontekstində təqdim etmir. Buna, müəyyən mənada, təbii yanaşmaq lazımdır. Çünki Ermənistandakı revanşist-şovinist kəsimin Nikolu və komandasını Bakının qarşısında aciz qələmə verib xal qazanmağa, iqtidarı gözdən salmağa çalışdığı məlumdur.

Bəli, N.Paşinyan bildirir ki, hazırkı konstitusiya vətəndaşlar arasında ciddi sosial-psixoloji gərginlik yaradır. Sən demə, Ermənistan vətəndaşları ona hakim elitanın yaratdığı və həyata keçirdiyi sənəd kimi baxırlarmış. Göründüyü kimi, Nikol 44 günlük müharibədən sonra ölkəsində yaranmış acınacaqlı duruma görə “sabiqləri” günahlandırdığı kimi, yenə də söhbəti onların ittihamı üzərində qurur. Demək istəyir ki, vaxtilə Sarkisyan-Koçaryan rejimini ayaqda tutmuş konstitusiya xalqın iradəsinin məhsulu sayıla bilməz.

Belə çıxır ki, xalq köhnə rejimi devirdiyi kimi, onun ana qanununu da sıradan çıxarmalıdır. Ancaq bu zaman suallar yaranır: Paşinyan hansı əsasda hakimiyyətə gəlib? Məgər onun iqtidara yiyələnməsi konstitusyon quruluşun şərtlərinə uyğun gerçəkləşməyibmi? Sualları açıq saxlayaq və görək Nikol fikrini əsaslandırmaq üçün daha hansı məqamları qabardıb.

Erməni baş nazir yarımçıq bildiyi fəlsəfəni işə salaraq qeyd edib ki, əsas problem təkcə konstitusiyada yazılanlarda deyil, həm də sənədin necə qəbul edilməsindədir. Onun sözlərinə görə, Ermənistana xalqın özününkü hesab edəcəyi, insanların xalq–dövlət, dövlət–xalq münasibətləri haqqında fikirlərini əks etdirən yeni konstitusiya lazımdır. Yenə də belə çıxa bilər ki, xalq anlamadığı konstitusiyaya əsaslanaraq, Paşinyanın hakimiyyətə yiyələnməsinə şərait yaradıb. Olsun, bir söz demirik. Ancaq Paşinyanın vurğuladığı başqadır.

Ermənistan baş naziri yaxşı bilir ki, xalq “ekslərə” nifrət bəsləyir. Ona görə də konstitusiya dəyişikliyinə zərurəti həmin nifrət havasının notlarına kökləmək yolunu tutur. Əslində, ən optimal variant elə budur. Ancaq hər bir halda Nikol müqavimət də formalaşdırmalıdır və formalaşdırır. Bir növ, qabaqdangəlmişlik edir və deyir ki, yeni konstitusiya məsələsi tez-tez spekulyasiya predmetinə çevrilir. Heç şübhəsiz, o, müxaliflərin dəyişikliyi Azərbaycanın istəyi kimi göstərmək niyyətinə qarşı müqavimət yaradır və vurğulayır ki, ölkədə institusional, psixoloji və fiziki sabitliyin möhkəmləndirilməsi istiqamətində işi davam etdirmək lazımdır.

Göründüyü kimi, N.Paşinyan mövzunu geniş götürür. Onun “institusional, psixoloji və fiziki sabitliyin möhkəmləndirilməsi istiqamətində iş” məntiqi bundan irəli gəlir.

Məsələ barədə onu deyək ki, erməni cəmiyyəti mahiyyətcə xəstə durumdadır. Xəstəliyin ən böyük simptomu isə ərazi iddiasında olmaqdır. Bu iddianın nəticəsidir ki, hazırda erməni toplumu, bir növ, aqoniya vəziyyətindədir. Mövcud durum reallıqların dərkini çətinləşdirir, müvafiq olaraq şovinist və revanşist ideyaların vüsət alması üçün münbit zəmin formalaşdırır.

Deməli, erməni cəmiyyəti köhnə stereotiplərdən qurtulmalıdır. Bunun üçün isə ortaya əzm və iradə qoyulmalıdır. Nəzərə alsaq ki, yeni konstitusiya referendum yolu ilə qəbul olunacaq, cəmiyyət bu suala cavab verməlidir: Qonşularımızla normal yaşamaq istəyirik, yoxsa yox?

Suala məntiqi və düzgün cavabın verilməsindən Ermənistanın bir dövlət kimi gələcəkdə var olub-olmayacağı asılıdır. Görünür, elə buna görədir ki, Paşinyan daha bir məntiqi - “real Ermənistan” xalqının maraqları”nı qabardır, dolayısı ilə başından yuxarı hoppanmağın düzgün olmadığına dair mesaj verir. Nəzərə alaq ki, Nikol əvvəllər də belə mesajlar verib. Məsələn, ölkənin ictimai televiziyasının efirinə çıxış edərkən, gedilən yolda qəzəbli öküzlərin mövcudluğu səbəbindən nənəsinin tikdiyi qırmızı paltarı çıxarmağın zəruriliyini əsaslandırıb.

Deyə bilmərik ki, Paşinyan sırf konstitusiya dəyişikliyi məsələsində nənəsi ilə bağlı nələrdənsə söz açacaq ya yox, ancaq onun yeni əsas qanun təşəbbüsünü pozitiv qiymətləndirmək mümkündür. Ancaq, necə deyərlər, avazın yaxşı gəlir, oxuduğun Quran olsa. Son illər Nikolun konstitusiya dəyişikliyi avazı yaxşı gəlir, amma ortada nəticə yoxdur. Vaxtilə Qarabağ məsələsində də belə idi. Paşinyan Azərbaycanın Qarabağ da daxil olmaqla ərazi bütövlüyünü və suverenliyini tanıdığını bəyan edirdi, ancaq bölgədə erməni silahlıları qalırdı. O silahlılar ərazidən ölkəmizin gerçəkləşdirdiyi lokal xarakterli antiterror tədbirləri ilə çıxarıldı. Yəni güc yolu ilə uzaqlaşdırıldılar.

Erməni xəstəliyindən söz düşmüşkən, deyək ki, bu xəstəlik daşıyıcılarının qəbul etdikləri yalnız bir yol var – güc yolu.

**Ə.RÜSTƏMOV
XQ**

# Dövlət kəndin əsas arxa-dayağıdır

**Ölkəmizdə ərzaq təhlükəsizliyinin daha da gücləndirilməsini təmin edən və ixrac potensialının artırılmasına töhfə verən rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sənayesinin formalaşdırılması dövlətin həyata keçirdiyi sosial-iqtisadi siyasətin əsas istiqamətlərindən birini təşkil edir. Bu məqsədlə ölkədə müasir aqrobiznes sahələri formalaşdırılır.**

Son zamanlar dünyada iqtisadi, ekoloji, o cümlədən iqlim dəyişikliyi kimi yeni çağırışlara uyğun olaraq aqrobiznes mühitinin qorunub saxlanılması məqsədilə yerlərdə festivallar keçirilir, ictimai müzakirələr aparılır. Bu kimi tədbirlər, həm də ölkədə aqrobiznesin inkişafında rolu olan tərəfləri bir araya gətirməklə beynəlxalq və yerli təcrübəni, mövcud vəziyyəti, imkanları, o cümlədən aqrobiznesə maliyyə dəstəyi və dövlət güzəştlərindən daha çox fermer-sahibkarın faydalanması üçün lazım olan addımların müzakirəsi baxımından olduqca əhəmiyyətlidir.

Bu ilin birinci yarısında Salyan, Yevlax, Masallı, Quba, Qazax, Qəbələ, İsmayıllı, Saatlı, Samux və Xızı rayonlarında aqrar biznes festivalları keçirilib. Şirvan–Salyan, Mərkəzi Aran, Lənkəran–Astara, Quba–Xaçmaz, Qazax–Tovuz, Şəki–Zaqatala, Mil–Muğan, Gəncə–Daşkəsən və Abşeron–Xızı iqtisadi rayonlarını əhatə edən tədbirlərə, ümumilikdə, 52 rayon və şəhərdən gəlmiş fermerlər qatılıblar. Kənd Təsərrüfatı Nazirliyinin məlumatına görə, həmin tədbirlərdə 6756 fermer iştirak edib. Festivallara qatılmış fermerlərin 91,3 faizi kişi, 8,7 faizi isə qadın olub.

Azərbaycanın müvafiq dövlət qurumlarının, eləcə də bankların, yerli və beynəlxalq təşkilatların nümayəndələrinin iştirakı ilə keçirilən tədbirlərdə aqrobiznes sektorunun mövcud vəziyyəti və gələcək perspektivləri, eləcə də iqlimə davamlı maliyyələşdirmə, subsidiyalar vasitəsilə kənd təsərrüfatının maliyyələşdirilməsi və dövlət–özəl tərəfdaşlıq yönümlü bir sıra məsələlər müzakirə olunub.

Bununla yanaşı, aqrobiznes forumları çərçivəsində, həmçinin kənd təsərrüfatının maliyyələşdirilməsində dövlət və özəl maliyyə sektoru qarşısında çağırışlar "yaşıl" maliyyə və iqlimə davamlılıq üçün dövlət dəstək alətləri, kənd təsərrüfatı kooperativlərinin aqrobiznesin inkişafında rolu, Türk Dövlətləri Təşkilatının əhatə etdiyi regionun kənd təsərrüfatı potensialı mövzusunda panel müzakirələri keçirilib.

Aqrar sahədə müasir innovativ yeniliklərin nümayiş olunduğu festivallarda 29 dövlət qurumu və 112 özəl şirkət təmsil olunub. Tədbirlər çərçivəsində 18 şirkət və fərdi sahibkar tərəfindən 3 milyon 525 min 988 manatlıq satış həyata keçirilib. Şirkətlər tərəfindən əsasən traktorlar, konteyner daşıyan qoşqular, meyvə yığan platformalar, tunel tipli ön soyutma sistemləri, hava ilə soyutma avadanlıqları, fındıq toplayan aqreqatlar, bağ ləvazimatları, toxum, ting, arıçılıq məhsulları, qurudulmuş meyvə satışı gerçəkləşdirilib.

Nazirliyin məlumatına görə, aqrar biznes festivallarında fermerlər üçün 18 təlim təşkil olunub. Təlimlərin mövzuları fermerlərin ehtiyacları nəzərə alınaraq müəyyənləşdirilib. Aqrar Təlim Mərkəzi, elmi-tədqiqat institutları və özəl şirkətlərin mütəxəssisləri prosesə təlimçi qismində qatılıblar.



Məlum olduğu kimi, hazırda ölkə üzrə məşğul əhalinin təqribən 35-40 faizi aqrar sektorda çalışır. Kənd təsərrüfatında hər hansı bir tənzimləmə tədbirinin bu sahədə məşğulluqla əlaqələndirilməsini məqbul hesab etməyən M. Məmmədov deyib ki, Azərbaycanda aqrar sahənin məşğulluqdakı payı dünya üzrə ən yüksək göstəricilərdən biridir. Yeri gəlmişkən, bunu müsbət məqam hesab etməyən kənd təsərrüfatı naziri bundan sonra aqrar sahədə yeni məşğulluq imkanlarının, yeni iş yerlərinin yaradılmasından daha çox bu sahədə mövcud məşğul olanların gəlir əldəetmə imkanlarının genişləndirilməsinin vacibliyini önə çəkib.

Bununla belə, ölkədə fermerlərin kredit vəsaitlərinə çıxışı arzu olunan səviyyədə deyil. Problem Kənd Təsərrüfatı Nazirliyini də ciddi narahat edir. Kənd təsərrüfatı naziri Məcnun Məmmədov bununla bağlı deyib ki, aparılan araşdırmalara əsasən, Elektron Kənd Təsərrrüfatı İnformasiya Sistemində qeydiyyatda olan fermerlərin orta hesabla 12-15 faizi kredit əldə edə bilirlər. Onun sözlərinə görə, fermerlərin kreditə çıxışının yaxşılaşdırılması üçün bir sıra əlavə yeni mexanizmlərin yaradılması ilə bağlı hazırda Azərbaycan Mərkəzi Bankı ilə birgə yeni təşəbbüslər hazırlanır.

Yeri gəlmişkən, Aqrar Tədqiqatlar Mərkəzinin hesabatına görə, cari ilin ilk beş ayında kənd təsərrüfatında fəaliyyət göstərən 1645 fiziki və hüquqi şəxsə 31,8 milyon manat məbləğində güzəştli kredit verilib. Bunun 27,7 milyon manatı texnika və avadanlıq təyinatlı kreditlər, 35 min manatı güzəştli kreditlər, 4,1 milyon manatı isə mikrokreditlərdir. Eyni zamanda Aqrar Kredit və İnkişaf Agentliyi tərəfindən ölkədə 5251 kənd təsərrüfatı texnikasının satışı maliyyələşdirilib ki, bu da bir il öncəki göstəricini 88,7 faiz üstələyir.

Aqrar sektorda güzəştli kredit mexanizminin təkmilləşdirilməsi, fermerlərin bu vəsaitlərə əlçatanlığının asanlaşdırılmasında aqrobiznes festivalları da mühüm rol oynaya bilər. Bu amil nəzərə alınaraq cari ilin ilk yarısında keçirilmiş festivallar çərçivəsində fermerlər üçün kredit yarmarkaları təşkil olunub. Həmin yarmarkalarda 13 bank və 1 bank olmayan kredit təşkilatı öz məhsulları barədə fermerlərə məlumat veriblər.

Bununla yanaşı, aqrobiznes forumlarında aparılmış bir sıra müzakirələr zamanı aqrar sahənin investisiya imkanları və yeni çağırışlar, bank sektorunda aqrobiznesin maliyyələşdirilməsi təcrübəsi, maliyyə alətləri, risklər və onların tənzimlənməsi ilə bağlı təkliflər səsləndirilib, aqrar sahədə sahibkarlığın inkişafı, çətinliklər və imkanlar, kənd təsərrüfatının inkişafında dövlətin rolu, dövlət dəstəyi tədbirlərinin təkmilləşdirilməsi istiqamətləri barədə rəy və təkliflər irəli sürülüb. Məsələn, Qubada keçirilmiş 3-cü Aqrobiznesin İnkişafı Forumunda kənd təsərrüfatının maliyyələşdirilməsində uğur hekayələri, uğurlu maliyyələşdirmə yolu ilə inkişaf etmiş yerli təsərrüfatların və ya aqrobizneslərin video təqdimatları və onların mükafatlandırılması həyata keçirilib.

Qeyd edək ki, Aqrar İnnovasiya Mərkəzinin təşkilatçılığı ilə növbəti aqrar biznes festivalları bu ay Gədəbəy və Yardımlı rayonlarında keçiriləcək.

## "Azəri-Çıraq-Günəşli" – 3 milyard dollar qazanc

**Azərbaycan Dövlət Neft Fondu (ARDNF) cari ilin yanvar–iyun aylarında Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar blokunun işlənməsindən 3 milyard 5,3 milyon ABŞ dolları məbləğində gəlir əldə edib.**



Fonddan verilən məlumata görə, AÇG Azərbaycanın ən böyük neft yatağı blokudur. Yataqlar blokunun işlənməsi üzrə hasilat bölgüsünə dair ilk müqavilə 1994-cü ilin sentyabrın 20-də imzalanıb. 2017-ci il sentyabrın 14-də isə həmin yataqların birgə istismarına və hasilatın pay bölgüsünə dair yeni saziş imzalanıb. Bu saziş yataqların 2049-cu ilin sonunadək işlənməsini nəzərdə tutur.

AÇG-də BP (30,37 faiz), SOCAR (25 faiz), "MOL Group" (9,57 faiz) INPEX (9,31 faiz), "Equinor" (7,27 faiz), "ExxonMobil" (6,79 faiz), TPAO (5,73 faiz), ITOCHU (3,65 faiz), "ONGC Videsh Limited" (OVL) (2,31 faiz) pay sahibidir.

## Britaniya şirkətinin "qızıl" hesabı

**Böyük Britaniyanın "Anglo-Asian Mining Plc." şirkəti (AAM) bildirir ki, respublikamızda müqavilə sahələrinin işlənməmiş ehtiyatları 400 min unsiyadan çox qızıl və 700 min tondan çox mis təşkil edir. 2024–2028-ci illəri əhatə edən inkişaf strategiyası çərçivəsində ardıcıl olaraq 4 yeni mədənin – "Gilar", "Xarxar", "Qaradağ" və "Zəfər" yataqlarının istismara veriləcəyi nəzərdə tutulur.**

Adıçəkilən şirkət enerji keçidi və "xalis sıfır" karbon emissiyasına nail olmaq üçün kritik metal olan misin 2026-cı ilə qədər əsas istehsal məhsuluna çevriləcəyini də gözləyir. 2028-ci ildən şirkət mis istehsalını ildə təxminən 36 min tona çatdırmağı planlaşdırır.

Xatırladaq ki, hazırda "Anglo Asian Mining" "Gədəbəy" və "Qoşa" müqavilə sahələrindən qiymətli metal hasil edir. "Gədəbəy" yatağından ilk qızıl hasilatına 2009-cu ildə, gümüş hasilatına 2010-cu ildə başlanılıb.

Şirkət 2013-cü ilin sentyabr ayında "Qoşa" müqavilə sahəsinin işlənməsinə başlayıb. Bu il isə "Vejnəli" və "Gilar" yataqlarından hasilata başlanılması planlaşdırılıb.



Qeyd edək ki, 1997-ci il avqust ayının 21-də imzalanan "Production Sharing Agreement" tipli müqavilədə 6 yatağın işlənməsi nəzərdə tutulub. Müqavilədə Azərbaycanın payı 51 faiz, "Anglo Asian Mining Plc." şirkətinin payı isə 49 faiz olub. Hazırda şirkət Azərbaycanda 8 müqavilə sahəsini işləmək hüququna malikdir.

## Tikinti kimyəviləri zavodu




**İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan Sumqayıt Kimya Sənaye Parkının rezidenti "Kartaş Kimya" MMC-nin tikinti kimyəvilərin istehsalı müəssisəsində son tamamlama işləri görülür.**

Agentlikdən redaksiyamıza verilən məlumata görə, yaxın aylarda müəssisədə avadanlıqların quraşdırılmasına başlanılması planlaşdırılıb. Layihə üzrə indiyədək görülən işlərə artıq 15 milyon manat sərmayə qoyulub.

Zavodda tikinti kimyəvilərin istehsalı ilə yanaşı, ölkə ərazisində ilk dəfə olaraq müxtəlif təyinatlı su izolyasiya materialların və döşəmə məhsulların istehsalı da nəzərdə tutulur.

"Kartaş Kimya" MMC-yə 2022-ci ilin iyulunda Sumqayıt Kimya Sənaye Parkının rezidenti statusu verilib, müəssisənin bu ilin sonunda fəaliyyətə başlaması planlaşdırılıb.

# Elektromobillərə keçid: tüstü azalır, hava təmizlənir

**Ekspertlər tərəfindən dizel və benzinlə işləyən avtomobillərin ekologiyaya mənfi təsir göstərdiyi, eyni zamanda işlənmiş qazların insanlarda xroniki xəstəliklərin mənbəyinə çevrildiyi bildirilir, bu amilin həm də neft ehtiyatlarının sürətlə tükənməsinə, enerji təhlükəsizliyində müəyyən risklərin yaranmasına səbəb olduğu vurğulanır.**

Bu problemin həlli istiqamətində bir sıra ölkələrdə, eləcə də respublikamızda müəyyən layihələrin icrasına başlanılıb. Həyata keçirilən tədbirlər sırasında yanacaq qiymətlərinin tədricən bahalaşdırılmasına diqqət artırılıb, belə halda isə təbii ki, elektrikli avtomobillərə keçid prosesinin sürətləndirilməsi önə çəkilib.

Son illər ərzində ölkəmizdə bu sahədə bir sıra layihələr gerçəkləşdirilib. Məsələn, Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə Nəqliyyat Vasitələrinin Utilizasiyası Fondu yaradılıb. Azərbaycanda istehsal olunan avtomobil yanacağının keyfiyyətinin yüksəldilməsinə mühüm önəm verilib. Belə ki, ötən ilin may ayından Heydər Əliyev adına Bakı Neft Emalı Zavodunda "Avro-5" ekoloji standartlarına cavab verən dizel yanacağı istehsalına başlanılıb. Bu il iyunun sonunadək isə müəssisədə "Avro-5" standartlarına cavab verən avtomobil benzininin istehsalının gerçəkləşdirilməsi nəzərdə tutulub. Təbii ki, belə tədbirlərin reallaşdırılması ətraf mühitin yaxşılaşdırılmasına və zərərli emissiyaların azaldılmasına yönəldilib.



Yeri gəlmişkən, bu il iyulun 1-dən dizel yanacağından istifadənin daha yüksək ekoloji zərəri nəzərə alınaraq, daha çox benzin istehlakına keçilməsi məqsədilə benzinlə dizel arasındakı qiymət fərqi azaldılıb. Qiymət dəyişikliyi enerji təhlükəsizliyinin dayanıqlılığını gerçəkləşdirməklə yanaşı, yanacağa qənaət edən hibrid, elektrik və sıxılmış təbii qaz (CNG) mühərrikli avtomobillərə keçidi sürətləndirəcək. Statistikaya əsasən, son illərdə Azərbaycana avtomobil idxalında elektrik mühərrikli avtomobillərin sayı artır. Yanacağın keyfiyyətinin yüksəldilməsi, öz növbəsində, nəqliyyat vasitələrinin təmirinə çəkilən xərclərin azaldaraq istismar müddətini uzadacaq.

Qeyd edək ki, aidiyyəti beynəlxalq qurumlar və ictimaiyyət tərəfindən ekoloji mühitin qorunması, nəqliyyat emissiyalarının azaldılması və daha təmiz nəqliyyat növlərinin təşviqi ilə bağlı çağırışlara həssaslıq göstərilib. Azərbaycanda yanacağın keyfiyyətinin yüksək standartlara çatdırılması, ekoloji mühitin yaxşılaşdırılması məqsədilə neft emalı sənayesində yenidənqurma və modernləşdirmə işlərinin həyata keçirilməsi sürətlənib, bu sahəyə investisiya xərcləri artırılıb.

Dünya səviyyəsində böyük istehsalçılar tərəfindən "premium" markalı, elektrik və hibrid mühərrikli avtomobillərin istehsalına keçid sürətlə reallaşdırılır. Avropa İttifaqında benzin və ya dizel mühərrikli (karbon-neytral sintetik yanacaqla (e-yanacaq) işləyən avtomobillər istisna olaraq) yeni avtomobillərin istehsalı və qeydiyyatının dayandırılması istiqamətində tədbirlər həyata keçirilir.

Bütün bunlarla bərabər elektrik mühərrikli avtobusların istehsalına da xüsusi əhəmiyyət verilir. İqtisadiyyat Nazirliyindən verilən məlumata görə, Azərbaycanda gələn il elektrik mühərrikli avtobusların istehsalı zavodunun tikiləcəyi nəzərdə tutulur.

Azərbaycanda elektriklə işləyən avtomobillər üçün enerji doldurma məntəqələrinin quraşdırılması da prioritet istiqamətdir. Bu məsələ Prezident İlham Əliyevin "Elektrik mühərrikli nəqliyyat vasitələrindən istifadənin təşviq edilməsi haqqında" 7 mart 2024-cü il tarixli Sərəncamında öz əksini tapıb.

Dövlət başçısının imzaladığı sənəddə qeyd olunur ki, karbon emissiyalarının azaldılmasında, enerji səmərəliliyinin yüksəldilməsində və nəqliyyat sənayesində innovasiyaların təşviqində elektrik mühərrikli nəqliyyat vasitələrinin rolunu nəzərə alaraq dayanıqlı və ekoloji cəhətdən təmiz nəqliyyat vasitələrindən istifadənin stimullaşdırılması daha təmiz və dayanıqlı nəqliyyat sisteminə keçidi sürətləndirmək üçün xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan, elektrik nəqliyyat vasitələrindən istifadənin genişləndirilməsini, zəruri infrastrukturun inkişafını, habelə ümumi nəqliyyat sisteminə inteqrasiyanı təmin edən normativ hüquqi bazanın formalaşdırılması zəruridir.

Ökəmizdə avtobus parkının yerli istehsal hesabına yenilənməsi də diqqətdə saxlanılıb. Bu məqsədilə Çinin "BYD Company Limited" (BYD) şirkəti ilə çərçivə sazişi imzalanıb. Çərçivə sazişi əsasında elektrik mühərrikli avtobusların alınması, onlara xidmətin göstərilməsi, ölkəmizdə istehsalın qurulması və lokallaşdırılması nəzərdə tutulub. Sazişdə qarşıya ölkəmizdə elektrik nəqliyyatı infrastrukturunun inkişafı, sərnişinlərin rahatlığının təmin edilməsi və ətraf mühitə zərərli təsirin azaldılması, habelə ölkənin ekoloji vəziyyətinin yaxşılaşdırılması qarşıya mühüm vəzifə kimi qoyulub.

Çərçivə sazişinə əsasən yaradılacaq birgə müəssisə tərəfindən Sumqayıt Kimya Sənaye Parkında 2025-ci ildə elektrik mühərrikli avtobusların istehsalı zavodu tikiləcək. İnvestisiya həcmi 34 milyon dollar olan layihə çərçivəsində 800 yeni iş yeri yaradılacaq. Bununla yanaşı, Azərbaycanda avtobus istehsalı müəssisəsi fəaliyyətə başlayanadək Çinin "BYD Company Limited" (BYD) şirkətindən elektrik avtobusları alınacaq.

### Ekspert rəyi

**Fikrət YUSİFOV, iqtisad elmləri doktoru, professor**



Elektrik mühərrikli avtobusların istehsalı zavodu işə düşəndən sonra təkcə yerli tələbatı deyil, ixracı da nəzərə almaq lazımdır. Çünki dünyanın enerji balansı sürətlə dəyişir. Bu sırada dayanan əsas məsələlərdən biri də yanacaqla işləyən avtomobillərin elektromobillərlə əvəz edilməsidir. Bu cür proses artıq böyük bir sürətlə irəliləməkdədir.

Son 10 ildə dünyada elektromobillərin sayı 140 dəfədən çox artıb. Bu gün dünyada 26 milyondan çox elektromobil hərəkət edir və bu say davamlı şəkildə yüksəlir. Dünyanın ən aparıcı avtomobil istehsalı müəssisələri 2035-ci ildən sonra yanacaq mühərriki ilə işləyən avtomobillərin istehsalını dayandıracaq və yalnız elektromobillər istehsal ediləcək.

Beynəlxalq müstəvidə baş verən bu proseslərə Azərbaycan hökuməti də adekvat cavablar verir. Ölkəmizə gətirilən və son 3 ildə istehsal edilən elektromobillər müəyyən gömrük rüsumlarından və əlavə dəyər vergisindən azad olunub. Məqsəd belə avtomobillərin idxalını stimullaşdırmaqdır. Nəticə isə göz önündədir. Son 3 ildə Azərbaycana elektromobillərin idxalı 16 dəfəyə qədər artıb. Elektrik mühərrikli avtobusların Azərbaycanda istehsalına gəlincə, bunu alqışlamaq lazımdır. Belə bir zavodun tikintisi müasir çağırışlara cavab verən ən mühüm bir addım olacaq. Təbii ki, respublikada bu müəssisə yaradılarkən onun məhsullarının daxili bazarın ehtiyaclarını ödəməklə yanaşı, ixrac edilməsi də nəzərdə tutulub. Çünki bu məhsullara tələbat böyükdür və ən azından MDB məkanında onun alıcıları yetərincə olacaq. Bu isə real sektordan ixracın həcminin artmasına bir dəstək ola bilər.

Dövlət Gömrük Komitəsinin hesabatına əsasən, bu ilin yanvar–may aylarında Azərbaycana daxili yanma mühərriklə yanaşı, elektrik mühərriklər də hərəkətə gətirilən nəqliyyat vasitələrinin sayı 6923 ədəd olub. Yalnız elektrik mühərriklə hərəkətə gətirilən nəqliyyat vasitələrinin sayı isə 1250 ədəd təşkil edib. Bu göstəricilər ötən ilin müvafiq dövrü ilə müqayisədə hibrid avtomobillərdə 1039 ədəd, elektromobillərdə isə 438 ədəd artım deməkdir.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Orta Dəhliz – Bakı-Pekin əməkdaşlığının ana yolu

**İyulun 3-də Şanxay Əməkdaşlıq Təşkilatının Astanada keçirilən Zirvə toplantısı çərçivəsində Azərbaycanla Çin arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə qəbul olunub. Sənəddə dost ölkənin respublikamızla Orta Dəhliz üzrə əməkdaşlığı da xüsusi vurğulanıb. Həmin maddə də qeyd edilib: "Çin tərəfi Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin (Orta Dəhliz) tikintisində və istismarında fəal iştirak etməyə, Çin-Avropa və əks istiqamətdə Cənub Dəhlizinin yük qatarları üçün fasiləsiz fəaliyyətini və sürətləndirilmiş inkişafını birgə təşviq etmək məqsədilə Azərbaycanla və marşrut boyu yerləşən digər ölkələrlə daha sıx işləməyə, regional praktiki əməkdaşlığın dərinləşdirilməsinə əlverişli şərtlər yaratmağa, istehsal-təchizat zəncirlərinin təhlükəsizliyi və sabitliyini birgə gerçəkləşdirməyə hazır olduğunu bildirir". Bu sözlər həm də Qərblə Çinin "Orta Dəhiz" layihəsində bir mövqedən çıxış etməsi deməkdir.**

Dost ölkənin irəli sürdüyü "Kəmər və yol" təşəbbüsünü ilk dəstəkləyən ölkələrdən biri Azərbaycan olub və respublikamız Çinlə nəqliyyat–logistikaya dair qlobal layihələr müstəvisində sıx əməkdaşlıq qurub. Azərbaycan bu istiqamətdə ciddi praktiki tədbirlər həyata keçirib və "Kəmər və yol" layihəsinin mühüm hissəsi olan Orta Dəhlizin infrastrukturunun inkişafına əhəmiyyətli investisiyalar yatırıb.

Qeyd edək ki, dünyada və regionda baş verən geosiyasi hadisələrlə əlaqədar Orta Dəhliz Mərkəzi Asiya ölkələri və Xəzər dənizi üzərindən keçməklə Avropa ilə Asiyanı birləşdirən ən qısa və rahat marşrutdur. Bu amil adıçəkilən dəhlizin önəmini artırmaqla yanaşı, geniş bir regionda yerləşən ölkələr arasında əməkdaşlığın daha da inkişafı baxımından unikal imkanlar təqdim edir. Yaxud Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri kimi regional kommunikasiya layihələrində respublikamızın rolu getdikcə artır.

Azərbaycan Qərblə Şərq yolunun üzərində yerləşdiyindən dünyanın ən böyük iqtisadiyyata malik olan tərəfləri – Çinlə Avropa arasında əlaqənin qurulması kimi vacib layihədə başlıca rollardan birini oynayır. Respublikamız bu istiqamətdə qlobal və regional miqyasda mövcud vəziyyətlə (Qırmızı və Qara dənizlərdə, Süveyş kanalında mövcud böhranlı şərait) əlaqədar Orta Dəhliz Mərkəzi Asiya ölkələri və Xəzər dənizi üzərindən keçməklə Avropa ilə Asiyanı birləşdirən ən qısa və rahat marşrut sayılır.

Orta Dəhliz Çindən Avropaya və geriyə yüklərin çatdırılması üçün ən səmərəli və təhlükəsiz marşrutdur. Xatırladaq ki, bu dəhliz 2014-cü ildən fəaliyyət göstərir və Çin, Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan və daha sonra Türkiyə, həmçinin Avropa ölkələrinə qədər uzanır.

2023-cü ildə Orta Dəhlizlə 2,8 milyon tona yaxın yük daşınıb ki, bu da 2022-ci illə müqayisədə 86 faiz çoxdur. 2024-cü ildə yükdaşımaların həcmi 4 milyon tonu keçəcəyi gözlənilir. Bu ilin sonuna qədər isə Orta Dəhliz vasitəsilə 250-yə yaxın konteyner bloku qatarının göndərilməsi planlaşdırılır.

Onu da deyək ki, Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi ilə Çindən




Türkiyəyə yük daşımalarının müddəti 1 aydan 12 günə qədər azalıb. Çindən göndərilən yüklərin Türkiyə vasitəsilə Qərbi Avropa ölkələrinə çatdırılması isə, ümumilikdə, cəmi 18 günə baş verir.

Artıq bu aydan başlayaraq Çinin Sian şəhərindən Bakıya Orta Dəhlizlə gündə bir dəfə konteyner blok qatarı göndərilir. "Azərbaycan Dəmir Yolları" QSC-nin məlumatına görə, məişət malları, avtomobil və ehtiyat hissələri ilə yüklənmiş ilk qatarın Qazaxıstan və Xəzər dənizindən keçməklə, təqribən, 8-12 günə Bakıya çatacağı gözlənilir.

Siandan daşımalar bu il yanvarın 1-dən başlanılıb. Orta Dəhlizin potensialının genişləndirilməsi istiqamətində aparılan davamlı və səmərəli fəaliyyət nəticəsində iyulun 1-dən isə bu daşımalar gündəlik həyata keçirilir.

Çinin yük avtomobilləri də Orta Dəhliz vasitəsilə Çin-Avropa marşrutu üzrə yük daşımalarına başlayıb. 26 yük avtomobilindən ibarət konvoy iyulun 3-də Qazaxıstanın Kurik limanından gəmi-bərəyə yüklənərək, Bakıya yola salınıb. Çindən yük qatarı ilə gələn 110 konteyner eyni vaxtda Aktau limanında bərəyə yüklənib. Bununla əlaqədar keçirilən mərasimə Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev və bu ölkədə səfərdə olan Çin Xalq Respublikasının Sədri Si Cinpin videobağlantı ilə qoşulublar.

Çindən Orta Dəhliz üzərindən qatarla yük daşınması bir neçə ildir həyata keçirilir. Çinə məxsus yük avtomobilləri isə ilk dəfə rəsmi olaraq Transxəzər beynəlxalq nəqliyyat dəhlizindən istifadə etməyə başlayıb. Yüklər Azərbaycan, Gürcüstan və Türkiyə vasitəsilə Avropa ölkələrinə çatdırılacaq.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Astanada keçirilən ŞƏT sammitində deyib: "Trans-Avrasiya dəhlizləri arasında gələcək sinerji qurmaq üçün Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) çərçivəsində strateji dəniz limanları və logistika mərkəzlərinin tərəfdaşlıq şəbəkəsinin yaradılması istiqamətində tədbirlər görülməlidir.

Çinin "Bir kəmər, bir yol" meqalayihəsi ilə Orta Dəhliz, Şimal-Cənub, Mərkəzi Asiya-Cənubi Asiya vektorları daxil olmaqla trans-Avrasiya dəhlizləri arasında gələcək sinerjiyə böyük əhəmiyyət veririk".

Kasım-Jomart Tokayevin sözlərinə görə, nəqliyyat sahəsində əlaqələrin gücləndirilməsi ŞƏT-in prioritet sahələrindən biridir. Bu platforma çərçivəsində əməkdaşlığın üçüncü sahəsi səmərəli dəhlizlər və etibarlı təchizat zəncirləri yaratmaqla nəqliyyat əlaqələrinin gücləndirilməsidir.

Yeri gəlmişkən, Dünya Bankının (DB) hesabatında bu maliyyə qurumu Orta Dəhlizin səmərəliliyini artırmaq üçün Azərbaycan, Qazaxıstan və Gürcüstana bütün nəqliyyat şəbəkəsi üzrə yüklərin izlənilməsi imkanının təminini tövsiyə edib. Hesabatda bunun üçün həm dəmir yolu, həm də Xəzər dənizi ilə daşımaları reallaşdıran vahid elektron sənəd dövriyyəsinə keçidin təmin edilməsi zəruriliyi diqqətə çatdırılıb. Eyni zamanda, logistik qovşaqların yaradılması hesabına yüklərin konsolidasiyası, dəmir yolu nəqliyyatına keçidə yardım göstərmək və Şərqlə Qərb arasında yük axınlarının balansını yaxşılaşdırmağın əhəmiyyəti vurğulanıb. Bundan başqa, yekun nəqliyyat tariflərinin şəffaflığı və bu məsələdə proqnozlaşdırmaya üstünlük verilməsi də önə çəkilib.

DB Azərbaycan və Qazaxıstana dəniz limanında yüklərin daşınma müddətini azaltmağı, Bakı-Aktau və əks istiqamətdə marşrutlar üzrə konteynerlərin həcmlərini artırmağı, konteynerlər üçün yük və liman tariflərini aşağı salmağı da tövsiyə edir. Adıçəkilən hesabata əsasən, Azərbaycan yüklərin gəmilərdən sahilə daşınmasının səmərəliliyini artırmalı, Qazaxıstan isə limanların bağlanması parametrlərini nəzərdən keçirməli və bütün bazar iştirakçıları üçün ayrı-seçkilik olmadan liman xidmətlərinə çıxışı gerçəkləşdirməlidir. Beynəlxalq maliyyə qurumu, həmçinin Gürcüstanın liman-dəmir yolu və avtomobil daşımalarının səmərəliliyinin artırılacağı, naviqasiya kanalının vəziyyətinin yaxşılaşdırılacağı və konteynerlər üçün liman tariflərinin azaldılacağı təqdirdə Orta Dəhlizin səmərəliliyinin yüksələcəyi əminliyini də vurğulayır.

***Vaqif BAYRAMOV***
***XQ***

## Ekspert rəyi



**Məhəmməd ƏLİYEV,**
**Azərbaycan Dövlət İqtisad Universiteti biznes və logistika kafedrasının müdiri, dosent**

Orta Dəhliz Çin–Qazaxıstan sərhədindən başlayır və Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Gürcüstan ərazisindən keçərək Avropaya qədər uzanır. Bütün marşrut boyunca vahid tarif yaradılıb, "vahid pəncərə" prinsipinin tətbiqinə başlanılıb.

Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Özbəkistanın informasiya sistemlərinin inteqrasiyasını nəzərdə tutan sadələşdirilmiş gömrük dəhlizinin yaradılması haqqında sazişin ratifikasiyası isə bu ilin may ayında başa çatdırılıb. Bu sazişlə Orta Dəhliz boyunca xarici ticarət fəaliyyətinin sadələşdirilməsi nəzərdə tutulub.

Sadələşdirilmiş gömrük dəhlizinin aşağıdakı üstünlükləri var: ticarət operatorlarına buraxılış məntəqələrində prioritet xidmət göstəriləcək və bu, gözləmə vaxtlarını azaldacaq; gömrük rəsmiləşdirilməsi prosedurları ayrı-ayrı hərəkət zolaqlarından istifadə edilməklə optimallaşdırılacaq və bu, rəsmiləşdirmə müddətlərini daha da azaldacaq; gömrük yoxlanılması yalnız gömrük qanunvericiliyinin pozulması riskinin müəyyənləşdirildiyi hallarda aparılacaq və bu, dayanma müddətini və xərcləri azaltmağa imkan verəcək.

Sadələşdirilmiş gömrük dəhlizi haqqında saziş konkret sənaye sahələrini və gömrük rəsmiləşdirilməsi üçün malların seçimini məhdudlaşdırmır. Bu, o deməkdir ki, ticarət operatorları bütün növ mallar üçün sadələşdirilmiş prosedurlardan istifadə edə bilərlər.

Azərbaycan hazırda Orta Dəhliz layihəsinin inkişafına institusional dəstək göstərməyi də diqqətdə saxlayır. Çünki Prezident İlham Əliyevin vurğuladığı kimi, bu sahədə fiziki infrastruktur yetərli deyil. Azərbaycan, Qazaxıstan və Gürcüstan arasında birgə müəssisənin yaradılması da məhz bununla bağlıdır.

Hazırda Azərbaycan nəqliyyat marşrutunun rəqəmsallaşdırılması üzərində fəal işləyir. Artıq Dövlət Gömrük Komitəsində yüklərin emalının daha az vaxt aparması, yüklər üzərində tam şəffaflıq və nəzarətin yaradılması məqsədilə süni intellekt sistemi tətbiq edilir.

Onu da xatırladaq ki, 2023-cü ildə Orta Dəhliz çərçivəsində yükdaşımaların həcmi, təqribən, 90 faiz artaraq 2 milyon tonu keçib. Yeri gəlmişkən, 2022-ci ildə marşrut üzrə yükdaşımaların həcmi 2,5 dəfə artaraq 1,5 milyon tona çatıb. Mövcud marşrutlara ciddi alternativ kimi dəyərləndirilən dəhlizin ümumi ötürücülük qabiliyyəti isə il ərzində 5,8 milyon ton yükə hesablanıb.

Qazaxıstanın strateji hədəfi isə 2030-cu ilə qədər Orta Dəhlizin ötürücülük qabiliyyətini 10 milyon tona çatdırmaqdır. Bunu reallaşdırmaq üçün adıçəkilən ölkə 2027-ci ilə qədər "dar keçidləri" aradan qaldırmaq və Orta Dəhlizi inkişaf etdirmək üçün Azərbaycan, Gürcüstan və Türkiyə ilə "yol xəritələri" imzalayıb.

# Çin Şanxay Əməkdaşlıq Təşkilatında ölkəmizin aparıcı tərəfdaşıdır

**Xəbər verildiyi kimi, iyulun 4-də Qazaxıstanın paytaxtı Astana şəhərində Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) Zirvə toplantısı keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ŞƏT-in sədri statusu daşıyan Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin dəvəti ilə tədbirdə iştirak edib. Bu, Prezident İlham Əliyevin Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə toplantısında ikinci iştirakıdır. Xatırladaq ki, bundan əvvəl Şanxay Əməkdaşlıq Təşkilatının sədri statusunda Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin dəvəti ilə dövlətimizin başçısı təşkilatın 2022-ci il sentyabrın 16-da Səmərqənd şəhərində keçirilmiş Zirvə toplantısında iştirak edib.**

Yeri gəlmişkən, Azərbaycanın belə mötəbər təşkilatın sammitinə ikinci dəfə dəvət olunması isə, heç şübhəsiz, ölkəmizin, xüsusilə Prezident İlham Əliyevin dünya miqyasında nüfuzunun və dövlətimizin başçısına göstərilən yüksək ehtiramın ifadəsidir. Ümumilikdə, Qazaxıstan paytaxtının "Müstəqillik" Sarayında keçirilən "ŞƏT plyus" formatlı görüşə 16 ölkənin dövlət və hökumət başçıları qatılıblar.

Şanxay Əməkdaşlıq Təşkilatının sədri, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev "ŞƏT plyus" formatında görüşdə iştirak edən dövlət və hökumət başçılarını salamlayaraq Azərbaycanın ŞƏT-ə üzv ölkələrlə yüksək səviyyəli əlaqələrinə toxunub. Cari ilin noyabrında Bakıda keçiriləcək COP29-un əhəmiyyətini vurğulayan Qazaxıstan Prezidenti konfransda iqlim gündəliyi ilə bağlı ümumi həmrəyliyin nümayiş etdiriləcəyini əminliyini bildirib, dövlətimizin başçısına qlobal tədbirin keçirilməsində uğurlar arzulayıb.

Zirvə görüşü çərçivəsində keçirilən "ŞƏT plyus" toplantısında çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə görüşünə dəvətə görə Qazaxıstanın dövlət başçısına təşəkkürünü bildirib. Azərbaycanla Qazaxıstan arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğunu vurğulayan Prezident İlham Əliyev ölkəmizin ŞƏT-in Zirvə toplantısına ikinci dəfə dəvət aldığını xatırladıb. Dövlətimizin başçısı bu amili Azərbaycan ilə üzv dövlətlər arasında inkişaf edən tərəfdaşlığın göstəricisi kimi dəyərləndirib. Prezident İlham Əliyev, həmçinin Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizləri üzrə qarşılıqlı fəaliyyətin Azərbaycan ilə ŞƏT-ə üzv dövlətlər arasında əməkdaşlığın inkişafına təkan verdiyini vurğulayıb.



Təxminən 200 ölkənin yekdil dəstəyi ilə Azərbaycanın bu il COP29-a ev sahibliyi edəcəyini xatırladan Prezident İlham Əliyev respublikamızın bu mötəbər iqlim toplantısı çərçivəsində inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında körpü yaratmaq üçün səylərini əsirgəməyəcəyini, eləcə də inkişaf etməkdə olan ölkələrin legitim maraqlarını nəzərə alacaq razılaşmanın əldə edilməsinə çalışacağını bildirib. Qeyd olunub ki, Azərbaycanın prioritetləri sırasında, həm də iqlim dəyişikliyinin mənfi təsiri səbəbindən ekzistensial təhlükə ilə üzləşən inkişaf etməkdə olan kiçik ada dövlətlərinə dəstək yer alır. Bu baxımdan Azərbaycan inkişaf etməkdə olan kiçik ada dövlətləri üçün xüsusi texniki yardım fondunun yaradılması təşəbbüsü ilə çıxış edib.

"Biz dünyada ən böyük beynəlxalq tədbir olan COP29-un keçirilməsinə hazırlıq istiqamətində ŞƏT ilə işi davam etdirəcəyik. Mən artıq ŞƏT-ə üzv dövlətlərin liderlərinə rəsmi dəvət məktubları ünvanlamışam və həmkarlarımı noyabrda Bakıda görəcəyimə ümid edirəm", – deyə Prezident İlham Əliyev əlavə edib.

Xatırladaq ki, həm ərazisinə, həm də əhalisinə görə dünyanın ən böyük ölkələrindən bir neçəsinin üzv olduğu Şanxay Əməkdaşlıq Təşkilatı 2001-ci ildə Qazaxıstan, Çin, Qırğızıstan, Rusiya, Özbəkistan və Tacikistan tərəfindən Şanxayda təsis olunub. Hazırda qurumun 9 üzvü (Qazaxıstan, Çin, Rusiya, Qırğızıstan, Özbəkistan, Tacikistan, Pakistan, Hindistan, İran), 3 müşahidəçi üzvü (Əfqanıstan, Monqolustan, Belarus) və 14 dialoq tərəfdaşı (Azərbaycan, Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri, Bəhreyn, Ermənistan, Misir, Kamboca, Qətər, Küveyt, Maldiv, Myanma, Nepal, Səudiyyə Ərəbistanı, Şri-Lanka) var. 2022-ci ilin sentyabrında isə Səmərqənddə keçirilən Zirvə görüşündə Belarusun bu təşkilat çərçivəsində statusunun üzv dövlət səviyyəsinə yüksəldilməsi prosesi başlanıb. Astana Sammitində Belarusun da Şanxay Əməkdaşlıq Təşkilatına qoşulması barədə qərar qəbul edilib.

Azərbaycan hazırda ŞƏT-də dialoq tərəfdaşı statusuna sahibdir. 2016-cı ildə ölkəmiz ilə ŞƏT arasında əməkdaşlıq sahələrini əks etdirən memorandum imzalanıb. ŞƏT ilə əməkdaşlıq istiqamətləri arasında təşkilatın ənənəvi prioritet sahələri olan və ölkəmiz üçün xüsusi əhəmiyyət kəsb edən terrorizm, ekstremizm və separatizm ilə mübarizə, regional təhlükəsizliyin və sabitliyin təminatı müəyyənləşdirilib. Həmçinin ölkəmizin beynəlxalq müstəvidə mühüm rol oynadığı sivilizasiyalararası dialoq, multikulturalizm və tolerantlığın təşviqi sahələri də diqqət mərkəzində olan məsələlərdəndir.

Yeri gəlmişkən, Şanxay Əməkdaşlıq Təşkilatının 9 əsas üzvündən ikisi ölkəmizin əsas ticari tərəfdaşlarıdır. Bunlardan da biri Çin Xalq Respublikasıdır. Astana Zirvə toplantısı isə ölkəmizin Şanxay Əməkdaşlıq Təşkilatında dialoq tərəfdaşı olduğu Çin Xalq Respublikası ilə iqtisadi əməkdaşlığında yeni səhifə açıb. Məlum olduğu kimi, Qazaxıstan paytaxtında keçirilən ŞƏT-in növbəti zirvə toplantısı çərçivəsində "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə" imzalanıb. Sənəddə Azərbaycan Respublikası və Çin Xalq Respublikasının diplomatik münasibətlərin qurulduğu 2 aprel 1992-ci ildən etibarən iki ölkə arasında ikitərəfli əməkdaşlığın müxtəlif sahələrdə səmərəli nəticələr verdiyi yekdilliklə vurğulanır.

Bütövlükdə isə, ölkəmizin dörd ən böyük ticarət tərəfdaşından biri olan Çinlə iqtisadi əlaqələrimiz yüksələn xətlə inkişaf edir. 2023-cü ildə Azərbaycanla Çin arasında 3,1 milyard dollarlıq idxal-ixrac əməliyyatları həyata keçirilib. Bu ilin əvvəlindən isə bu sahədə yüksək artım müşahidə olunur. Müqayisə üçün qeyd edək ki, 2023-cü ilin on ayı ərzində iki ölkə arasında ticarət dövriyyəsi 2,6 milyard dollara yaxın idisə, cari ilin birinci rübündə açıqlanan statistikaya əsasən, bu məbləğ 3 milyarda dolları ötüb.

İqtisadçı ekspert Eldəniz Əmirov Çinin Azərbaycanın idxal ölkəsinə çevrilməkdə olduğu qənaətindədir. Onun sözlərinə görə, ölkəmizin mövcud nəqliyyat-kommunikasiya və enerji dəhlizləri bu dövriyyənin artırılmasına imkan verir. Eyni zamanda, ikitərəfli iqtisadi münasibətlər, strateji razılaşmalar bu istiqamətdə fəaliyyəti dəstəkləyərək daha da artırır. Ekspert hesab edir ki, Şanxay Əməkdaşlıq Təşkilatında ölkəmizin mövqeyinin güclənməsi Azərbaycan–Çin münasibətlərini daha da möhkəmləndirəcək.

Bu baxımdan Birgə Bəyannamə iki ölkə arasında bütün sahələrdə olduğu kimi, iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsini də özündə ehtiva edir. Bəyannaməyə əsasən, tərəflər ikitərəfli ticarətin həcmini daha da artırmağa, əmtəələrin strukturunu optimallaşdırmağa və malların bazarlara çıxışını asanlaşdırmağa hazır olduqlarını bildiriblər. Xüsusi olaraq vurğulanıb ki, tərəflər iki ölkə arasında ticarət-iqtisadi əlaqələrin davamlı və dinamik inkişafını yüksək qiymətləndirir və ticarət, sərmayə və mühəndislik layihələri sahəsində qarşılıqlı fəaliyyəti daha da gücləndirmək üçün Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyası mexanizminin rolunu artırmağa davam etməyə, o cümlədən Azərbaycan–Çin ticarət-iqtisadi əməkdaşlığının yüksək səviyyədə inkişafına nail olmaq məqsədilə nəqliyyat və kommunikasiyalar, "yaşıl enerji", emal və istehsal, infrastruktur, rəqəmsal iqtisadiyyat, kənd təsərrüfatı və s. sahələrdə layihələrin həyata keçirilməsinin təşviqinə diqqət yetirməyə hazırdırlar.

Bir məqamı da qeyd edək ki, son zamanlar Çin şirkətlərinin Azərbaycana olan marağında artım tendensiyası müşahidə edilir. Təkcə onu qeyd etmək kifayətdir ki, ötən müddətdə ölkəmizdə 300-dən çox Çin şirkəti qeydiyyata alınıb. Həmin şirkətlər sənaye, kənd təsərrüfatı, tikinti, ticarət, nəqliyyat və xidmət sahələrində aktiv fəaliyyət göstərirlər. Ümumilikdə isə, indiyədək Çindən Azərbaycana 930,8 milyon dollar, Azərbaycandan isə Çinə 263,3 milyon dollar həcmində investisiya qoyulub.

Azərbaycan və Çinin güclü iqtisadi tamamlayıcılıq, sənayeləşmə və investisiya sahəsində əməkdaşlığı artırmaq üçün böyük potensiala malik olduğu vurğulanan Birgə Bəyannamə bu baxımdan da müstəsna əhəmiyyət daşıyır. Sənəddə bildirilir ki, tərəflər Azərbaycan və Çin arasında sənayeləşmə və investisiya üzrə əməkdaşlıq mexanizmindən tam istifadə edəcək, baxış, planlaşdırma və siyasət sahəsində əlaqələri artıracaq, Azərbaycan və Çin şirkətlərinin fəaliyyətini dəstəkləyəcək, enerji, o cümlədən neft və qaz hasilatı və emalı, "yaşıl enerji" və nəqliyyat infrastrukturu, informasiya və telekommunikasiya, rəqəmsal iqtisadiyyat, əlvan metallar, tikinti materialları və s. kimi prioritet sahələrdə əməkdaşlığı fəal şəkildə təşviq edəcək, bazar iqtisadiyyatı prinsipi əsasında iki ölkə arasında əməkdaşlığı reallaşdıracaq və hər iki ölkə və onların xalqları üçün faydalı nəticələr əldə edəcəklər.

Ümumilikdə, tərəflər arasında strateji tərəfdaşlığın qarşılıqlı hörmət, bərabərlik, etimad və qarşılıqlı dəstəyə əsaslandığını özündə ehtiva edən Birgə Bəyannamə xarici amillərdən asılı olmayaraq iki ölkənin bir-birini etibarlı tərəfdaşa çevirməyi nəzərdə tutur.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Zəngəzur: qədim tarixdən soraq verən zəngin irs

## Batabat yaylağında qurulmuş “Zəngəzur” çadırı nələr söylədi?






**Bu ilin 21 – 23 iyununda Naxçıvanda Azərbaycan Respublikası Prezidenti Səlahiyyətli Nümayəndiliyinin, Naxçıvan Dövlət Universitetinin, Təhsil Nazirliyinin və Qərbi Azərbaycan İcmasının birgə təşkilatçılığı ilə keçirilən II “Qərbi Azərbaycana qayıdış” festival-konqresi də bu qədim türk yurdu ilə bağlı tarixi həqiqəti – siyasi və mədəni ismarıcları 11 tarixi mahalın zəngin milli-mənəvi irsi və bu gün də yaşadılan adət-ənənələri timsalında çatdırdı. Bu irimiqyaslı elmi-kütləvi aksiyanın əks-sədası geniş və təsirli olduğu kimi, önəmi də davamlıdır.**

Qərbi Azərbaycanın beşaddımlığında yerləşən cənnətmisal Batabat yaylağından festival formatında start götürən bu möhtəşəm təntənə 37 ildən bəri elimiz yetməyən 11 mahalımızın şərəfinə qurulmuş rəmzi çadırlarda və onların ətrafında canlandırılan etno-mədəni irsin təqdimatı ədalətsiz bir deportasiyanı bütün həqiqətləri ilə dünyaya yenidən nişan verdi. Aksiya bir daha göstərdi ki, zaman-zaman əzəli torpaqlarından qovulmuş və kütləvi soyqırımlarına məruz qalmış bir diyarın indiki nəsilləri öz yurdlarına qayıtmaq üçün səfərbər vəziyyətdədir. Nəhayət, dünya bu gerçəyi görməli, zəruri qayıdışın ləyaqətlə gerçəkləşməsini dəstəkləməlidir.



Bu il ikinci dəfə keçirilən festival-konqresin təqdimat strukturunda mədəni dəyərlərin tam şəkildə yerləşdirilərək təqdimatı, sözün əslində, elə tam Azərbaycan xalqının milli dəyərlərindən qaynaqlanan haqq səsinin ifadəsinə xidmət edirdi. Niyə məhz milli dəyərlər? Ona görə ki, milli adət-ənənəsi, dəyərləri olan xalq qədimdir, köklüdür, onun tarixi uludur! Bu baxımdan milli dəyərlərin müstəsna bir sevgi ilə, bir o qədər də diqqətli, qədim etnik köklər üstündə boy



göstərən təqdimatları xalq diplomatiyasının müstəqil dövlətimizin Qərbi Azərbaycanla bağlı siyasətinə çox vacib və önəmli dəstək qazandırdı. Konqres-festivalın təşkili hazırlıqlar dönəmindən başlayaraq son günə qədər böyük əks-səda yaradılmasını nəzərdə tutmuşdu və belə də oldu.

Konqres-festivalın təşkilində və təqdimatında muxtar respublikanın müvafiq idarə və təşkilatları ilə yanaşı, ölkənin digər bölgələrinin iştirakı, köməyi onun ikiqat uğurlu keçməsini təmin etdi.




Belə ki, hər bir rayona, eləcə də müvafiq idarə və təşkilata Qərbi Azərbaycanın bir tarixi mahalının adını daşıyan 11 ehtişamlı çadırın qurulması həvalə olunmuşdu. Hər bir çadırın da bəzənməsi, uyğun şəkildə təqdim edilməsi özəllikləri ilə diqqətçəkən olmalı və zəngin təəssürat yaratmalı idi.

“Zəngəzur” çadırının hamisi Ordubad rayonu idi. Zəngəzur mahalının milli-mənəvi aləmini təcəssüm etdirən bu rəmzi çadırın ərsəyə gəlməsinə əvvəldən məsuliyyət və həvəslə yanaşan Ordubad Rayon İcra Hakimiyyətinin diqqət, qayğısı ilə ərazidən müvafiq şəxslər hazırlıq işlərinə cəlb edildi. Azərbaycanlılardan ibarət bir komanda isə Batabat yaylağında çadırın təşkilində çox fəal iştirak etdi. Xatırladaq ki, konqres-festivalın ən önəmli yönlərindən biri də bu ərəfədə əslən Zəngəzur və Dərələyəzdən olan gənclərin toy mərasiminin təşkili oldu.

“Zəngəzur” çadırı oğlan evi, “Dərələyəz” çadırı isə qız evi timsalında həmin mahalların toy mərasimlərini canlandırırdı. Çadırların içərisi də məhz Qərbi azərbaycanlıların doğma el-obalarından qovulduqları vaxt özləri ilə gətirdikləri əşyalarla bəzdilmişdi. Bu da öz növbəsində seyrçilərin həm Vətənlə bağlı sevgi-həsrət duyğularına qanad taxır, həm də Qərbi Azərbaycanın qədim və zəngin bir türk mədəniyyəti məkanı olduğunu bir daha sübut edirdi. Əşyaların babalarımızın yaşam tərzindən – istər məişət, istərsə də təsərrüfat həyatından xəbər verən dəyərlər kəsb etməsi də dərhal diqqət çəkirdi.

Çadırda və onun ətrafındakı etnoqrafik təqdimatda Azərbaycan türklərinin qədim fəlsəfi dünyagörüşünü ifadə edən deyim və atalar sözlərinin yaranmasına səbəb olmuş mədəni dəyərlər, tarixi kolorit olduqca təsirli idi: “Örkən nə qədər uzun olsa, gəlib doğanaqdan keçər” - əşyalar içərisində doğanaq və örkən diqqəti cəlb edirdi. Eləcə də deportasiya zamanı Ordubad rayonuna gələn soydaşlarımız, əsasən qadınlar öz körpələrini daşımaq üçün belə, çiyinə salınan səbətlərdən istifadə ediblər. Yerli əhalidən gəlmələri fərqləndirmək üçün onlara zarafatla “arxa səbətdə gələnlər” deyilib. Qeyd edək ki, bu ifadə müəyyən qədər gülüş, əzizləmə xarakteri daşıması ilə yanaşı, həm də məlum deportasiyanın baş verdiyi tarixi və bu dövrdə insanların keçdiyin iztirablı yolları da özündə mühafizə edir.

Bundan başqa, etnoqrafik əşyaların içərisində bir maraq doğuranı da toxum saxlamaq üçün balqabaqdan hazırlanmış qabdır. Balqabağın içi oyularaq qurudulur, onda uzun illər müxtəlif toxumlar saxlanırdı. Ümumiyyətlə, belə əşya və vasitələr Qərbi azərbaycanlıların öz yurdları ilə bağlı yaddaşın qorunmasında mədəni saxlanc rolu oynayır. Bu maddi və mənəvi dəyərlər onların yurda qayıdış yollarına işıq saçır, zəngəzurluları doğma ocaqlara səsləyir.

Elə bu baxımdan da çadırın içərisində toplaşmış zəngəzurlu qadınlar öz mədəni-mənəvi dəyər faktları olan bayatı və haxıştaları olduqca kövrək və nisgilli bir ahənglə ifa edirdilər. Hər bir belə örnəyin özündə də Ordubad rayonu və Zəngəzur mahalı, ümumilikdə, Qərbi Azərbaycan mədəni dəyərlərinin oxşarlıq və fərqləri öz ifadəsini tapırdı. Vətən həsrəti ilə çalib-çağıran zəngəzurlular böyük bir ümidə də köklənmişdilər:

**I iştirakçı:**

***Arazı keçən də var,***
***Suyunu içən də var.***
***Tutmuyun Vətən adın,***
***Ürəyi keçən də var.***

**II iştirakçı:**

***Zəngəzurun yastı yolu,***
***Su gəldi, basdı yolu.***
***İstəyirəm duram gələm,***
***Gavırrar kəsdi yolu.***

**III iştirakçı:**

***Bu dağ o dağa baxar,***
***Altından bulax axar.***
***Heyif qaçqın gözdərim***
***Beyvəfa Vətənə baxar.***

“Qərbi Azərbaycana qayıdış” festival-konqresin ən ümdə və diqqətçəkən məqamlarından olan toy mərasimini haxışta folklor örnəklərinin ifası daha da sevilən etmişdi. Bu örnəklər, onu yaradan xalqın mədəni və mənəvi, eləcə də köklü dünyagörüşünü ifadə edən dəyərli faktlardır. Digər mahalların çadırlarında haxışta ifası müşahidə olunsa da, Zəngəzur çadırının xanımları bu örnəklərin təqdimatı ilə hamını heyran qoydular:

**I dəstə:**

***Dəyirmanın mavınnan, hakuşqa,***
***Su gəlir sərnağınnan, hakuşqa.***
***Mənim balaca yarım, hakuşqa,***
***Gəlir kəklik avınnan, hakuşqa.***

**II dəstə:**

***Qara toyuq qaz kimin, hakuşqa,***
***Qanaddarı saz kimin, hakuşqa.***
***Gah yeriyir, gah durur, hakuşqa,***
***Nişannı qızdar kimin, hakuşqa.***

**I dəstə:**

***Su ilanı oleydim, hakuşqa,***
***Bankalara dolaydım, hakuşqa.***
***Orda duran oğlanın, hakuşqa,***
***Nişannısı olaydım, hakuşqa.***





**II dəstə:**

***Ordubadın qızları, hakuşqa.***
***İşvələri, nazları, hakuşqa.***
***Özləri şirin olur, hakuşqa.***
***Yamandı baldızları, hakuşqa.***

Beləcə davam edir...

Naxçıvan Muxtar Respublikası Ordubad rayonu da məlum tarixi dönəmlərdə deportasiyalara məruz qalmış Qərbi azərbaycanlılara qucaq geniş və isti açan məkanlardandır. Bu bölgə həm də coğrafi nöqteyi-nəzərdən Qərbi Azərbaycana yaxın olduğundan adət-ənənə, düşüncə, yaşam tərzi baxımından da olduqca doğmadır. Hazırda rayonun bir çox kəndlərində Qərbi azərbaycanlılar yaşayırlar.

Qərbi azərbaycanlıların yığcam yaşadıqları Parağa kəndinin qaçqın əhalisi festivalda fəallıq nümayiş etdirdilər. Günümüzdə də bu kəndin əhalisi tərəfindən müxtəlif mövsüm və məişət mərasimi zamanı icra edilən atüstü oyunlar qədim mədəniyyət tariximizin dəyərli örnəkləridir. Və “Çövkən” oyununu festival-konqres zamanı sevərək icra edən Parağa kəndində məskunlaşan Qərbi azərbaycanlılar bir daha sübut etdilər ki, qədim mədəniyyət daşıyıcısı olan xalqın yeri-yurdu, vətəni də qədim tarixə malikdir.

Oyunun maraqlı gedişatı hamının ruhunu oxşayır, gözəl əhvali-ruhiyyə, köklü vətənsevərlik duyğularının coşmasını tam şərtləndirirdi. Oyunun diqqətçəkən gedişatı var idi: Atlılar əllərində milli bayrağımız “Bayatı-Şiraz” sədası altında meydana daxil oldular. “Cəngi” havasının sədası altında iki dəstəyə ayrılaraq oyuna başladılar. Əllərində dəyənək topu bir-birlərinə ötürərək təyin olunmuş qapıya doğru vurdular. Qayda belədir ki, at hərəkətdə ola-ola dəyənəklə topu vurmaq olar. Əks halda gedişat pozulmuş sayılır. Oyunda qalib gələn komanda alqışlandı.

Yallı qruplarının təqdimatında Qərbi azərbaycanlıların bu gün də sevərək icra etdikləri “Üçayaq”, “İrəvani” yallıları mərasimə yüksək coşğu gətirdi. Eləcə də Qərbi azərbaycanlılardan ibarət iki aşıq Bəylər Məmmədov və Balay Xudaverdiyev Zəngəzur mövzulu havalarla onları dinləyənlərdə vətən həsrətini daha da alovlandırdı, bununla yanaşı, Qərbi Azərbaycana qayıtmaq yolundakı mübarizə ruhlu havalarla insanlarda ruh yüksəkliyini artırdı.



Ümumiyyətlə, bu təqdimatlar insanların vətən nisgilini bir daha ovudur, yaxın gələcəyin qayıdışına ümidləri gücləndirirdi. Qərbi Azərbaycan torpaqları bu insanların tarixi dədə-baba torpaqlarıdır. Və bu torpaqlara geri dönərək orada etnik-mədəni düşüncədən formalaşan yaşam tərzləri ilə ömür sürmək onların ana südü qədər olan haqlarıdır.

“Qərbi Azərbaycana Qayıdış” festival-konqresin əhəmiyyətli yönlərindən biri də dərin və etnik mədəniyyətə malik olan xalqın haqq səsini dünyaya çatdırmaq, bu və aparılan siyasətə dəstək olaraq qaçqın soydaşlarımızın öz əzəli torpaqlarına geri dönəcəyi tarixi günləri yaxınlaşdırmaqdır. Bu festival-konqres bir daha bəyan etdi ki, Qarabağ torpaqlarımız 30 il düşmən işğalında olanda hamımız Qarabağlı idik, bu gün isə soydaşlarımız Qərbi Azərbaycana dönənədək hər birimiz Qərbi Azərbaycanlıyıq!

***Aytən CƏFƏROVA,***
***AMEA Naxçıvan Bölməsinin dosenti, Qərbi Azərbaycan İcmasının Ordubad nümayəndəsi***

DİLİMİZ – DİRİLİYİMİZ

# AMEA-da “ana dili dərsi”



**Azərbaycan dili müstəqillik illərində daha da zənginləşir, dünya dilləri sırasında öz yerini qoruyur. Eyni zamanda, təəssüf ki, dilimizə yad təsirlər də olur və bunun qarşısını almaq üçün zəruri tədbirlərin görülməsi vacibdir. Bu istiqamətdə geniş müzakirələr aparılması məqsədilə AMEA-nın Mərkəzi Elmi Kitabxanasında Azərbaycan Milli Elmlər Akademiyasının və Mədəniyyət Nazirliyinin birgə təşkilatçılığı ilə dəyirmi masa keçirilib.**

“Azərbaycan dilindən istifadə: uğurlar, problemlər və vəzifələr” adlanan dəyirmi masanı akademik İsa Həbibbəyli açaraq, müzakirələrin Azərbaycan yazıçılarının dilimizlə bağlı çağırışları əsasında, dilin saflığı uğrunda mübarizəyə dəstək verilməsi məqsədilə baş tutduğunu bildirib. O, Prezident İlham Əliyevin AMEA-nın 70 illik yubileyində proqram xarakterli və dərin məzmunlu çıxışı zamanı Azərbaycan dili haqqında çox qiymətli fikirləri söylədiyini xatırladaraq deyib ki, ölkə başçısı dilimizin saflığının qorunması ilə bağlı alimlərimiz, ziyalılarımız, ictimai xadimlərimiz qarşısında vəzifələr qoymuşdur. Bu vəzifələr dilimizin daxili imkanlar hesabına zənginləşməsinə elmin dəstəyini vermək və yad sözlərin dilimizə necə gəldi daxil olmasının qarşısını almaq yollarının müəyyənləşdirilməsindən ibarətdir.

Qeyd olunub ki, Azərbaycan dilinin tətbiqi, ədəbi dil normalarının qorunması, dilimizin saflığının təmin olunması və digər istiqamətlərdə AMEA-nın Dilçilik İnstitutunda mühüm tədqiqatlar aparılır, metodoloji və praktiki tədbirlər həyata keçirilir. Həmçinin Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi tərəfindən də ana dilimizin saflığının qorunması istiqamətində zəruri addımlar atılır, mediada, TV-lərdə jurnalistlərin, aparıcıların məqalələri, çıxışları, eləcə də musiqi xadimlərinin mahnı sözləri hərtərəfli monitorinq edilir və bunlar kitab halında işıq üzü görür.

VI çağırış Milli Məclisin Mədəniyyət komitəsinin sədri olmuş Fazil Mustafa dilin hamımızın ümumi məsələsi olduğunu, Seyran Səxavətin və digər yazıçılarımızın müraciəti nəzərə alınaraq, bu müzakirələrin keçirildiyini diqqətə çatdırıb.

“Ana dilimiz haqqında həyəcan təbili çalanlar haqlıdırlar. Bu gün Azərbaycan dövlətinin, xalqının, ziyalılarının dili var, lakin filosoflarının, yəni düşüncənin dili yoxdur. Ana dilini düşüncə dilinə çevirə bilən xalqlar fərqliliklər edə bilirlər. Dilin zənginləşməsi yazılı mətnlərdən asılıdır. Azərbaycan dilinin qapalıqlığı problemi var. Hüdudlarının genişlənməsinə, düşüncə dilinə çevrilməsinə ehtiyac var”, – deyə Fazil Mustafa qeyd edib. Bildirib ki, aparılan müzakirələrdə konkret nəticəyə gəlinə bilməsə belə, ortaq fikir əldə oluna bilər və bu da dilimizin düşüncə dilinə çevrilməsinə, onun zənginləşməsinə yardımçı olar.

Mədəniyyət nazirinin müavini Səadət Yusifova isə çıxışında qeyd edib ki, Ulu öndər Heydər Əliyev hər zaman ana dilimizə xüsusi qayğı ilə yanaşıb, onun saflığının qorunmasına çalışıb. Prezident İlham Əliyevin də Ümummilli liderin siyasətini uğurla davam etdirdiyini bildirən nazir müavini ölkə başçısının “Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Fərman imzaladığını xatırladıb.

Dövlətimizin dil siyasətinin milli-mənəvi dəyərlərimizin tərkib hissəsi kimi həyata keçirildiyini və mütəmadi qorunduğunu deyən S.Yusifova gənc nəslin vətənpərvər ruhda tərbiyəsində ana dilinin mühüm rol oynadığını söyləyib. Qeyd edib ki, qlobal çağırışlar fonunda ana dilimizin saflığının qorunmasına çalışmalı, dilə olan münasibətimizi dəyişməli və Azərbaycan dilində danışdığımız üçün fəxr etməliyik.

Dilimizin problemlərinə aid mövqeyini bildirən yazıçı-publisist Seyran Səxavət televiziya kanallarında apardığı müşahidələr əsasında üzə çıxardığı dil pozuntuları barədə geniş məruzə edib. Azərbaycan media məkanında dil səlisliyinin vacib məqamlarına toxunaraq cümlə qurmağın dövlət qurmaq qədər çətin olduğunu vurğulayan yazıçı dilin qorunması ilə bağlı təkliflərini də səsləndirib.

Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin direktoru, professor Sevinc Əliyeva dünyanın ən gözəl dillərindən olan Azərbaycan dilinə dair ölkə başçısının çıxışlarını, verdiyi sərəncam və fərmanları diqqətə çatdırıb. Qeyd olunub ki, Prezident, Ali Baş Komandan İlham Əliyev həm də Azərbaycan Respublikasının Dövlət Dil Komissiyasının sədri kimi həmin sərəncam və fərmanlarla, o cümlədən müxtəlif qurumlar qarşısında qoyduğu vəzifələrlə dilimizin keşiyində dayanıb. Məruzəçi problemlərin aşkarlanması istiqamətində qurumun apardığı monitorinqlər haqqında da məlumat verib və nəticələrin hesabat şəklində təqdim edildiyini deyib.

Dəyirmi masada ünlü söz adamları, Xalq şairi Sabir Rüstəmxanlı, akademik Nizami Cəfərov, akademik Rafael Hüseynov, təhsil eksperti Etibar Əliyev, Dilçilik İnstitutunun direktoru, professor Nadir Məmmədli, Nazirlər Kabineti yanında Terminologiya Komissiyasının sədr müavini, professor Sayalı Sadıqova, yazıçı Aqşin Yenisey, Əməkdar jurnalist Mübariz Əsgərov və digərləri cəmiyyətin ana dilindən düzgün istifadə vərdişlərinə yiyələnməsi üçün ölkəmizdə həyata keçirilmiş dil siyasəti və dövlət proqramları ilə məsələyə kifayət qədər həssas yanaşıldığını vurğulayıblar. Çıxışçılar müxtəlif platformalarda ədəbi dilin norma və prinsiplərinin pozulması hallarını da diqqətə çatdırıblar.

Müzakirələrdən sonra akademik İsa Həbibbəyli qonaqlara Mahmud Kaşğarinin “Divanü lüğat-it-türk” əsərinin nüsxələrini hədiyyə edib.

***Ə.DOSTƏLİ***
***XQ***

# “Yüksəliş” müsabiqəsində yarımfinal

**Dünən Bakı Ekspo Mərkəzində “Yüksəliş” müsabiqəsinin yarımfinal mərhələsinin açılış mərasimi keçirilib.**






Təşkilat Komitəsinin sədri, Prezident Administrasiyasının şöbə müdiri Fərəh Əliyeva, Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə, elm və təhsil naziri Emin Əmrullayev, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi İdarə Heyətinin sədri Zaur Əliyev, gənclər və idman nazirinin müavini, müsabiqənin işçi qrupunun rəhbəri Fərhad Hacıyev və qonaqlar iştirakçıları təbrik edərək onlara uğurlar arzulayıblar. Çıxışlarda yarışçıların dəyərli təcrübə qazandıracağı və gələcək karyeralarında əhəmiyyətli rol oynayacağı vurğulanıb.

“Yüksəliş”in dördüncü mövsümünün yarımfinal və final mərhələlərinin ümumi konsepti “Təbiəti yaşıllaşdır, dünyanı yaxşılaşdır” devizi ilə “Yaşıl dünya naminə həmrəylik ili”dir. Əyani mərhələni uğurla başa vuran 328 namizəd yarımfinalda iştirak edir.

Namizədlər ilk gün “Yaşıl aksiya”-da iştirak ediblər. Yarımfinal iştirakçıları “Nə? Harada? Nə zaman?” intellektual oyununda öz bilik və bacarıqlarını nümayiş etdiriblər.

Növbəti günlərdə keyslər üzrə mübarizə aparılacaq və 8 bacarıq (strateji düşüncə, effektivliyin idarə edilməsi, nəticəyönümlülük, komanda işi, kommunikasiya bacarıqları, dəyişikliklərin və innovasiyaların idarə edilməsi, sosial məsuliyyət, liderlik) ekspertlər tərəfindən qiymətləndiriləcək. Qiymətləndirmə beynəlxalq “Qiymətləndirmə konfransı” metodu ilə həyata keçirilir. Keyslər müasir dünya təcrübəsi əsasında və qabaqcıl formatda hazırlanıb və Azərbaycanın iqtisadiyyatı, sosial, insan resursları və yenidənqurma sahələrini əhatə edir.

Yarımfinal iyulun 7-də tamamlanacaq. Müsabiqənin finalı .31iyulun 19-21-də keçiriləcək.

***XQ***

# Göygöl rayonunda III Milli Yaylaq Festivalı



**Bu Yaylaq Festivalı hələ 5 il qabaq ilk dəfə Gədəbəydə keçiriləndə sorağı hər yerə yayılmışdı. O zaman dünyanın 20-yə yaxın ölkəsindən qonaq gəlmişdi və onlar dağlar qoynundan xoş təəssüratla ayrılmışdılar. İki il əvvəl Göygöl rayonunda təşkil olunan ikinci festival da yaddaşlarda qalmışdı...**

İndi budur, artıq ənənəyə çevrilən üçüncü festival yenidən son illər turizmin inkişafı ilə bağlı çox uğurlu tədbirlər həyata keçirən Göygöl rayonunda başlayıb.

Festival “Cavad xan” Tarix və Mədəniyyət Fondu ilə “Kap.az” – Fərqli Turizm MMC-nin təşkilatçılığı ilə keçirilir. Dövlət Turizm Agentliyi, Gənclər və İdman Nazirliyi, Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA), Dünya Etnoidman Konfederasiyası, Gəncə şəhər və Göygöl rayon icra hakimiyyətləri, Dövlət Məşğulluq Agentliyi və KOBİA-nın dəstəyi ilə baş tutan festival rayonun səfalı bir guşəsində, “Xan yaylağı” deyilən ərazidə təşkil olunub. Daha dəqiq desək, burada “Yaylaq yurdu” adlı etnoqəsəbə yaradılıb. Yaşayış alaçıqları ilə yanaşı, “Cıdır meydanı”, “Yaylaq bazarı”, “Sənətkarlıq guşəsi”, “Dədə Qorqud ocağı”, “Pəhləvan meydanı”, “Aşıq Ələsgər ocağı”, “Yaylaq süfrəsi” və digər tematik sahələr öz orijinallığı ilə seçilir. Etnoqəsəbənin ərazisində 3 gün ərzində genişmiqyaslı el şənlikləri olacaq.

Festivalda ölkəmizdən və xaricdən çoxsaylı qonaqlar iştirak edir. Tədbir şərti olaraq üç hissədən ibarətdir: mədəni-etnoqrafik, milli yaylaq



(idman) oyunları və eko-etnoturizm.

Etnoqəsəbənin ərazisində sonrakı iki gün ərzində davam edəcək genişmiqyaslı el şənliklərinə start verilib. Uğurlar diləyirik!

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri,***
***Göygöl***

# Coğrafiya alimlərimiz Almaniyada

**Elm və Təhsil Nazirliyi Coğrafiya İnstitutunun bir qrup əməkdaşı Almaniyanın Yustus Libix adına Gissen Universitetində keçirilən “Cənubi Qafqazda geoparkların idarə edilməsi” adlı beynəlxalq seminarda iştirak edib.**



Bir həftə davam edən seminar Gissen Universitetinin Coğrafiya kafedrası (Almaniya), İ.Cavaxişvili adına Tbilisi Dövlət Universitetinin V.Baqrationi adına Coğrafiya İnstitutu (Gürcüstan), akademik H.Əliyev adına Coğrafiya İnstitutunun birgə təşkilatçılığı və DAAD (Alman Akademik Mübadilə Xidməti) fondunun maliyyə dəstəyi ilə keçirilib. Elmi məclisdə ölkəmizi Coğrafiya İnstitutunun icraçı direktor, dosent Zaur İmrani, Landşaftşünaslıq və landşaft planlaşdırılması şöbəsinin aparıcı elmi işçisi dosent Elina Kərimova, Demoqrafiya və əhali coğrafiyası şöbəsinin elmi işçisi Bəyimxanım Hüseynova və doktorant Aslan Babaxanov təmsil ediblər.

Tədbirdə Cənubi Qafqazda geoparkların təşkili, planlaşdırılması və perspektivləri, onların fəaliyyətində yarana bilən problemlər və onların həlli yolları, geoparkların verilənlər bazasının yaradılması, sahə məlumatlarının toplanılmasında yarana bilən çətinliklər və məhdudiyyətlər müzakirə olunub, Cənubi Qafqazda potensial imkanları geniş olan ərazilərdə geoparkların yaradılması və inkişaf etdirilməsi məsələləri nəzərdən keçirilib.

Zaur İmrani “Azərbaycanın təbiət abidələri və geoparkların yaradılması üçün potensial ərazilər”, Bəyimxanım Hüseynova “Azərbaycanda geoparkların və geoturizmin perspektivləri: inkişaf və idarəetmə”, Aslan Babaxanov “Geoparkların inventarlaşdırması yolları: Təkmilləşdirilmiş Məlumat İdarəetməsi üçün SmartGIS-in inteqrasiyası” adlı məruzələrlə seminarda çıxış ediblər.

Tədbirə ev sahibliyi edən Gissen Universiteti iştirakçılar üçün UNESCO-nun bələdçiliyi ilə elmi ekskursiya təşkil edib. Tədbir iştirakçıları, eyni zamanda keramika muzeyi, geologiya muzeyi, tuf mədəniyyəti, vulkanik lava günbəzi, lava zirzəmisi, vulkanik göl və s. ilə yaxından tanış olmaq imkanı əldə ediblər.

***XQ***

# “Qarabağ gecəsi”nin işıqlı hədəfi

**Vətən müharibəsində qazanılan möhtəşəm Zəfərdən sonra doğma Qarabağda bərpa və yenidənqurma işləri sürətlə davam etdirilir. İşğaldan azad edilmiş ərazilərin dirçəlişinə töhfələr verilməsi, bu sahədə aktiv iştirakçılığın təmin edilməsi üçün bir sıra tədbirlər həyata keçirilir. Qarabağ Dirçəliş Fondunun təşkil etdiyi “Qarabağ gecəsi” adlı xeyriyyə konsertləri də bu qəbildəndir.**



Layihə haqqında məlumat verən fondun mətbuat katibi Babək Cahandarovun sözlərinə görə, xeyriyyə konserti sadəcə mədəniyyət tədbiri deyil, daha çox Qarabağda görülən işlərə dəstək olmaq məqsədi daşıyır:

– Qarabağ Dirçəliş Fondu olaraq bütün fəaliyyətimizi işğaldan azad edilmiş torpaqlarımızın dirçəlişi, daha da gözəlləşməsi üçün səfərbər etmişik. Fond bu istiqamətdə çoxsaylı işlər görür, müxtəlif layihələr icra edir. “Qarabağ gecəsi” xeyriyyə konserti də bu layihələrdən biridir. İlk konsert 2022-ci il iyunun 26-da Bakıda təşkil olunub. Tamaşaçıların böyük maraqla qarşıladığı konsertdən əldə olunan 171 min 257 manat vəsaitlə musiqi aləti – royal alınaraq ilin sonuna qədər Şuşa şəhərində yerləşən mədəniyyət müəssisələrinin birinə təhvil verilməsi nəzərdə tutulur.

İkinci konsert isə ötən il iyunun 17-də ölkəmizin ikinci böyük şəhəri olan Gəncədə təşkil olunub. Anşlaqla keçən konsertdən əldə edilən 140 min 220 manat vəsait Ağdam rayonu ərazisində yerləşən Pənahəli xanın imarət kompleksinin bərpasına yönəldilib.

Babək Cahandarov bildirdi ki, növbəti “Qarabağ gecəsi” xeyriyyə konsertinin iyulun 10-da yenidən Bakıda keçirilməsi nəzərdə tutulur. Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında təşkil ediləcək konsertdə Xalq artisti Ənvər Sadıqov, Əməkdar artist Emil Əfrasiyab və “Qaytağı” instrumental ansamblı iştirak edəcək.

– Sevindirici haldır ki, artıq üçüncü dəfə təşkil olunacaq konsertə maraq olduqca böyükdür. Bu da bizim doğma Qarabağın bərpası istiqamətində birlik və həmrəyliyimizin təzahürüdür. Bu konsertdən əldə ediləcək vəsait işğaldan azad olunmuş ərazilərdə mədəniyyət obyektlərinin yenidən qurulmasına yönəldiləcək. Fürsətdən istifadə edərək, konsertin təşkilində Qarabağ Dirçəliş Fonduna dəstək olan bütün tərəfdaşlarımıza və donorlarımıza, eləcə də bilet əldə edərək konsertdə iştirak edəcək hər kəsə dərin təşəkkürümüzü bildiririk.

***Ceyhun ALIŞLI***

# “İTi Zəka–2” uğurla başa çatıb

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və “Azərbaycan Uşaqlarının İnkişaf Platforması” İctimai Birliyinin birgə təşkil etdiyi 14–17 yaşlı uşaqlar arasında “İTi Zəka–2” hakatonunun – proqramçıların yarışının mükafatlandırma mərasimi keçirilib.**

AQUPDK-nin sədri Bahar Muradova müsabiqənin yekun hissəsinin həm də növbəti uğurların başlanğıcı olduğunu bildirib. Ötən tədbirlə müqayisədə indi yarışa qoşulanların və komanda sayının artdığını vurğulayan komitə sədri, iştirakçılar arasında qızların da olduğunu, onların informasiya texnologiyalarına artan marağını sevindirici hal kimi qeyd edib.

Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədr müavini Ceyhun Salmanov müraciət edən 530 uşaqdan 93 nəfərin finala çıxmasının böyük uğur olduğunu soyləyib. Elm və təhsil nazirinin müavini Firudin Qurbanov yeniyetmə və gənclərin özünü idarəetmə bacarığının inkişafı, yeni tanışlıqlar əldə etmək baxımından belə intellektual yarışmaların əhəmiyyətini qeyd edib.

Texnoloji innovasiyalar dövründə yaşadığımızı diqqətə çatdıran gənclər və idman nazirinin müavini İndira Hacıyeva




deyib ki, gələcəyimizi texnologiyasız, innovasiyalarsız təsəvvür etmək artıq qeyri-mümkündür.

Gənclər Fondunun icraçı direktor vəzifəsini icra edən Qədir Xəlilov bildirib ki, uşaqların potensialının üzə çıxarılmasında əhəmiyyətli olan hakaton, həm də gəncliyə verilən dəyərin nümunəsidir.

***Zərifə BƏŞİRQIZI***
***XQ***

GÜNÜN SÖHBƏTİ

# Təbiət Xəzərin harayına yetişir

**Bir il əvvəl Xəzərin şimal hissəsində, xüsusilə Qazaxıstan sahillərində dəniz yüz metrlərlə geri çəkilmişdi. Ölkəmizin ərazisində də dənizin Bakı və Abşeron sahillərində 15-20 metrdən çox geri çəkildiyi müşahidə edilib. Hətta Bakı buxtasında ada da əmələ gəlib.**



Artıq 2024-cü ildən vəziyyət dəyişməyə başlayıb. Xüsusilə sel və daşqınlar səbəbindən Xəzər geri qayıtmağa başlayıb. Bu, dənizin səviyyəsinin qalxmasının əlamətləridir. Bu barədə AMEA Coğrafiya İnstitutunun ekoloji coğrafiya şöbəsinin elmi işçisi Gülxar Rzayeva ilə söhbət etdik.

**– Xəzər dənizində suyun səviyyəsinin artıb-azalması hövzəyə daxil olan və oradan ayrılan su balansından asılıdır. 2023-cüilədək su balansının pozulmasına nə səbəb olmuşdur?**

– Bu ilk növbədə iqlim dəyişikliyi ilə bağlıdır: havanın temperaturunun artması, yağıntıların və çay axınlarının azalması. Hər 3 amil ötən ilədək Xəzər dənizinin səviyyəsinin aşağı düşməsində əsas rol oynayıb. Məsələn, havanın temperaturunun artması onun səthindən buxarlanmanı artırıb. Digər tərəfdən dənizin suyunun bir hissəsi Türkmənistan ərazisində yerləşən Qara-Boğaz-Göl körfəzinə axıdılır. Körfəzdə suyun buxarlanması daha çoxdur. 2023-cü ildə havanın quraq keçməsi suyun dəniz səthindən illik yağıntının miqdarından çox buxarlanmasına səbəb olub.

İkincisi, Xəzər dənizinə su axını da azalıb. Dənizə 130-a yaxın çay axır, onlardan ən böyüyü Volqa və Uraldır. Bu çaylar dənizə illik axının əsas hissəsini təmin edir. Volqa çayının illik axını 2021 və 2022-ci illərdə orta uzunmüddətli göstəricidən xeyli aşağı olub. 250 kubkilometrə qarşı müvafiq olaraq cəmi 216 və 215 kubkilometr təşkil edib. 2023-cü ildə bu göstərici daha aşağı idi. Deməli, təkcə Volqadan Xəzərə hər il 30-35 kubkilometr az su daxil olur. Bu böyüklükdə kəsiri doldurmaq ya real deyil, ya da onu doldurmaq üsulları çox səmərəsizdir. Bu, çoxlu mənfi nəticələr yaradır. Onlarca kubkilometr suyun müntəzəm olaraq dənizə daxil olmaması dənizin həcmini azaldır, yəni səviyyəsinin düşməsinə səbəb olur.

Eyni vəziyyət Ural çayında da müşahidə olunur. Bu çayın hövzəsində sulu illərin az olması səbəbindən su axını az olub. Başqa bir səbəb isə çayların üzərində tikilən su anbarlarıdır. Uralın yuxarı axarında 300-ə yaxın, Volqada isə 11 su anbarı var. Bu anbarlarda hər il suyun səviyyəsi aşağı düşür. Məsələn, 2021-ci ilin payızında Kuybışev su anbarında kritik dərəcədə aşağı su səviyyəsi müşahidə edilib. O, Baltik sisteminə görə 52-53 metrdən 49,92 metrə enib. Nəticədə su anbarlarından Xəzər dənizinə axıdılan suyun azalmasına səbəb olub.

**– Ölkəmizdə Xəzər dənizi hövzəsinə axan ən böyük çay Kürdür. Bundan başqa, dənizə irili-xırdalı onlarca çay axır. Bu çaylarda sululuq necə dəyişir?**

– Kürün bir çox qolları Türkiyə, Ermənistan və Gürcüstandan qidalanır və üzərlərində su anbarları tikilib (Kürün üstündə təkcə respublikamızda 5-6 nəhəng su anbarı inşa edilib, əkin sahələrinə çoxsayda kanallar çəkilib. Bu çay qolları ilə birlikdə həm də Azərbaycanda şirin suyun əsas təchizatçısıdır. Onlardan səmərəsiz istifadə isə Kürün aşağı axınında suyun azalmasına, dayazlaşmasına gətirib çıxarır. Aşağı axarlarda Kür çayının səviyyəsi o qədər aşağı düşür ki, çayda şirin su ehtiyatı tükənir və Xəzərdən çaya axan duzlu su bu ərazilərdə içməli su problemi yaradır. Ümumiyyətlə, bu məsələ 10 ildən çoxdur ki, aktuallaşıb. Təbii ki, Kür çayının qurumasında təbiətin də bilavasitə rolu danılmazdır. Ötən ilədək yağış suyu və qar azaldığından, ekoloji tarazlıq pozulub. Bu səbəblərdən bəzən Kür çayı Xəzər dənizinə çatmır.

**– 2024-cü ildən ölkəmizin ərazisində mürəkkəb sinoptik şərait müşahidə olunur. Dağlıq və dağətəyi rayonlarda qısamüddətli leysan xarakterli yağışlar yağır və tez-tez təkrarlanır. İntensiv yağışların çaylarda sululuğa təsiri barədə məlumat verərdiniz?**

– Son aylar ötən ildən fərqli olaraq Kür çayında suyun səviyyəsi qalxıb. Bu, havaların qeyri-sabit keçməsi, fasiləsiz yağan yağıntılarla bağlıdır. Bununla yanaşı, çayın axını da xeyli sürətlənib. Bir müddət əvvəl su azlığı zamanı əmələ gələn kiçik adalar yoxa çıxıb. Xüsusilə bu, çayın Salyan, Neftçala rayonu ərazisindən keçən hissəsində daha çox müşahidə olunur. Belə ki, bu günə kimi Kürdə suyun səviyyəsi 1–1,5 metr qalxıb. Su səviyyəsinin artımı Kür boyu quraşdırılmış su nasos stansiyalarının məhsuldar işləməsinə də şərait yaradıb. Bir müddət bundan öncə əkin sahələrinin suvarılmasında çətinliklər vardısa, artıq bu problem də həllini tapıb.

Yağıntılar isə davam edir. Deməli, yaxın günlərdə Kür çayında suyun səviyyəsi aşağı düşməyəcək və Xəzər dənizinə tökülən suyun həcmi də artacaq.

Bundan başqa, Azərbaycan ərazisindən Xəzər dənizinə tökülən çaylarda da sululuq artıb. Məsələn, 2024-cü ilin iyun ayında yağan intensiv leysan xarakterli yağışlar nəticəsində Böyük və Kiçik Qafqaz, Lənkəran-Astara bölgəsinin ərazisindən axan çaylardan qısamüddətli daşqın və sel keçib. İyun ayında 47 sel hadisəsi qeydə alınıb.

**– Bu il Rusiya və Qazaxıstan ərazisindən Xəzərə axan çaylarda da bol sululuq müşahidə olunur. Hidroloji dəyişikliklər Xəzər dənizində suyun səviyyəsinin artmasına təsir edibmi?**

– Eyni vəziyyət Rusiya və Qazaxıstanda da mövcuddur. Ural çayı boyunca aprel-may aylarında sel sularının güclü axını olub. Dənizə həm Ural çayının dolu yatağı, həm də əlavə olaraq tikilmiş kanallar vasitəsilə bol daşqın suyu daxil olub. Ural çayı vasitəsilə Xəzər dənizinə təxminən 7,4 milyard kubmetr su daxil olub. Daşqın suyunu dənizə yönəltmək üçün əlavə kanallardan istifadə edilib. Bu kanallar vasitəsilə Xəzərə 350 milyon kubmetr su daxil olub. Hidroloji dəyişikliklər Xəzər dənizində suyun səviyyəsinin nəzərəçarpacaq dərəcədə artmasına səbəb olub. Xəzər dənizinin şimal-şərq hissəsində (Atırau vilayəti, Qazaxıstan) suyun səviyyəsi isə 119 santimetr artıb. Qazaxıstanın Aktau şəhərində isə dəniz səviyyəsinin 10-15 santimetr qalxdığı bildirilir.





Xəzər dənizi hövzəsinin əsas çayı Volqada da suyun səviyyəsində artım müşayiət olunur. Hazırda Volqoqrad və Həştərxan vilayətlərində Volqada suyun səviyyəsi Voljskaya Su Elektrik Stansiyasından atılan sular səbəbindən yarım metr qalxıb. Rusiyanın Hidrometeorologiya Mərkəzinin məlumatına görə, ümumilikdə Aşağı Volqada suyun səviyyəsində 21-64 sm artım müşahidə olunur.

Bəzi skeptiklər artımın sadəcə güclü küləklərin yaratdığı müvəqqəti təsir olduğunu iddia etsə də, ekspertlər daha əhəmiyyətli tendensiya görürlər. Hələlik bu artım Xəzərin Azərbaycan sahillərində o qədər hiss olunmur, amma tezliklə vəziyyət yaxşılığa doğru dəyişəcək.

Beləliklə, Xəzər dənizinin səviyyəsinin yüksəlməsi region üçün çox önəmlidir. Dünyanın ən böyük qapalı daxili su hövzəsi kimi onun normal həyat fəaliyyətinin bərpa olunması ətrafdakı ekosistemlər və sahilyanı dövlətlərin iqtisadiyyatları üçün çox vacibdir. Bu yaxınlarda yağan yağışlar və çay axınlarının sonrakı artımı müsbət dönüş nöqtəsi ola bilər.

Bəli, ana təbiət göylərdən yerə yağışlar yağdırmaqla öz gözəl övladı – Xəzərin harayına yetişərək onu kiçilib məhv olmaqdan xilas edir!

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Türkiyə Suriya və İraqda yeni əməliyyatlara başlaya bilər

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Qazaxıstanın paytaxtı Astanadan qayıdarkən təyyarədə jurnalistlərə müsahibəsində deyib ki, Türkiyə Suriya və İraqda yeni əməliyyatlara başlaya bilər.**



O bildirib ki, bunu hadisələrin inkişafı müəyyənləşdirəcək: “Bunu barədə danışmaq hələ ki, səhv olar. Amma lazım olsa, bunu edəcəyik. Bu gün Suriyanın şimalında olduğu kimi, İraqın şimalında PKK-ya zərbələr endirilir”.

***XQ***



# “EXOL AZERBAIJAN” QSC-nin 2023-cü il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabatı

## Mənfəət və ya zərər və digər məcmu gəlirlər haqqında hesabat

manatla

| | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|
| Əsas əməliyyat gəliri | 6 187 400 | 7 230 620 |
| Satışın maya dəyəri | (3 693 081) | (4 399 175) |
| **Ümumi mənfəət** | **2 494 319** | **2 831 445** |
| Sair əməliyyat gəlirləri | 361 | 23 458 |
| İnzibati xərclər | (187 619) | (194 995) |
| Sair əməliyyat xərcləri | (218 499) | (222 083) |
| **Əməliyyat mənfəəti (zərəri)** | **2 088 562** | **2 437 825** |
| Maliyyə xərcləri | (11 212) | (4 622) |
| **Vergiqoymadan əvvəl mənfəət (zərər)** | **2 077 350** | **2 433 203** |
| **Hesabat dövrünün xalis mənfəəti (zərəri)** | **2 077 350** | **2 433 203** |

## Maliyyə vəziyyəti haqqında hesabat

| | | |
|---|---|---|
| **AKTİVLƏR** | | |
| **UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | |
| Torpaq, tikili və avadanlıqlar | 975 972 | 997 467 |
| Sair uzunmüddətli aktivlər | 1 489 | 179 536 |
| **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | **977 461** | **1 177 003** |
| **QISAMÜDDƏTLİ AKTİVLƏR** | | |
| Ehtiyatlar | 387 292 | 1 004 460 |
| Qısamüddətli debitor borcları | 306 328 | 133 694 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 476 319 | 121 255 |
| Sair qısamüddətli aktivlər | 781 | 605 |
| **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | **1 170 720** | **1 260 014** |
| **CƏMİ AKTİVLƏR** | **2 148 181** | **2 437 017** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | |
| **KAPİTAL** | | |
| Ödənilmiş nominal (nizamnamə) kapital | 2 000 | 2 000 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 728 422 | 516 943 |
| **CƏMİ KAPİTAL** | **730 422** | **518 943** |
| **UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| Uzunmüddətli kreditor borcları | - | 2 348 |
| Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | 248 343 | 281 126 |
| Sair uzunmüddətli öhdəliklər | 965 376 | 1 039 106 |
| | **1 213 719** | **1 322 579** |
| **QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 86 616 | 59 108 |
| Qısamüddətli kreditor borcları | 117 424 | 536 386 |
| | **204 040** | **595 494** |
| **Cəmi öhdəliklər** | **1 417 759** | **1 918 074** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **2 148 181** | **2 437 017** |

## Kapitalda dəyişikliklər haqqında hesabat

| | Ödənilmiş nizamnamə kapitalı | Kapital ehtiyatları | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | Cəmi kapital |
|---|---|---|---|---|
| **2022-ci il dekabrın 31-nə qalıq** | **2 000** | **-** | **516 943** | **518 943** |
| Hesabat dövründə xalis mənfəət (zərər) | - | - | *2 077 350* | *2 077 350* |
| Dividend | - | - | *(1 842 000)* | *(1 842 000)* |
| Düzəliş | | | *(23 871)* | *(23 871)* |
| **2023-cü dekabrın 31-nə qalıq** | **2 000** | **-** | **728 422** | **730 422** |
| ***2023-cü il üzrə kapitalda ümumi dəyişikliklər*** | - | - | *211 479* | *211 479* |
| **2021-ci il dekabrın 31-nə qalıq** | **2 000** | **-** | **437 039** | **439 039** |
| Hesabat dövründə xalis mənfəət (zərər) | - | - | *2 655 286* | *2 655 286* |
| Dividend | - | - | *(2 575 382)* | *(2 575 382)* |
| **2022-ci il dekabrın 31-nə qalıq** | **2 000** | **-** | **516 943** | **518 943** |
| ***2022-ci il üzrə kapitalda ümumi dəyişikliklər*** | - | - | *79 904* | *79 904* |

## Pul vəsaitlərinin hərəkəti haqqında hesabat

| | | |
|---|---|---|
| Müştərilərdən daxil olan pul vəsaitləri | 7 131 622 | 8 327 273 |
| Təchizatçılara və işçilərə ödənilən pul vəsaitləri | (4 599 898) | (4 023 200) |
| İşçilərin əmək haqqı ilə bağlı xərcləri | (226 026) | (273 643) |
| Digər ödənişlərə görə xaricolmalar | (114 062) | (352 101) |
| **Əməliyyatlardan əldə olunan pul vəsaitləri** | **2 191 635** | **3 678 329** |
| **Əməliyyat fəaliyyətindən xalis pul vəsaitlərinin hərəkəti** | **2 191 635** | **3 678 329** |
| Əsas vəsaitlərin alışı | (11 227) | (46 544) |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti** | **(11 227)** | **(46 544)** |
| Dividend ödənişi | (1 707 800) | (2 847 100) |
| Borc şəklində alınmış pul vəsaitlərinin daxilolmaları | 951 400 | - |
| Borc şəklində alınmış pul vəsaitlərinin xaricolmaları | (1 068 976) | (812 177) |
| Uzunmüddətli öhdəliklərin azalması (artması) | - | 24 320 |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan pul vəsaitlərinin hərəkəti** | **(1 825 376)** | **(3 634 957)** |
| Mübadilə məzənnələrinin dəyişməsinin təsiri | 32 | - |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması)** | **355 064** | **(3 172)** |
| Pul vəsaitləri və onların ekvivalentləri, *ilin əvvəlində* | 121 255 | 124 427 |
| Pul vəsaitləri və onların ekvivalentləri, *ilin sonunda* | 476 319 | 121 255 |
| Pul vəsaitləri | 476 319 | 121 255 |





# “İsmayıllı Quşçuluq “Açıq Səhmdar Cəmiyyətinin 2023-cü il dekabrın 31-nə balans hesabatı

*manatla*

| Aktivlər | 2023-cü il |
|---|---|
| Pul vəsaitləri və onların ekvivalentləri | 2684 |
| Debitor borclar | 103 |
| Keçmiş illərin zərəri | 383887 |
| Cəmi qısamüddətli aktivlər | 386674 |
| Mallar və ehtiyatlar | 91277 |
| Böyüdülməkdə və kökəlmədə olan quşlar | 37658 |
| Əsas vəsaitlər ( qalıq dəyəri ilə ) | 1465622 |
| Cəmi uzunmüddətli aktivlər | 1594557 |
| CƏMİ AKTİVLƏR | 1981231 |
| Uzunmüddətli bank kreditləri | 380245 |
| Təsisçilərlə hesablaşmalar | 316902 |
| Vergilər | 824 |
| Sair qısamüddətli öhdəliklər | 26058 |
| Cəmi öhdəliklər | 724029 |
| Nizamnamə kapitalı | 1257202 |
| Cəmi kapital | 1257202 |
| CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL | 1981231 |
| Malların təqdim edilməsindən gəlir | 96800 |
| Cəmi əməliyyat xərcləri | 95897 |
| Mənfəət | 903 |

***İdarə heyəti***



# NATO Ukraynaya 40 milyard dollar ayıracaqmı?



**NATO-nun Vaşinqtonda keçiriləcək sammitində Ukraynaya ildə azı 40 milyard dollar məbləğində silah tədarükünə dair qərar verilməlidir.**

TASS-a ixəbər verir ki, bunu NATO-nun Baş katibi Yens Stoltenberq Vaşinqtonda alyansın sammiti ərəfəsində keçirdiyi mətbuat konfransında deyib.

“Bu, minimum səviyyədir. Bu məbləğə digər yardım növləri, məsələn, makroiqtisadi yardımlar daxil olmayacaq”, - o qeyd edib.

***XQ***



# “Bakı Sənaye Tikinti” ASC səhmdarlarının nəzərinə!

15 avqust 2024-cü il saat 15.00-da Bakı şəhəri, 8-ci kilometr qəsəbəsi, B.Çobanzadə küçəsi 310 nömrəli ünvanda “Bakı Sənaye Tikinti" ASC səhmdarlarının illik ümumi yığıncağı keçiriləcəkdir.

Ümumi yığıncağın gündəliyi:

1. 2023-cü ilin hesabatı.

Sənədlərlə iş günləri saat 11.00-dan 15.00-dək cəmiyyətin inzibati binasında tanış olmaq mümkündür.

***İdarə heyəti***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 139 (30543) 6 iyul 2024-cü il, şənbə



# Gizli finalın açıq məqamları

**10-dan çox Avropa çempionatı turnirini izləmiş futbol azarkeşi kimi deyə bilərəm ki, bu Avro-2024, əksər futbol azarkeşləri kimi mənə də çox sönük təsir bağışladı. 1/4 final oyunlarına qədər biz super sensasiya görmədik. İsveçrənin İtaliyanı turnirdən kənarlaşdırması isə sadəcə ciddi futbol azarkeşi olmayanları heyrətləndirə bilərdi. Axı biz rəqiblərini qazona "yıxıb-sürüyən" bir komandanı belə görmədik. Heç "bundestim" deyəndə, stadionlarda qladiatorlar kimi meydan sulayan əsl alman futbol komandasının da şahidi olmadıq. Əlbəttə, bu turnirdə debüt edən Gürcüstan millisi çox emosional idi, lakin o da əsl futbol həyəcanı yaşatmadı.**

Ötən yazımızda da qeyd etmişdik ki, Avro-2024-ün 1/8 final mərhələsinin oyunları böyük sensasiyasız keçdi - yalnız qarşılaşmaların birində aşağı statuslu rəqib irəlilədi. Türkiyə millisi Avstriyanı mübarizədən kənarlaşdırdı. Əslində onun qrupdakı uğuru da bu Alp komandasının dərhal favoritlər sırasına düşməsinə imkan vermirdi. Gözlənilməz nəticələrin olmaması o demək idi ki, gözlənildiyi kimi, səbətin sol yuxarı hissəsi aşağı sağ hissədən daha güclü çıxdı. Bir tərəfdə Almaniya, İspaniya, Fransa, Portuqaliya, digər tərəfdə isə İngiltərə, İsveçrə, Türkiyə, Hollandiya.

Əlbəttə, siz də deyəcəksiniz ki, səbətlərdə olan bərabərsizlik ədalətsiz püşkatma meyarlarına görə deyil. Əgər bütün potensial favoritlər öz qruplarında birinci yeri tutsaydılar, Hollandiya turnirin gedişində Avstriyaya, İtaliya isə İsveçrəyə uduzmasaydı, 1/4 final cütlükləri aşağıdakı kimi görünə bilərdi:

**Almaniya – İspaniya**
**Portuqaliya – Niderland**
**İngiltərə – İtaliya**
**Fransa – Belçika.**

Bu Avropa çempionatının diqqət çəkən xüsusiyyəti onun mənfi təsəvvür yaratmasıdır. İndi isə onlar elə bir mərhələyə çatıblar ki, buradan turniri tərk etmək elə də utancverici sayılmayacaq. Amma onlar bura qədər elə tənbəlliklə gəlib çatıblar ki, sanki yay tətilində düşərgəyə gələn məktəblilərə məcburi futbol yarışı təşkil ediblər.

Əlbəttə, titullu böyük komandalar az da olsa, nüfuzlarına uyğun səviyyə göstərməyə səy göstərdilər və həyəcanlı anlar yaşatdılar. Amma bu yalnız Almaniya və İspaniya ilə məhdudlaşdı. Onlar da iyulun 5-də cümə günü ¼ finalda qarşılaşdılar. Hərçənd bu iki milliyə də ciddi suallar var idi. Dünyanın fizika qanunlarını belə dəf edən sədd kimi görünən "Bundestim" də, "Qırmızı furiya" da super qəhrəmanlara oxşamırlar. Bununla belə onlar bu mərhələdə qarşılaşana qədər Avro-2024-ün ən məhsuldar, həm də top-komanda statusunu təsdiqləyən komandaları oldular.

Dünənki dueli maraqlı edən məqamlardan biri Almaniyanın 2020-ci ildə İspaniya tərəfindən tarixdə ən böyük hesablı məğlubiyyətə uğraması idi. Bu millətlər liqasında baş verib. O zaman almanlara qrupun birincisi kimi pley-offa çıxmaq üçün heç-heçə də bəs edirdi. Lakin Yoahim Lövün dəstəsi "Qırmızı furiya" 0:6 hesabı ilə məğlubiyyətə uğradı. Bunun Almaniyada hansı reaksiya doğurduğunu demək artıq olardı. Alman millisi hətta 5 top fərqi ilə sonuncu dəfə 1954-cü il Dünya çempionatında Macarıstana uduzmuşdu - 3:8. Burada isə 6 top fərqi ilə məğlub olmuşdu. Bir sözlə, hamı bu qarşılaşmada fırtına qopacağını gözləyirdi.

Əslində onların finalda qarşılaşması, bu turnirin ən parlaq matçına çevrilə bilərdi. Mütəxəssislər bu komandaları dəyərləndirərkən, oyun keyfiyyətlərinə görə İspaniyanı daha üstün hesab edirdilər. Almaniya isə bunu öz meydançası, azarkeşləri və motivasiyası ilə kompensasiya etməli idi, çünki son vaxtlar bu komandanın ünvanına tənqidlər çox səslənir. Bu, həlledici rol oynaya bilərdi, ancaq ispanlar daha güclü görünürdülər.

İspaniya millisinin statusu heç bir halda onu böyük turnirlərin kəşflərindən biri hesab etməyə imkan vermir, lakin Avro-2024-də onun oyun tərzi olduqca xoş təəssürat yaradır. Eləcə də bu mərhələyə qədər olan nəticələr: Xorvatiyanın fasiləyə qədər nokautu, İtaliya üzərində tam üstünlük və pley-offa erkən çıxış. Deməzdim ki, bütün bunlar tam olaraq sensasiyadır, ancaq çempionat başlayanda buna çoxlu şübhələr var idi.

Əvvəla, onlar ən rəqabətli qrupa düşmüşdülər. Əlbəttə, Xorvatiya artıq əvvəlki Xorvatiya deyil və hər başa çatan il üçün ulduz nəslinin köçünü yaşamaq getdikcə onun vəziyyətini çətinləşdirir. İtaliya da zəif durumdadır və eyni problemləri yaşayır. Albaniya elə əvvəlcədən autsayderliyə doğru getmişdir. Bu əlavə problemlər yaratsa da, lakin pley-off üçün mübarizəyə ciddi müdaxilə etmədi. Fakt budur ki, İspaniya problemi iki raundda həll etdi. Bu komanda statistikası və rəqəmləri ilə deyil, məşqçilik ideyaları, üslubu, oyun texnikası və onların həyata keçirilməsi ilə çoxlarını heyran qoydu.




Luis de la Fuente dünyanın top-məşqçilərindən biri deyil, lakin o, komandasından Avropa Çempionatının favoritlərindən daha çox şey əldə etməyi bacardı. Müqayisə üçün qeyd edim: o, Qaret Sautqeytin komandasının potensialının yarısına belə sahib deyil. Ancaq İngiltərə Serbiya ilə 1:0 hesabından uzağa gedə bilmədi, Danimarka ilə çox əziyyət çəkdi və heç super ulduzları meydanda düzgün yerləşdirə bilmədi. Sizcə Qaretin sol cinah müdafiəçisi Fillipsin komandada olmaması ilə bağlı şikayətləri ayıb deyilmi? İspaniya isə artıq ikinci rəqibini darmadağın edir. Əgər fasiləyə qədər Xorvatiyaya qarşı 3 qol çox görünürdüsə, İtaliyaya qarşı 1:0 Luciano Spalletti komandasının güvənə biləcəyi mütləq minimumdur.

Topa nəzarət və onu itirdikdə dərhal reaktiv mübarizə, aramsız pressinq, uzaq məsafədən zərbələr və final mərhələsində sürətli oyun – elə görünürdü ki, de la Fuente bütün bunlar üçün elə ciddi resursa malik deyil. Çətin mövsümdən sonra 32 yaşlı Karvaxalın, Səudiyyə Ərəbistanından Laportun heyətə çağırılması onlara xüsusi münasibətdən irəli gəlməyib. Morata heç vaxt qol vuran super hücumçu olmayıb, 16 yaşlı Yamal və 21 yaşlı Uilyams və zədələrdən əziyyət çəkən Pedri qətiyyən belə bir turnirdə fərq yaratmalı olan futbolçular sayılmırdılar. Bütövlükdə isə Avro-2024, baş rollarda uşaq vunderkindləri ilə eksperimentlərdən daha çox təcrübəyə güvənməkdən ibarət idi.

Amma...İspaniyada hər şey alınır: 16 yaşlı Yamal oyundan bir gün əvvəl məktəbdə dərslərini bitirir, sonra isə Kalafori ilə DiMarkonu ustalıqla aldadıb geridə qoyur. Uilyams Di Lorensonu məhv edir və topa hər toxunuşunun qədrini bilir. Rodri meydançanın ortasını "biçir", Ruiz saatda 120 kilometr sürətlə uçan topu qapı çatının altından vurub Donnarummanın barmaqlarını yandırır. Qolkiper Simon isə turnirdə ən yaxşı çıxış edən komandalardan birinə qarşı oyunda işsiz qalır.

Təbii ki, bütün bunlar 1/4 finalda potensial uğursuzluqdan qoruyan amillər ola bilməzdi, lakin belə bir İspaniyaya müqavimət göstərmək heç də asan olmayacaqdı. Hələ onu demirik ki, indiki Avropa çempionatında nəzəri olaraq bunu edə biləcək cəmi bir, ya iki komanda var.

Almanlar bütün göstəricilərə görə ispanlardan geri qalırlar. Yulian Nagelsmannın rəhbərlik etdiyi komanda üçün ev Avropa çempionatının 1/4 finalından sonra kənarda qalmaq əsl faciə və uğursuzluq olardı. Amma neyləməli, İspaniya futbolçuları bu qarşıdurmada favorit hesab olunurdular.

Naqelsmann X sosial şəbəkəsində rəqibini belə dəyərləndirirdi: "İspaniya dərhal sürət yığmaq və topu ələ keçirmək üçün həmişə yüksək pressinq göstərməyə çalışır. Bu, onların əldə edə bildiyi yüksək keyfiyyətdir və bu, artıq sadəcə "tiki-taka" deyil. (Qeyd: ispan futbolunun "tiki-taka"sı qısa ötürmələrə əsaslanan və topla meydanın müxtəlif sahələrində hərəkət etmək, eləcə də daim topa sahib olmaqdır). Bizim topa çox sahib olmaqla rəqibin müdafiəsinə müdaxilə etməyə çoxlu yanaşmalarımız var. Amma 90 dəqiqə ərzində bunu edə bilməyəcəyik. Hücum etmək və onların həyatını çətinləşdirmək istədiyimiz məqamlar olacaq".

Komandanın kapitanı da meydanda necə bir komanda ilə mübarizə aparacaqlarını yaxşı bilirdi və ona görə mediaya açıqlamasında deyirdi: "Sabahkı oyunu səbirsizliklə gözləyirik - bu, çox çətin matç olacaq, lakin bu oyuna qeyri-müəyyənliklə girmək üçün heç bir səbəb yoxdur. Bu qarşılaşma "ya ol, ya da öl" oyunu olacaq. Əgər insanlar qarşılaşacaq millilərin turnirin ən yaxşı iki komandası olduğunu deyirlərsə, bu, çox şeyi düzgün etdiyimizi göstərir.

Rekordlara baxsaq, yaxın keçmişdə onlar bizdən daha yaxşı olublar. Bu, bir faktdır. Bu gün biz bunu dəyişmək istəyirik".

Bütün bunlara görə Almaniya ilə İspaniya komandalar arasındakı qarşılaşma, bu mərhələyə qədər nümayiş etdirdikləri futbolun keyfiyyətinə görə, gizli final oldu. Yüksək ehtimalla qalib Avropa çempionu olacaqdır. Turnir tarixində bəlkə də ilk dəfədir ki, iki əsas iddiaçı bu qədər erkən qarşılaşır.

Onu da xatırladaq ki, sonuncu dəfə Almaniya İspaniya ilə Qətərdə keçirilən 2022-ci il Dünya çempionatının qrup mərhələsində qarşılaşıb və həmin oyun 1:1 hesabı ilə nəticələnib.

Beləliklə, "Mersedes-Bens Arena" stadionunda keçirilən İspaniya-Almaniya matçının idarə edən baş hakim ingiltərəli FİFA referisi Entoni Teylor start fitini sələndirdi.

Matç həqiqətən finala bərabər səviyyədə keçdi. İlk dəqiqələrdən İspaniya millisi özünün texniki ustalığı ilə alman maşınına gərgin dəqiqələr yaşatmağı bacardı. Almanlar da borclu qalmırdılar. Buna baxmayaraq, ilk hissədə komandalar qapılara top vura bilmədilər.

İkinci hissə də ispanların qol istəklərinin daha güclü olması ilə diqqət çəkirdi. Matçın ilk hissəsinin 4-cü dəqiqəsində zədələnmiş Pedrini əvəz edən Dani Olmo daha baxımlı oyun nümayiş etdirirdi. Elə Almaniyanın "RB Leipzig" klubunun bu yarımmüdafiəçisi 51-ci dəqiqədə cinah yarımmüdafiəçisi Lamin Yamalın ötürməsi ilə hesabı açdı 1-0. Amma ispanlar əsas vaxtda bu hesabı qoruyub saxlaya bilmədilər.

Oyunun qalan vaxtında turnirin ev sahibləri kəskin əks-hücumlar edərək fərqi azaltmağa çalışsalar da, son mərhələdə ya bəxtləri gətirmir, ya da ispanlar fədakarcasına qapılarının qapşısında sipərə çevrilirdilər. Lakin bu fədakarlıq çox çəkmədi. 89-cu dəqiqədə almaniyalı yarımmüdafiəçi Florian Virts Kimmixin ötürməsini güclü zərbə ilə qola çevirib hesabı bərabərləşdirdi.

Beləliklə, matçın əsas vaxtı heç-heçə başa çatdı. Komandalar hər biri 15 dəqiqədən ibarət daha iki əlavə hissə oynamalı oldular. Oyunun 108-ci dəqiqəsində top cərimə meydançasında olan ispaniyalı cinah müdafiəçisi Mark Kukurellanın əlinə dəydi. Hakim oyunu tez dayandırsa da, yoxlama çox çəkmədi. VAR burda penaltinin olmadığı qərarında idi. Penalti təyin olunmadı.

Nəhayət, oyunun əlavə vaxtının ikinci hissəsinin başa çatmasına saniyələr qalmış İspaniya millisi hesabda yenidən irəli çıxdı. De la Fuentanın oyunun əsas vaxtının 80-ci dəqiqəsində meydana çıxardığı Mikel Merino Dani Olmanın 119-cu dəqiqədə qapıçı meydançasına ideal ötürməsini başı ilə Noyerin qapısından keçirdi. İngiltərəli hakim sanki 11 metrlik zərbə təyin etmədiyi üçün almanlar qarşısında özünü sığortalayırmış kimi, oyuna daha 3 dəqiqə əlavə etdi. Amma bu 3 dəqiqə 6 dəqiqə oldu.

Elə bu artırılmış dəqiqələrdə İspaniya millisinin müdafiəçisi Dani Karvaxal almanların sağ kənar hücumçusu Musialanı kobudluqla tutub saxladı və qarşısında dərhal sarı vərəqə gördü. Bu onun oyunda ikinci sarı vərəqəsi olduğunda, həmin andaca Entoni Teylor cibindən qırmızı vərəqəni çıxarıb Karvaxalın meydanı tərk etməsinə işarə etdi. İspaniyalı müdafiəçi Avropa çempionatının yarımfinalında oynamayacaq. Amma bu, heç nəyi dəyişmirdi, İspaniya millisi Avro-2024-ün ev sahiblərini bundan sonra keçiriləcək qarşılaşmaları tamaşaçı kimi izləməyə yola saldı. İndi Portuqaliya-Fransa cütünün qalibi ilə yarımfinalda "Bundestim" yox, "Qırmızı roho" oynayacaq. İspaniya millisi son 5 Avropa çempionatında dördüncü dəfə çıxış etdiyi dörddəbir finalda qalib gələrək yarımfinala vəsiqəni təmin etdi.

Fransa millisi ilə Portuqaliya yığması arasında keçirilən görüş günün növbəti matçı oldu. Etiraf edək ki, nə Portuqaliya, nə də Fransa indiyədək UEFA Avro-2024-də yaxşı çıxış etməyiblər, lakin qarşıdakı matç hər iki komandaya öz ambisiyalarını təsdiqləmək və nəyə qabil olduqlarını ortaya qoymağa şans verirdi. Meydanda çoxlu ulduz futbolçular vardı, lakin əsas diqqət Kriştiano Ronaldo və Kilian Mbappeyə yönəlmişdi. Əvvəlcədən rəylər belə idi ki, bu matçda müdafiə oyunu hər iki məşqçinin əsas seçimi olacaq.

Portuqaliya millisinin qapıçısı Dioqo Kosta penaltilər seriyasında üç "seyv" edərək, Sloveniya ilə matçın əsl qəhrəmanı olub. Fransa millisi isə dörd görüşdə bir dəfə qol buraxmayıb və xüsusilə Jül Kunde və Villiam Saliba öz oyunları ilə pərəstişkarlarını heyran qoya biliblər. Kimin qalib gəlib yoluna davam edəcəyi Hamburqda müəyyənləşirdi.

*Səhifəni hazırladı:*
***İlqar RÜSTƏMOV***
***XQ***

## Hansı məşqçi daha çox qazanır?



Britaniyanın "Daily Mail" nəşri Avro-2024-də iştirak edən milli komandaların məşqçilərinin əmək haqlarının reytinqini dərc edib. 17-ci Avropa futbol çempionatının ən yüksək maaş alan 10 ən yaxşı mütəxəssisinin siyahısında birinci yerdə 5,9 milyon avro ilə İngiltərə millisinin baş məşqçisi Qaret Sautqeytdir. İkinci və üçüncü yerləri isə müvafiq olaraq 5,66 milyon avro ilə Almaniya millisinin baş məşqçisi Yulian Naqelsmann və 4,72 milyon avro ilə Portuqaliya komandasının rəhbəri Roberto Martines tutur. Türkiyə millisinin baş məşqçisi Vinçenzo Montello isə 1,7 milyon avro əməkhaqqı ilə ilk onluqda yeddincidir.

## Bellingem də, İngiltərə də cərimələndi



UEFA İngiltərə millisinin yarımmüdafiəçisi Cud Bellingemi Avro-2024-ün 1/4 finalında Slovakiya ilə oyunda nalayiq jestinə görə 1 oyun şərti olaraq cəzalandırıb. Cəza bir il müddətində qüvvədə olacaq. Yarımmüdafiəçi 30 min avro cərimə ödəyəcək.

UEFA həmçinin İngiltərə Futbol Assosiasiyasını milli komandanın azarkeşlərinin ictimai asayişi pozduqlarına görə 10 min avro, fişəng yandırdığına görə isə 10 min avro cərimələyib.

## Demiral 2 oyunluq cəzalandırıldı



UEFA Türkiyə millisinin müdafiəçisi Merih Demirali 2 matçda oynamayacağı ilə cəzalandırıb. Bunu qurumun rəsmi saytı bildirib.

26 yaşlı türk Avro-2024-ün 1/8 finalında Avstriya ilə oyunda (2:1) ifrat sağçı baxışları ilə tanınan "Bozqurd" təşkilatı ilə əlaqəli olan canavar salamı jestini göstərib. Təşkilatın fəaliyyəti Avstriya və Fransada qadağandır.

Mənbənin məlumatına görə, Türkiyə tərəfi futbolçunu qorumaq üçün UEFA-ya onlayn ərizə təqdim edib. Müraciətə 24 saat ərzində baxılacaq və qərar veriləcək.

Beləliklə, bundan sonra Türkiyə yalnız turnirin finalına yüksələrsə, Demiral Avro-2024-də oynaya biləcək.

**Hava**

## Yenə də Aranda günəşli, dağlarda yağış, duman və külək

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, iyulun 6-da Bakıda və Abşeron yarımadasında hava yağmursuz keçəcək.**

Şimal-qərb küləyi əsəcək, gündüz şimal-şərq küləyi əvəz olunacaq. Gecə 21-26°, gündüz 34-39° isti olacaq. Atmosfer təzyiqi 755 mm civə sütunu, nisbi rütubət gecə 60-70, gündüz 35-40 faiz olacaq. Abşeron çimərliklərində gözlənilən dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 26-27° isti,Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 27-28° isti olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək, gündüz bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 21-26°, gündüz 35-39°, dağlarda gecə 8-13°, gündüz 20-25° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

**ALLAH RƏHMƏT ELƏSİN**

Odlar Yurdu Universitetinin rektoru Əhməd Vəliyev ailəsi ilə birlikdə Səlim Müslümova həyat yoldaşı

**NƏZAKƏT XANIMIN**

vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2896
SİFARİŞ 1412
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV
Çapa imzalanmışdır 00:00